
MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ



AZƏRBAYCAN CÜMHURİYƏTİ

Məhəmməd Əmin Rəsulzadə

AZƏRBAYCAN CÜMHURİYƏTİ

Bakı - 2015

Yenidən işləyib çap edən: **Yadigar Türkel**
fəlsəfə üzrə elmlər doktoru

Məhəmməd Əmin Rəsulzadə. «AZƏRBAYCAN CÜMHURİYƏTİ» Bakı. 2015, 152 səh.

İSBN: 5-8020-2102-0

© Məhəmməd Əmin Rəsulzadə

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

(31 YANVAR 1884 - 6 MART 1955)



Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı köyündə ruhani ailəsində doğulub. Atası Axund Hacı Molla Ələkbər Rəsulzadə, anası Zal qızı Zinyətdir.

İlk oxuma, eləcə də ulusal eyitimini ailəsində alan Məhəmməd Əmin Bakı Texniki Okuluna girsə də çağın politik olaylarına qatıldığından oxumağı buraxıb basına atılmış, 1903-cü ildə Tiflisdə çıxan «Şərq-i Rus» qəzetində ilk yazısını yayımlamışdır.

1903-cü ildən çeşidli sosial-siyasi dərnəklərdə çalışan Məhəmməd Əmin bəy gizli yaşıllar qurumu yaradıb çarizmə qarşı çıxmış, izləndiyindən 1909-cu ildə İrana [Qacarlar dövlətinə] getmişdir. İranda anayasaçılıq axınına qatılıb, «İran-e nov» (Yeni İran) adlı gündəlik qəzet çıxaran Məhəmməd Əmin bəy Rus böyük elçisinin basqısı ilə 1911-ci ildə oradan çıxarılmışdır. İstanbula gələn Məhəmməd Əmin bəy burada «Türk ocaqları»nın çalışmalarına qatılmış, «Türk yurdu» dərgisinə yazılar yazmışdır.

1913-cü ildə Romanovların 300 illiyilə bağlı bağışlanandan sonra Bakıya dönən Məhəmməd Əmin Rəsulzadə çeşidli kültür, politika qurumlarında çalışmış, 1915-1917-ci illərdə Türk dilində «Açıq söz» adlı gündəlik qəzet çıxarmışdır.

«Türk Federalist Müsavat Xalq Partiyası»nın başçısı

Məhəmməd Əmin Rəsulzadə 1917-ci ildə Bakıda toplanan Qafqaz Müsəlmanları Qurultayında Rusiyanın yerli özərkliklərə bölünməsinə, Güney Qafqaz Seymində isə Müsəlman Fraksiyasının başçısıtək Qafqazın Rusiyadan ayrılmasına, Azərbaycan Cümhuriyətinin qurulmasına çalışmışdır.

1918-ci il mayın 28-də, Tiflisdə Azərbaycan Cümhuriyətinin yaradıldığı bildirilmiş, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə iyunun 4-də Cümhuriyətin Dış İşləri bakanı Məhəmməd Həsən Hacınskilə birlikdə Batum Konfransında Osmanlı dövlətilə anlaşaraq ordu yardımı almışdır.

Azərbaycan Cümhuriyətinin 23 aylıq dönəmində Azərbaycan, Türk ulusu üçün çox böyük politik, ideoloji, ekonomik, kültür işləri görülmüşdür.

1920-ci il aprelin 27-də Rus-erməni-sovet-mason bolşefaşistləri Bakını tutub Azərbaycan Cümhuriyətini devirmişlər. Bundan sonra tutulub Moskvaya aparılan Məhəmməd Əmin Rəsulzadə Finlandiyaya qaçmış, oradan İstanbula gəlib, 1923-cü ildə «Azərbaycan Cümhüriyəti (Keyfiyət-i, təşəkkülü və Şimdiki vəziyəti)» adlı bitiyini yayımlamışdır.

1923-cü ildən bütün türklər üçün yayımladığı «Yeni Qafqaz»dan (1923-1928) sonra «Azəri türk» (1928-1929), «Odlu yurd» (1929-1931) dərgilərini çap etdirmişdir.

Sovet Ağalığının Türkiyə Cümhuriyətinə basqısı üzündən 1931-ci ildə arxadaşları ilə birlikdə İstanbuldan Avropaya gedən Məhəmməd Əmin Rəsulzadə 1932-ci ildən Varşavada yaşamışdır.

1939-cu ildə Alman faşistləri Polşanı tutandan sonra Rumıniyanın başkəndi Buxarestə keçən Məhəmməd Əmin bəy 1942-ci ildə Almaniyanın başçıları ilə Azərbaycan Cümhuriyətinin gələcəyini danışmağa çalışmış, istədiyi alınmadığından, yenidən Buxarestə dönmüşdür.

1944-cü ildə Sovet Ordusunun Buxarestə yaxınlaşmasından sonra Almaniyaya gedən Məhəmməd Əmin bəy 1945-ci il aprelin 24-də Amerikanların tutduğu bölgəyə keçmişdir.

1947-ci ilin sentyabrında Türkiyəyə gələn Məhəmməd Əmin Rəsulzadə ömrünün sonuna kimi Ankarada yaşamış, böyük bilimsəl, politik, ideoloji işlər görmüşdür.

1952-ci ildə Avropaya gedən Məhəmməd Əmin Rəsulzadə orada «Qafqaz Bağımsızlıq Komitəsi»ni qurmuşdur. Azərbaycançılıq, türkçülük, islamçılıq, çağdaşlıq ideyalarının dönməz savunucusu olan Məhəmməd Əmin Rəsulzadə qafqazçılıq ideyasını da dönmədən yayırdı. Çağdaş Azərbaycan Respublikasında qafqazçılıq ideyası da azərbaycançılıq ideologiyasının içindədir.

Ayrı-ayrı çağlarda Azad Avropa Radiosundan sevgili Azərbaycanına səslənən Məhəmməd Əmin Rəsulzadə 1955-ci il martın 6-da Ankarada ölmüşdür.

Məhəmməd Əmin Rəsulzadə «Qaranlıqda işıqlar»-»Nagəhan bəla», «Camaat idarəsi», «Bizə hankı idarə faydalıdır», «Azərbaycanın təşəkkülündə Müsavat», «Azərbaycan Cümhuriyəti», «İstiqlal məfkurəsi və gənclik», «Rusiyada siyasi vəziyət», «İnqilabçı sosializmin iflası və demokratiyanın gələcəyi», «Milliyət və bolşevizm», «Qafqaz türkləri», «İran türkləri», «Azərbaycanın kültür gələnəkləri», «Çağdaş Azərbaycan ədəbiyatı», «Çağdaş Azərbaycan tarixi», «Milli birlik», «Azərbaycan şairi Nizami», «Panturanizm. Qafqaz sorunu», «Çağımızın Siyavuşu» eləcə də başqa çox dəyərli bitiklər yaratmışdır.

YADİGAR TÜRKEL

2015-Cİ İL ÇAPINA ÖN SÖZ

Məhəmməd Əmin Rəsulzadə XX yüzildə Azərbaycanın yetirdiyi ən böyük politoloq, politik, ulusal ideoloqdur! Azərbaycanın bağımsızlığı, dövlətçiliyi, ideologiyası, ulusal kimliyi yolunda onuntək dönmədən çalışmış ikinci politik yoxdur!

Ötən 24 ildə Azərbaycanın dönməz azərbaycançı aydınları Rus-erməni-sovet-mason bolşefaşistlərinin 70 il ulusundan gizlətdiyi Məhəmməd Əmin Rəsulzadə ilə arxadaşlarını yurddaşlarına az-çox tanıdıblar. Bu ideoloji savaşın sonunda, Azərbaycan Respublikasının Prezidenti 2013-cü il noyabrın 22-də Məhəmməd Əmin Rəsulzadənin 130 illiyini bayram etməkdən ötrü Göstəriş verdi. Ancaq Göstərişdən bir ildən çox ötsə də, bu yöndə önəmli bir iş görülməmişdir! Bundan dolayı Azərbaycanın yurdsevər, ulussevər aydınları ulusun şəhid balalarının ölüsü üstündə yenidən qurduqları Azərbaycan Respublikasının dövlət yetkililərilə barışmaz ideoloji savaşdadırlar!

Azərbaycanın 1905-ci il Rusiya Devrimindən sonrakı 110 illik politik, ideoloji, kültür tarixi Məhəmməd Əmin Rəsulzadəsiz boş, qara tuneldir! Buna görə də Məhəmməd Əmin Rəsulzadənin politik, ideoloji bitiklərini toplamaq, yayımlayıb ulusuna çatdırmaq Azərbaycan dövlətinin, aydınlarının başlıca görəvlərindəndir.

«Elm» Yayım evi Məhəmməd Əmin Rəsulzadənin 1923-cü ilin mayında İstanbulda yayımladığı «Azərbaycan Cümhuriyəti (Keyfiyət-i təşəkkülü və Şimdiki vəziyəti)» bitiyini 1990-cı ildə Bakıda çap etmişdir. Türkiyə türklərindən Yavuz Akpınar, İrfan Murad Yıldırım, Səbahəddin Çağın da bu bitiyi 1990-cı ilin oktyabrında «Azərbaycan Türkləri Kültür, Dayanışma Dərnəyi»nin yardımı ilə İstanbulda «Azərbaycan Cümhuriyəti» adı ilə çap etmişlər.

«Azərbaycan Cümhuriyəti» anıtı Azərbaycan türklərinin özünüanlama, özünütanıma, özünütanıtma, özünüqoruma savaşı – Məhəmməd Əmin savaşıdır! Ötən 24 ildə Azərbaycanlılara ulusal

kimliyini anladan bu tarixi, geopolitik, ideoloji anıtı Türk dilinə Fars dilindən gətirilmiş, gətiriləndən Türk dilinin quruluşunu, düşüncə biçimini, anlamlığını, kəsinliyini, gözəlliyini pozan Kİ, VƏ bağlayıcılarından, dil bilimçilərinin ƏDAT dedikləri, «ayrılıqda anlamı olmayan, cümlədə başqa sözlərlə birlikdə anlam qazanan», düzünə qalsa, heç bir anlam qazanmayan, gərəksiz fəqət, əcəba, zatən, hətta, hərçəndi, sadəcə... eləcə də başqa busayaq Ərəb sözlərindən arındırıb, Azərbaycan-Latın yazısı, yüksək çap texnologiyası ilə yeni soylara çatdırmamaq bağışlanmazdır! Məhəmməd Əmin Rəsulzadə deyir: «Politik hüququna, toprağına, yaşamın özülü olan ekonomisinə sayğısız qalan bir ulus dilini, ulusal kimliyini qoruya bilərmi?!».

Buna görə Azərbaycan dilçilərini, aydınlarını, jurnalistlərini bir daha türkcə düşünməyə, türkcə yazmağa çağırırıq!

Azərbaycan türklərinin ən böyük sorunlarından biri «seçkin sorunu»dur. Azərbaycanda öncə İslam dininin yayılması ilə bir sözünün on-iyirmi, tərs anlamı belə olan Ərəb dili, açıq, irəliçi Türk düşüncəsinin yerinə tutucu, geriçi İslam düşüncəsi yayılmış, Türklər özlərini müsəlman kimi anlamağa başlamış, sonra da Azərbaycanın Türk ağalarının-bəylərinin-seçkinlərinin ulusal düşüncəsizliyindən Fars dili Türk dilini yüksək çevrələrdən, rəsmi yazışmadan çıxarmışdır.

Acınacaqlı da olsa, bu gün də belədir! Azərbaycanı 1993-cü il iyunun 15-dən oçağkı prezident Əbülfəz Əliyevin, yüksək dövlət yetkililərinin ağciyərliyi, qorxaqlığı, dönüklüyü, satqınlığı üzündən Ağalığı dövlət çevrilişi yolu ilə ələ keçirmiş, Türk ulusal kimliyinə yad, Orta çağ düşüncəli, Azərbaycan aydınlarının minillik «ədalətli ölkə», yüz illik, çağdaş demokratik dövlət qurmaq idealını ürəklərində qoymuş «yarımrus» yolsuzlar yönətir!

Arı-duru, başqasına sayğılı Türk düşüncəsindən uzaq, Rus-erməni-sovet-mason bolşefaşistlərinin yetirdiyi bu geridüşüncəli komunistlər 1995-ci ildə özlərinin yetişdirdikləri bir bölük «xalq

şairi», «xalq yazıçısı»nın dəstəyi, «yalançı ellikləsəsvermə» ilə uyğuladıqları Anayasada Azərbaycan Respublikasının dövlət dilinin Türk adını dəyişib, Azərbaycan dili etdilər. Bu, Azərbaycana, Türk ulusuna, ulusal dirçəlişə edilmiş bağışlanmaz dönüklük, satqınlıq idi! Məhəmməd Əmin Rəsulzadə isə bütün ömrü boyu ulusal kimliyini itirmiş belə «seçkin»ləri: «Hə, dizi üstündən enməyən Füzulisi, Koroğlu ilə bağrıyanıq Kərəmə ağlayan aşıqları, bu aşıqların ürək dağlayan sazları ilə çobanların könül oxşayan türküləri, çocuqların sevə-sevə oxuduqları maniləri, anaların yavrularını uyudurkən çağırdıqları ninniləri seçkinlərinin düşüncəsilə özünü İranlı bilən bu ulusun çox böyük bir çöküşdə olduğunu göstərir: – Yox, deyil, sən Türksən!» – hayqırışı ilə oyatmağa çalışmışdır.

Biz də Azərbaycan tarixinin bu taysız bitiyini yayımlamaqla ulusal düşüncəsi dolaşdırılmış ulusumuzu türklüyə çağırırıq!

«Azərbaycan Cümhuriyəti» bitiyinin 1990-cı il çapında bir sıra abzaslar çox böyük olduğundan 2015-ci il yayımında gərəkən yerlərdə yeni sıralar açılmış, adlar Hüseynzadə Əli kimi yox, Azərbaycan oxucusunun düşüncəsindəki Əli bəy Hüseynzadətək yazılmışdır. Bundan başqa ancaq adı, ya da soyadı yazılan bir sıra tanınmışların adı, ya da soyadı düz ayrıcda [Nəriman], [Nərimanov] artırılmışdır.

Oxucuların bitiyin «Təşəttüti-əfkarın tovhidi üçün tətbiq olunan iqna üsülu ilə bərabər bir az daha icbar təriqinə gedilsə idi, ehtimal ki, nəticeyi-vüquat başqa dürlü olurdu» kimi dilinin anlaşılmaz Ərəb-fars sözlərindən arındırılmasının Türk dilinin gələcəyi, çağdaş, eləcə də gələcək soylar üçün önəmini dərindən anlamalarından ötrü Əli bəy Hüseynzadənin «Bir mütaliə»sini olduğu kimi vermişik.

Sevgili Azərbaycanından uzaqlarda «qaçqın yaşamının çəkilməz koşulları içində» yaşayan Məhəmməd Əmin bəy daha çox yadında qalanları yazdığından, bir sıra olayların tarixini, qurucu arxadaşlarının adlarını, soyadlarını kiçik yanlışlarla vermişdir. «Azərbaycan Cümhuriyəti» bitiyi Azərbaycan tarixininin, politikasının, ideologiyasının ensiklopedik yolgöstərəni olduğundan,

gələcək soylara daha düzgün yol göstərmək amacı ilə bitikdə göstərilən ideoloji bilgiləri Azərbaycan Respublikasının Dövlət arxivlərindən, başqa qaynaqlardan tapıb, düz ayrıcda [ ] gərəkən yerinə qoyduq. Ayrıcladakı ( ) sözlər Məhəmməd Əmin Rəsulzadənin, düz ayrıcladakı [ ] açıqlamalar Yadigar Türkelindir.

1990-cı il İstanbul çapını yayımlayanlar yararlandıqları 1923-cü il bitiyinin üzünün olmadığını, ancaq onda Azərbaycan Respublikasının üçboyalı bayrağının qara dördbucaq içində çəkildiyini bildiklərindən, bunu 1990-cı il çapında da oxşar etmişlər. Ancaq bu gün Azərbaycan Respublikası vardır, yaşayır, gəlişir, 1992-ci ildən Birləşmiş Uluslar Qurumunun, 2001-ci ildən də Avropa Şurasının üyəsidir. Buna görə də Azərbaycan Cümhuriyətinin üçboyalı, üçanlamlı, ay-ulduzlu bayrağını bitiyin üzünə sevinclə çəkirik!!!

Azərbaycan Cümhuriyəti Türklərin Bəylik qurumunun Azərbaycan tarixində etdiyi, çağdaş, eləcə də gələcək soyların öyünə biləcəyi ən böyük politik olaydır!

Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Cümhuriyətinin tarixini yazacaq tarixçilərin olayları dərindən öyrənəcəklərini deyirdi. Azərbaycan aydınları ötən 27 ildə Azərbaycan Cümhuriyətinin tarixini, onu yaradanların örnək yaşam yolunu, politik-ideoloji yatırını az-çox öyrəniblər. Bu ulusal borc bir az da dövlət əlilə edilib. Biz də Azərbaycan, Türk ulusu qarşısında sorumluluğumuzu anlayaraq, Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan Cümhuriyəti politik-ideoloji, kültür anıtını Azərbaycana, Azərbaycanlılara, Türk ulusuna yaraşan biçimdə işləyib gələcək soylara çatdırmaqla borcumuzu ödəməyə çalışdıq.

Kiçik əməyimizi dəyərləndirənlərə, Azərbaycan Respublikasının Dövlət Arivinin [ARDA], Azərbaycan Prezidentinin İşlər Qurumunun Politik Bəlgələr Arxivinin [APİQPBA] əməkdaşlarına, onun çapında əməyi olan bütün aydınlara, daha çox da **Xan Bahadır Törəliyə, İlqar Vahidoğluna** ÇOX SAĞ OL! – deyirik.

YADİGAR TÜRKEL
fəlsəfə üzrə elmlər doktoru

BİR MÜTALİƏ

Əzizim, Əmin arkadaş! «Azərbaycan Cümhuriyəti» ünvanilə vücudə gətirdiyiniz əsər həqqində fikir və mütaliəmi soruyorsunuz...

Cahan hərbinə qədər Azərbaycanın həyati-hərsiyə və ictimaiyəsini yaxından-uzaqdan az-çox təqib edə bilmişdim. Fəqət hərb başladıqdan sonra buna layiq vəchlə davam bittəb mümkün olmadı.

İki qardaş Türk şəhəri olan İstanbul ilə Bakı və əlləlümum Türkiyə ilə Azərbaycan arasında sövqi-hadisat ilə peyda olan qalın sis pərdəsi bir şey görməyə, eşitməyə, duymağa mane oldu. Bu gün pərdə yavaş-yavaş qalxıyor. Siz də bu pərdəni qaldıranlardan biri olursunuz.

Həqiqət yekdikərə müariz tərəfləri dinləməklə meydana çıxarıla bilir. Ötədən bəri hökmləri vermək üçün «Andiatur et altera pars», yəni «Digər tərəflər də dinlənməli» qaydasına riayəti kəndimə bir vəzifə ittixaz etmiş olduğumdan, əsəriniz həqqində ancaq bu nöqteyi-nəzərdən bəyani mütaliə edə bilirəm.

Siz Azərbaycanın ən böhranlı zamanlarında fəal bir mücahid sifətilə çalışdınız, bir çox mühüm vəqaye və hadisatı rəyüleyn yaxından gördünüz, müxtəlif cərəyanların içində bulundunuz və sərgüzəştlərlə mali bir həyat yaşadınız!...Və zatən mövcud və müsəlləm olan elm və ürfanınıza əlbəttə, pək çox qiymətdar və müfid müşahidat və məlumat əlavə etdiniz və şübhəsiz, bunları əsərinizdə qeyd və təsbitə çalışdınız. Lakin siz Azərbaycanda bir tərəfi, bir firqəni, bir firqəyi-siyasiyəni təmsil ediyorsunuz. Arzunuza rəğmən nə dərəcə bitərəf qala bilirsiniz, bunu şimdiki halda təyindən

acizəm...

Məmafih, şübhə yoxdur ki, əsəriniz bir boşluğu doldurуyor. Türkiyə nəşriyatının ən böyük qüsurlarından biri qonşu məmləkətlər, ələlxüsus həmcivar Türk ölkələri həqqində sədrə şəfa verəcək kafi məlumatı ehtiva etməməsidir. Bu cəhətlə əsəriniz hadisatı vəlöv vəhidülcanib bir zaviyəyi-röyətdən görüyor fərz edilsə belə, mətbuatımıza pək qiymətli bir hədiyə olacaqdır. Çünki mövzuyi vəziyəti-iqtisadiyə və siyasiyəsi ilə aləmşümül bir əhəmiyəti haiz olan Bakının, Azərbaycanın və dolayısı ilə bütün türklüyün müqəddəs və müəzzəz istiqlalı, istiqbalı məsələlərinə təmas ediyor.

Bir xəlqin, bir millətin asudə və müsəmmər bir həyatə, rifah və səadətə nail ola bilməsi nasıl sünufi-ictimaiyə beynində iqtisadi bir təsanüd və ədalətin vücuduna vabəstə isə öylə də aləmin, bütün bəşəriyətin sülh və asayiş nemətlərindən mütənəm ola bilməsi beynəlmiləl münasibatda ədalət və insaf məfhumlarının hakim və cari olmasilə qabildir. Beynəlmiləl insaf və ədalətdən doğan sülhi-ümumiyi-aləm isə Azərbaycan dəxi hürriyət və istiqlalını istilzam edər. Ancaq bu istiqlalın mücahidləri, nigahbanları qəvi və mütəqəyiz olmalıdırlar!..

İzmir İqtisad Konqresində, «İqtisadi misaq» proqramında bir də «Kitab bayramı» ehdasından bəhs olunuyor. Ümid edirəm ki, «Azərbaycan Cumhuriyəti» ilk «Kitab bayramı» ziyafətində ən dadlı, ən müğdi qidayi-ruhiyələrindən biri olur və ... Türk istiqlalının mücahidlərini, nigahbanlarını bəslər, təqviyə edər və oyandırar!

ƏLİ BƏY HÜSEYNZADƏ

GİRİŞ

Doğunun çox dərin bir coşqunluq içində bulunduğu sözsüzdür. Birinci Dünya Savaşının sarsıtdığı bu aləm yüzillərdən bəri alışdığı durğunluqdan silkinərək gerçək bir yaşam işartısı göstərir.

Bütün dünyanı silkələyən bu devrim saldırısı İslam uluslarını da sardı. Uluslaşma çağını adlayan ölkələrdə toplumsal nədənləri yönəldərək toplumsal devrim idealını doğuran bu saldırı İslam ölkələrində başqa bir devrim idealı doğurdu: ULUSAL AĞALIQ İDEALI.

Anadolu türklüyünü ağılları şaşırdan tarixi bir bahadırlığa yönəldən bağımsızlıq idealı bütün Doğu uluslarının qutlu idealıdır.

Ağalıq, bağımsızlıq idealı ilə aşılanan Doğu ulusal axını indi son amacına doğru gedir. Gediləcək daha çox yol var. İtkilər, ağrı-acılarla dolu olan bu yolu qolay gedə bilmək üçün yoldaş bulunan doğulular bir-birini tanımalıdırlar. İslam aləmi Quranın «Fətəarafu» [Bir-birinizi tanıyın] buyuruğuna daha çox indi uymalıdır.

Xəlifəlik başçısı bulunan Türkiyə İslam aləminin birlik ortaqlığıdır. Ulusal Ağalıq düzənilə qurulan yeni Türkiyə Türk ellərinin umud yeridir. Ulusal idealın ünlü uğurunu göstərən böyük Türkiyə Doğu uluslarının yolgöstəricisidir.

Hə! Türkiyə ilə Doğu, İslam, daha çox da Türk aləmi arasındakı duyğu bağı kanıtlanacaq bir olay deyildir. Ancaq bu bağlılıq bilimsəl tanıtmalarla göstərilməlidir.

İndiki çağın tanışlıq aracının basın olduğu bəllidir. Doğu basınına baxsaq, doğuluları bir-birinə tanıdacaq tanışlıq qaynağı neçə bitik buluruq?!...

Avropada isə «Doğu bilimçiliyi» bəllibaşlı bir bilimdir. Burada yaşamını Doğunu öyrənməyə vermiş bilimçilərlə yanaşı, Doğudan çoxlu bitiklər, toplular bulursunuz!

Burada Doğu sorunlarını öyrənən qurumlar yalnız dil, arxeologiya, tarix, ədəbiyat kimi bilimsəl sorunlarla uğraşmayıb, Doğuda yaşanan politik, toplumsal, ekonomik olayları, axınları da günü-gününə izləyərək, ölkələrini sürəkli bilgiləndirirlər.

Biz doğuluların bu yöndəki bilgisi isə qəzetlərdəki qırıq-tökük çevirmə yazılardakı olaylarla sınırlanır. Biz bilirik: Əfqanıstan bağımsızlığını bildirmiş, Azərbaycan Cümhuriyət yaratmış, İran yadelli ordudan arınmış, İraq, Hicaz, Fələstin qorunma altına alınmış, Hindistanda bir ulusalçı axın varmış, Misir də bağımsızlıq savaşı edirmiş... Bax bunca... Bundan artıq bilgi almaq üçün güvənilən bir yer, geniş bilgili bir qaynaq ararsaq, əlimizə tək bir bitik də keçməyəcəkdir!

Bu durum «Tanıma»nı saran ən böyük çatışmazlıqlardandır. Bu çatışmazlığın Doğunun bütün uluslarını nə boyda qapsadığını kəsinliklə deyə bilməsək də, müsəlman bölümünə deyə bilirik. Bu çatışmazlıq İslam aləminin ortaqlığı, Türk ellərinin umud yeri olan Türkiyədə daha çox etkilidir.

Örnəktək konumuz Azərbaycan sorununu alaq. Görüşdüyümüz adamlardan bu sorunun Türkiyə toplumsal düşüncəsində nə düzəydə aydınladıldığını öyrəndik. Ulusal Azərbaycanla indiki Azərbaycan arasındakı ayrılığı bir çoxları bilmirlər. Azərbaycanın bağımsız ikən get-gedə bütün hüququnun Rusiyaya nədən verildiyini, Azərbaycanlıların buna nədən boyun əydiklərini soranlarla qarşılaşdıq. Bolşevikləri Azərbaycana ulusun çağırdığına inananlar var. Bolşeviklərə qarşı çıxarılan ayaqlanmalar necə anlaşılmış, necə yozulmuş?!... Bu da çox acı bir öygü. Bolşevik əlində bulu-

nan Azərbaycanı uğurlu görənlər də yox deyil. Kəsəsi, bilgisizlikdən doğan bir çox yanlış anlamalar, yanlış düşüncələr, bundan doğan könül qırıqlığı iki qardaş ulus arasında istənməyən utanmaq, darğınlıq yaradır.

Biz öz gücümüzlə «Ulusal Azərbaycan Yayınları» genəl adı altında ardıcıl çap edəcəyimiz bir sıra bitiklərlə Azərbaycanın durumu ilə bağlı konuları işıqlandırmaqla bu yöndəki tanıma çatışmazlığını azaltmağa çalışacağıq.

Azərbaycan Cümhuriyəti İslam aləmində yaranan ilk Respublikadır. Bu Respublika eləcə də bir Türk dövlətidir, başqa sözlə kiçik Türkiyədir.

Kiçik Türkiyə ulusu ilə böyük Türkiyə ulusu arasındakı ilişkilər iki qardaşın bağlılığıtək ürəkdəndir. Bu ürəkdənliyin ən canlı tutalqası «Sevr Anlaşması»nın [10 avqust 1920-ci il. Fransanın Paris kəndinin yaxınlığında Osmanlı dövlətilə I Dünya Savaşında Yenmiş Dövlətlər Birliyinin-Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, onlara yardım etmiş dövlətlər-Belçika, Yunanıstan, Polşa, Portuqaliya, Ruminiya, Çexoslovakiya, Yuqoslaviyanın bağladığı anlaşma. Sevr anlaşması ilə Osmanlı İmperatorunun topraqları paylanmışdır] ölüm buyuruğu altında üzüntüdəykən belə, Türkiyə toplumsal düşüncəsinin Birlik Dövlətlərinin Azərbaycanın bağımsızlığını tanınmasından özünkü kimi sevinməsi idi.

Yurdum, Azərbaycan ulusu da bolşevik saldırısı altında inləməkdəykən Türkiyənin ağlasığmaz uğurunu mənimsəməklə sevinmişdir.

Keçirdiyimiz bu dəyişiklik günlərində Osmanlı İmperatorluğunun özül ulusu olan Anadolu türklüyü yeni bir ulusal dövlət qurur. Düşüncəmizcə, bu dövlətin dış politikası Doğudakı görəvini yaxşı görmək istərsə, Azərbaycan Cümhuriyətinin gələcəyinə önəm verməlidir. Bu baxımdan Azərbaycan

sorunu Türkiyə üçün dərindən düşünüləcək bir sorundur.

Bir sorunu dərindən düşünmək, o sorunu eyicə araşdırmaq, öyrənməklə olur. İndi uluslarası biçimdə olan Azərbaycan sorunu Türkiyə üçün yaşam dəyərində olan Qafqaz sorununun da bir parçasıdır. Ancaq bu sorunda da Türkiyə baxışından aydınladılmalı bir çox yönlər vardır.

Biz bu yöndəki yayımlarımıza «Azərbaycan Cümhuriyətinin Təşəkkülü və Şimdiki Vəziyəti»ni açıqlamaqla başlamağı gərəkli bulduq. Savaş, devrim günlərində olan neçə illik olaylarla o çağın əbədi, kültür olaylarını özətləməklə baş konudan genəl bir düşüncə yaratmağı düşündük. Olub-keçəndən danışarkən olayların özündən çox nədənlərinə önəm verdik.

İrəlidə, allah qoysa, sürdürəcəyimiz yayımların başlanğıcı olan bu bitiklə sayğılı Türkiyə oxucularına Azərbaycan sorununu önəmsədə bilsək görəvimizi görmüş sayarıq.

Sonucda, yazılarımızda, Azərbaycan türkü olduğumuzdan dolayı, İstanbul ədəbi danışığından uzaqlaşma görülürsə, sayğılı oxucularımızdan bağışlamalarını diləyirik!

I

AZƏRBAYCAN ULUSU

Birinci Dünya Savaşından öncəki rəsmi coğrafiyaya görə Azərbaycan Quzey İranda [Qacarlar dövləti] olan Təbrizlə bölgəsinə deyilirdi. Savaşdan, eləcə də Böyük Rusiya Devrimindən sonra dillərdə dolaşan Azərbaycan sözü gedən Azərbaycanın quzeyində, Guneydoğu Qafqaz bölgəsindən oluşur, başkəndi Bakıdır.

Azərbaycanlılar ulusca Türk, dincə müsəlman, kültürcə doğuludurlar.

Öz danışığı ilə Anadolu türkcəsinə yaxın danışan Azərbaycan türkü çeşidli danışıqları olan, olduğu yerlərə görə adlar daşıyan böyük Türk ağacının bir dalıdır.

Azərbaycan türklərinin indi oturduqları yerlərdə min illər öncə də əski Türk elləri yaşayırdı. Gərək Bakı, Gəncə, Şamaxı, İrəvan, Təbriz, Marağa, Ərdəbil, eləcə də başqa bölgələr, gərək Muğan, Aran, Qarabağ, Qaradağ kimi bölgələr sürəkli olaraq Türk ulusunun oturağı, Türk xanlarının ovlağı olmuşdur. Bu yerlər burada bir çox Türk soylarının böyüklü-kiçikli ağalıqlar qurduqlarını, illərlə ağalıq sürdüklərini görmüşlər.

Atil[1] çayının Quzğun[2] dənizə töküldüyü yerdə böyük bir dövlət quran Xəzər türkləri Miladın 700-cü illərində Kalmık çölü, Kumık qıyısı ilə aşağıya doğru enmiş, Muğan çölünə yayılmışlar. Daha sonra onları başqa Türk axınları izləmiş, böyük Çingizlə Teymurun savaşqan köçəriləri Kür çayı ilə Araz

1 Volqa çayının tatarca adı. Bu adın AT İLİndən yarandığı düşünülür.
2 Adının çoxluğu ilə tanınan Xəzərin bir adı da Quzğun dənizdir.

çayı boylarını Ceyhunla Seyhuna oxşar bulduqlarından özlərinə oturaq etmişlər. Səlcuqlar dönəmində buralar kəsinliklə Türk ölkəsi durumuna qoyulmuşdur.

Səlcuqlardan sonra bu yerlər əldən-ələ keçmiş, çeşidli ağa soyların əlində qalmışdır. Ancaq bir-birini izləyən bu soyların da çoxu Türk olub, böyükləri dağıldıqda yerlərini yenə bir Türk xanlığına vermişlər. Bunlardan Azərbaycan Atabəyləri adı ilə bağımsızlıq bildirən Şəmsəddin Eldəgizin soyu 80 il [1136-1225] ağalıq sürmüşdür. Bu bağımsızlıq olayı 541-ci ildə [Hicri] Gəncədə bildirilmişdir.

Bundan başqa Qaraqoyunlu, Ağqoyunlu Türkmən soyları da burada ağalıq eləmişlər.

Rusiya çarizminin yüz il öncə bağımsızlığına, varlığına son qoyduğu Dərbənd, Quba, Lənkəran, Şəki, Şirvan, Bakı, Qarabağ, Gəncə, İrəvan, Naxçıvan xanları da Azərbaycanlı Türk ağaları idi.

Türklərin buradakı ağalıqları Hindistan, Ərəbistan, İran, Misirdə olduğu kimi, başqa soydan bir ulusa orduçu bir sinif olaraq ağalıq etmək olmamışdır. Osmanlılardan başqa Türk köçərilərinin çoxu ağalıq etdiyi ulusa qatışmışkən, Azərbaycan türkləri ulusun böyük göstəricisi olan dillərini saxlaya bilmişlər.

Azərbaycan xanlıqları 1808-1828 [1805-Kürəkçay, 1813-Gülüstan, 1828-Türkmənçay anlaşmaları] illər arasında başda ulusal bahadır Cavad xanın[1] söyləncəyə dönmüş qorunması olmaqla, çeşidli donlara girən çarpışmadan, savaşdan sonra öz mənliklərini yetərincə anlamadan, özünü tanıyıb ulusal bir üz göstərmədən, bütünlüklə İran kültürü-

1 Cavad xan Gəncəni knyaz Sisianovdan qoruyan bahadırdır. Bu bahadır ona bir çox yol deyilən yenigi buyuruğuna igidliklə boyun əymayərək, son soluğuna kimi qorunmuş, qala topuna bağlanıb parça-parça edilincəyə kimi yağı ilə vuruşmuşdu

nün, mənəvi sayğınlığının etkisi altında ikən, yerlərini çağdaş bir ordu ilə gələn Rusun gücünə basılsalar da, ulus özünün ədəbiyatı, şairləri, aşıqları, dərvişlərilə acısını, sevincini öz dililə söyləyir, öz düşüncəsilə bir varlıq olduğunu sezdirirdi.

Hə, dizi üstündən enməyən Füzulisi, Koroğlu ilə bağrı yanıq Kərəmə ağlayan aşıqları, bu aşıqların ürək dağlayan sazları ilə çobanların könül oxşayan türküləri, çocuqların sevə-sevə oxuduqları maniləri, anaların yavrularını uyudurkən çağırdıqları ninniləri seçkinlərinin düşüncəsilə özünü İranlı bilən bu ulusun qorxunc bir çöküşdə olduğunu göstərir:

– Yox, deyil, sən Türksən! – deyirdi.

II

ƏDƏBİ, ULUSAL OYANIŞ

Bu türklər Azərbaycanı ikiyə bölən Araz çayının iki yanında yaşayıb, İrana o, ya da bu yolla bir az bağlı, yarıbağımsız bir durumda yaşadıqları çağda, yüzillərdən bəri İranın ağa sinfini türklər oluşdurduğundan, yenilmiş bir ulus deyil, ağa olaraq yaşayırdı.

Azərbaycan ulusu yönətimcə gördüyü ağırlığı başqalarından deyil, öz soyundan gördüyü üçün gerçək yenilgisini, mənəviyatca başqa bir kültürün asılısı olduğunu anlamırdı. O, get-gedə fasrlaşırdı. Seçkin farsca oxuyur, Fars eyitimi alır, Fars kimi düşünür, özünün doğrudan-doğruya İranlı olduğuna inanırdı. Ulusun yönətimini əlində bulunduran bu seçkin kimi, mənəviyatına ağa olan mollalar sinfi də bir ruhda, bir eyitimdə, bir düşüncədə idi.

Fars ədəbiyatına nizamilər, xaqanilər, məhsətilər kimi bilginlər verən bu topraqda yetişən Azərbaycan seçkini bir ara Süleyman Qanuninin belə az qala uyğuladığı «Sədi dili» qarşısında əriyib özündən keçmiş, Türklə türkcəyə aşağı baxmışdı.

İranın o parlaq, dünyada tanınmış ədəbiyatı, o ədəbiyatla oluşan güclü mənəviyatı qarşısında yenilib özgələşən Türk seçkininin oxumamış üzərində də böyük etkisi olacaqdı, olmuşdu da. Türk dili oxumamış, köylü dili sayılmış, rəsmi, eləcə də ədəbi dil farsca yayılmış, sonucda gülünc bir ulus ortaya gəlmişdi: dili başqa, yazısı başqa bir ulus!

Arazın güneyindəki Azərbaycanın durumu indi də belədir. Orada hər kəs türkcə söylər, ancaq iş yazıya gəlincə fars-

ca kəsilir.

Seçkin düşdüyü bu yanlış alışqanlığın çıxılmaz yol olduğunu sezməsə də, oxumamış elə də duyğusuz deyildi. Ulus doğal olmayan bu duruma bacardığıtək qarşı çıxırdı. Türk ulusu seçkindən heç bir kimsənin önəm vermədiyi bu duruma, öz soyundan uzaqlaşdırılmasına qarşı ayaqlanmışdır. Bu ayaqlanmanın bahadırları el duyğuları ilə ilhamlanan, bu duyğularla yanan aşıqlar idi. Kimliyi bilinməyən yazanların yaratdığı «Koroğlu», «Əsli-Kərəm», «Aşıq Qərib», eləcə də bu kimi söyləncələr ürək yaxan aşıq sazlarının könül oxşayan səsləri altında Azərbaycan Türk topluluğunun ürəyinə elə girir, elə yerləşirdi, onunla Farsın «Nuş-afərin»i, «Fərhad-Şirin»i bir yana, Firdovsisilə Hafizi belə əyişəmməzdi! O, öz Firdovsisini, öz Hafizini, öz Sədisini özündəndoğma Türk qoşucusunu, ruhundan soraq verən Azərbaycan oxuyanını arayırdı.

Ancaq seçkinin hamısı ondan üz döndərməmişdi. Bax bu, doğulduqları ortama daha bağlı qalan Azərbaycan qoşucuları, ulusun könlünü oxşamaq üçün türkcə qoşular yazmağa başladılar, El ədəbiyatı yanında bir də Yazı dili yarandı.

Bu yöndə yalnız Azərbaycanın deyil, bütün Türklüyün böyük qoşucularından, Azərbaycanlılarca «qoşucular başçısı» taxma adını daşıyan ölməz Füzulinin dərin sayğınlığı, böyük bir doğruyolgöstərənliyi vardır.

Füzuli Azərbaycanda hər yerdən çox tanınır. Azərbaycanın ən çox oxuduğu, ən çox sevdiyi qoşucu Füzulidir. Azərbaycan qoşusu son çağlaradək demək olar, Füzuliyə bənzətmə idi.

Füzuli divanı hər yerdən çox Təbrizdə basılmışdır. Hafiz divanı Farslar üçün nəsə, Azərbaycan türkləri üçün də Füzuli divanı odur:

Ol səbəbdən farisi ləfzilə çoxdur nəzmi kim,
Nəzm-i nazik türk ləfzilə ikən düşvar olur.
Bəndə tovfiq olsa, bu düşvari asan eylərəm,
Növbahar olğac tikəndən bərg-i gül izhar olur,

– deyə türkcə yazmağa başlayan Füzuli çağında düşünülən bu «düşvarı» [ağırı, çətini] doğrudan da yüngül eləmişdir.

Füzuliyə belə bir istək verən çağı, çağdaşı bulunan İran [Səfəvilər] şahını belə türkcə yazmağa yönəltmişdir.[1]

Bu böyük qoşucu, bilginin uğuru ilə türkcə qoşu yazmaq «yüngüllüyü» tapıldıqdan sonra Füzuliyə bənzətmə yazıb, yolu ilə gedənlər çoxaldı. Azərbaycan Türk ədəbiyatı ayrıca bir axın aldı.

Bu ədəbiyatın hankı özəlliklər, uğurlarla irəlilədiyini, nə kimi əsərlər ortaya gətirdiyini göstərmək özü ayrıca bir konudur. Burada isə biz yalnız bunu söyləmək istərik: Azərbaycan ədəbiyatının doğal oluşumu Füzulinin yaradıcılıq yaşamına bənzər: Füzuli öncə farsca yazmış, sonra türkcəyə başlamış, türkcə yazarkən də başlanğıcda Azərbaycan danışığı ilə yazmış, Bağdad Osmanlılara keçdikdən sonra Füzuli dili getdikcə osmanlılaşmış, Doğu danışığından uzaqlaşaraq Batı danışığına yaxınlaşmışdır.

Azərbaycan ədəbiyatı da belədir: Azərbaycanlılar başlanğıcda farsca yazmışlar. Sonra yerli Azərbaycan danışığı ilə yazan füzuliyollu qoşucularla qocaman bir dönəm olmuşdur. Bu dönəmdə öncə Qövsi, Nəbati, sonra Vaqif, Seyid Əzim, Ləli, Raci kimi qoşucular yetişmişdir. Sonda üçüncü dönəm gəlmiş: Batı yaşamının, düşüncəsinin etkisinə girən Azərbaycan ədəbiyatı Osmanlı Türk ədəbiyatından ilhamlanaraq çağdaş ədəbi türkcə ilə yazmaya başlamışdır. Bir yandan Rus ədəbiyatı, bir yandan da Osmanlı ədəbiyatının etkisində bu-

1 Səfəvilərdən Şah İsmayıl türkcə qoşular yazar, Xətai taxma adı ilə qollayardı. Xətai divanı yayılmışdır.

lunan bu çağın qoşucuları Məhəmməd Hadi, Sabir, Hüseyn Cavid, Əhməd Cavad, [Abbas] Səhhət, [Əlabbas] Müznib, eləcə də başqalarıdır.

Quzey Azərbaycan Rus əlinə keçdikdən sonra politik hüququnu bütünlüklə itirmiş, yenilginin acısını bütünlüklə dadmışdı. O, qabaqlar gördüyü kültür yenilgisini ortaq din, ortaq kültürün etkisilə sezmir, ulusal kimliyini sözün bugünkü anlamı ilə daha yaxşı anlamırdı. Getdikcə farslaşan Azərbaycan türkü bu əl ruslaşdırmaq politikasına uğrayırdı. Bu durum ulusun duyğularına toxunur, özünüqoruma duyğularını dərindən qıcıqlayırdı. Bunun üçün də ulus özünü düşünməli olurdu.

Çarizm Azərbaycanı ruslaşdırmaq üçün iki yandan gəlirdi: Bir yandan ulusun din düşüncəsini yönəldən din alimlərilə mollaları öz kontrolunda tutur, bir yandan da ulusal eyitimə yol verməyərək çocuqları Rus okullarında (uşkol) oxudurdu. Birinci istəyinə çatmaq üçün şiələrlə sünnilərə ayrı-ayrı iki ruhani qurumu yaratmış, bu qurumla bütün mollalarla əfəndiləri özündən asılı bir qulluqçu kimi qullanmışdı. İkinci amacına yetmək üçün də bəlli ruslaşdırma proqramı ilə uşkollar yaradılmışdı.

Ulusda nə bu qulluğa girən mollalara sayğı, nə də bu uşkollardan çıxan bəy balalarına güvən vardı. Ağalığın qoyduğu mollalara «Dəftər mollası»[1] Rus uşkolunda oxuyan yaşıllara da «Rus balası» deyən ulus, anadangəlmə duyğusu ilə sezdiyi ruslaşdırma politikasına bildiyi kimi qarşı çıxmışdı. O, «dəftər mollası»na öz axundunu, Ağalıq uşkoluna da öz «məktəbxana»sını qarşı qoymuşdu.

Ulusun bərk tutduğu «axund»la «məktəbxana» bütün-

1 Rus Ağalığı qoyduğu imamlara (mollalara) toplum işləri deyilən nikah, boşanma, doğum, ölüm olaylarını görüb yazmaq üçün divan dəftərləri vermişdi.

lüklə özünün deyil, İran etkisinin qurumları olsa da, ruhuna yad bulunan rusluğa qarşı bu qurumlar daha ulusal, daha doğma idi. Buna görə də o, «axund»un özgürlüyü ilə «məktəbxana»nın bağımsızlığı üçün yapdığı çalışmada çox haqlı, bu çalışma da düzgun idi. O, politik yenilsə də, mənən dağılmaq istəmirdi.

Ancaq seçkin yenə yanılmışdı. Bir ara Firdovsinin romantizmi, Sədinin dərin bilginliyi, Hafizin dadlı qəzəlləri qarşısında bayılan «mirzə» bu dəfə də Lermontovun dağlarda uçan ruhu, Puşkinin su kimi axan danışığı, Tolstoyun isasayağı fəlsəfəsinə vurulmuş bir «uçitel» idi.[1]

İllər keçdi, bir yanda «mirzə», bir yanda «uçitel» durdu. Bunlar bir ara anlaşammadılar. Farslaşmış mirzə kimi ruslaşmış uçitel də ulusun sezib duyduğu anlamı bir ara anlayammadı! Sonucda bir çox dolanbaclardan keçildi. «Uçitel» məktəb-mədrəsələrə qarşı yöntəmsiz savaşdan sonra amacı anladı, bildi: Sədini də, Tolstoyu da Türk ulusuna öyrətmək, Türkü onlarla tanışdırmaq gərəkli, yararlıdır! Ancaq bununla birlikdə Türkü öz Sədisindən, öz Tolstoyundan ayırmaq olmaz!

Sədini, Tolstoyu, eləcə də dünyanın başqa tanınmış yazıçılarını anlamaq üçün öz füzulilərini, nəbatilərini, kiçik də görünsələr seyidlərini, sabirlərini, cavidlərini, cavadlarını öyrənməlidirlər.

Bu anlamda Rus okulu ilə çağdaş kültürü az-çox anlamış oxumuşlarla ulusun bir-birini anlamaq çağı başladı [Bu savaşı indi də türkçülərlə «yarımrus» antitürkçülər sürdürürlər].

Bundan 50-60 il qabaq çağdaş Azərbaycan ədəbiyatının evi quruldu. Doğu kültürünü yaxşı bilən, Rus dililə də Batı kültürünün dayaqları ilə tanışan Mirzə Fətəli Axundzadə ilə

1 Fars dilindəki mirzə dəyişilib öyrətmən anlamına gəldiyi kimi, rusca uçitel də bu anlamdadır.

başlayan teatr ədəbiyatını Nəcəf bəy Vəzirov, Əbdürrəhim [bəy] Haqverdiyev, Sultan Məcid Qənizadə, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə kimi yazıçılar bənzədib, gəlişdirdilər.

Mirzə Fətəlinin komediyaları Türk aləmində yazılmış ilk komediyalardır. Ələşdiricilərcə «Doğu Molyeri» taxma adını qazanan Mirzə Fətəlinin seçilmiş əsərləri Rus, Alman, İngilis, bir az da Fransız dilinə çevrilmişdir.

Teatrdan danışınca, Azərbaycan musiqisindən danışmamaq düzgün deyildir. Teatr sənəti İslam aləminin heç bir yerində Azərbaycanda olduğu kimi irəliləməmişdir! Burada türkcə opera, operetta yaradılmışdır. İlk Azərbaycan bəstəçisi Üzeyir bəy [Hacıbəyli] sözləri Füzulinin olan «Leyli-Məcnun» operasını bəstələmiş, bundan başqa «Əsli-Kərəm», «Aşıq Qərib», «Şah Abbas-Xurşudbanu», eləcə də başqa operalar, «Arşın mal alan» kimi operettaları da bütün Qafqazda, İranda, az-çox da Türkiyədə tanınır. Özüöyrənmişlər «Arşın mal alan» operettasını İstanbul səhnələrində göstərdiyi kimi, ermənicəyə, gürcücəyə, ruscaya da çevrilmiş, teatr ilərində çoxlu oynanmışdır.

Teatr yazılarının ardınca qəzet yayımına başlanmış, 1875-ci ildə ölməz Həsən bəy Zərdabi «Əkinçi» qəzetini yayımlamış, bundan sonra Ünsizadələrin yaratdığı «Ziya-yi-Qafqaz»la «Kəşkül» qəzetləri çıxmışdır. Birincisini 1877-ci il Rus-Türk savaşından dolayı Ağalıq qapatmış, ikincilər də bir kaç sayı çıxdıqdan sonra özü dayanmışlar (1880; 1891) [«Ziya»- güclü işıq, parıltı, aydınlıq – həftəlik ədəbi, toplumsal, politik, bilim qəzetinin ilk sayı 1879-cu il yanvarın 16-da, son sayı 1880-ci il dekabrın 6-da çıxıb. 77-ci sayından «Ziya-yi Qafqasiyə» adlanıb. «Ziya-yi Qafqasiyə» qəzeti 1882-ci ildə Tiflisdə, 1883-84-cü illərdə Şamaxıda yayımlanıb. Yiyə-

si, redaktoru Səid, Cəlaləddin Ünsizadə qardaşlarıdır.

«Kəşkül»-üstünə döyülmüş fıstıq, ya da Hind qozu tökülmüş şirni – 1883-cü ilin yanvarından çıxan toplumsal, politik jurnal. 11 sayı çıxıb. 1884-cü il martın 7-dən 4 səhifəlik qəzet. 123 sayı çıxıb. Öncə Türk, Fars dillərində, 1888-ci ildən Türk dilində yayımlanıb. Yiyəsi, redaktoru Cəlaləddin Ünsizadə. 1891-ci ilin oktyabrına Qafqaz Senzor Komitəsi bağlayıb].

Azərbaycan ədəbiyatı ilə basını 1905-ci ilə kimi düzənli yaradılıb, gəlişməmişdir. Yalnız 1903-1904-cü illərdə Tiflisdə yayımlanan «Şərq-i Rus» qəzeti bu uzun susqunluq dönəmini bitirmişdir. Məhəmməd ağanın [Şahtaxtınski] yaratdığı bu qəzet bir il yayımlandıqdan sonra Bakıya köçmüş, burada qapanmışdır.

Ancaq Kiçik Rusiya Devriminin olduğu 1905-ci il Rusiya türkləri üçün ulusal yüksəliş çağının başlanğıcı olmuşdur. Toplumsal qurumlarla basın özgürlüyü baxımından bir parça yüngüllüklə sonuclanan bu devrimdən yararlanan bütün Rusiya türklərində olduğu kimi, Azərbaycan türklərində də hızlı bir uluslaşma axını başladı. Bu axın bir yandan ulusal basının yaradılması, o biri yandan da ulusal okulla din qurumunu ulusun özünün seçdiyi adamlarla, qurumların yönətməsi savaşı idi.

Bakı bu ulusal axının ortaqlığı idi. 1914-cü ildə, Birinci Dünya Savaşının başlanğıcında, Bakıda türkcə iki gündəlik qəzet «İqbal», «Səda-yi həqq» yayımlanırdı. Müsəlmanların hüququnu qorumaq amacı ilə bir də rusca «Kaspi» qəzeti çıxırdı. Bundan başqa bir kaç da Türk «Çap evi» bulunurdu. Bu qəzetlər 1905-ci ildə sayğılı Əhməd bəy Ağaoğlu ilə Əli bəy Hüseynzadənin yaratdığı «Həyat» [Yiyəsi Əlimərdan bəy Topçubaşı, redaktorları Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseyn-

zadə], «İrşad» [Yiyəsi, redaktoru Əhməd bəy Ağaoğlu] qəzetlərinin başladıqları ulusal savaşı sürdürürdülər.

Birinci Dünya Savaşı çağında yaradılan «Açıq söz» [1] qəzeti də bu savaşı sürdürürdü. «Açıq söz» ilk yol olaraq o çağa kimi Qafqaz müsəlmanı, ya da tatarı deyilən ulusun Türk olduğunu açıqca, dönmədən ortaya qoymuş, bu yöndə Ordu senzoru ilə çarpışmalı olmuşdu.

Gündəlik basından başqa bir kaç həftəlik ədəbi, politik, gülüş qəzetləri də yayımlanırdı. Bunlar arasında «Molla Nəsrəddin» jurnalı Azərbaycan gülüşünün yaratdığı bir şah əsərdir.

Ədəbi jurnallardan ən sayılanı sayğılı Əli bəy Hüseynzadənin başçılığında çıxan «Füyuzat» [Yaxşılıqlar] jurnalı idi. «Füyuzat» jurnalı Azərbaycan yazıçılarını Osmanlı ədəbiyatını yamsılamağa yönəldən ən böyük nədənlərdən biri olmuşdur.

Bakı ulusal basının ortaqlığı olduğu kimi, o çağda yardımsevər topluluq kimi yaradılan ulusal qurumlara da ortaqlıq olmuşdu. Bakı «Müsəlman Xeyriyə Cəmiyəti»nin Birinci Dünya Savaşında Türkiyə cəbhəsindən qaçan üçlük [Qars, Ərdəhan, Batum] müsəlmanlarına elədiyi yardım bütün Rusiya müsəlmanlığını coşdurdu. Sözü gedən topluluğun Türk savaş tutuqlularına göstərdiyi yardım da ayrıca yazılmalı, anılmalıdır.

Bu topluluq üçün Bakı varlılarından Musa Nağıyevin yapdırdığı, 1918-ci ildə Bolşeviklərlə Ermənilərin yaxdıqları ev bəlkə də İslam aləmində belə bir amacla yapılmış evlərin gözəllikcə ən birincisidir. Bunun yanında duran başqa bir ev də Doğu arxitekturası ilə gözə çarpır. Bu, Azərbaycan türkləri arasında yardımsevərliyilə tanınmış Hacı Zeynalabdin əfən-

1 «Açıq söz»ün yiyəsi də, redaktoru da bu bitiyi yazandır.

dinin [Tağıyevin] açdığı «Müsəlman Qızlar Seminariyası»dır. Ulusal tikililərdən biri də «Səadət» toplumsal qurumunun okulu üçün yapdırdığı görkəmli tikilidir.

Bu qurumlardan başqa Bakıda eyitimçilik amacı ilə «Nicat», «Nəşr-i məarif», «Səfa» qurumları da yaradılmışdır.

Azərbaycan ulusal yaşamında önəmli etkisi bulunan ikinci ortaqlıq Gəncədir. Gəncədə yaradılan «Ruhani Mədrəsəsi» o çağda ulussevərlik ruhunu gücləndirən ən önəmli ortaqlıq idi. Azərbaycan buradan bir çox öyrətmənlər, yazıçılar, qoşucular qazanmışdır. Bu okulun dəyərini anlayan çarizm onu tez-tələsik qapatmaqla «qorxu»nun önünə keçmək istəmişdir. Bakıdakı «Nəşr-i məarif Müəllimlər İnstitutu» ilə «Səadət» okullarını da oxşar bir yapdırıma uğratdığı kimi.

***

Özətlədiyimiz bu ədəbi oyanış Azərbaycanın ekonomik, toplumsal gəlişimilə bağlı idi. Azərbaycan xanlıqlartək Rusiyanın əlinə keçdiyi çağda ekonomicə daha gəlişməmişdi. Hər xanlıq öz yağında qovrulan qapalı bir ürətim bölgəsi idi. Bir bölgə ilə başqa bölgənin ilişkiləri çox sınırlı idi. Bütün xanlıqlar ortaçağsayağı dərəbəy bir yaşam keçirirdi. Kəndlər kiçik qəsəbə durumunda, sənaye əl işindən oluşur, alver kiçik maldəyişmə ilə sınırlı idi.

Oçağkı toplumsal yaşam, oçağkı politik duyğular doğal olaraq bu varlıq ortamına uyğun idi. Ədəbiyat da beləcə, xan çevrələrinin kiçik «saray ədəbiyatı» durumunda idi. Bu ədəbiyat yerli duyğular, istəklərlə sınırlı bir şeydi. Bir ədəbi yığıncaqla başqa ədəbi yığıncağın ilişkisi ancaq bir kəndlə o birinin arasında gedirdi. Bu axın çox da sıx, içdən olammazdı, yağı bulunduqları belə olurdu. Ədəbi yığıncaqların yağılığı

çağımızda da bilinən bir gerçəkdir. Ancaq bu yağılıq bölgəsəl deyil, sosial qatdan, sinifdəndir.

Qafqaza enən Rusiya Böyük Pyotrun devrimilə güc bulmuş bir Rusiya idi. Qabaqcıl yöntəmləri uyğulamaqla bu, gəlişməyönlü bir dövlət idi. Çağın bütün böyük dövləti kimi bu da imperializm idealını güdürdü. Bu yöndəki istəyi, gəlişimilə, o Doğuya doğru yayılır, yolu üstündə İslam dövlətlərini görürdü.

Qafqaz onun üçün daha önəmli idi. Qafqaz yollarını yapmaq, doğal qaynaqlarını işlətmək, Xəzər dənizində donanma yaratmaq planları vardı.

Bu planlar Batumla Bakını Rusiyanın önəmli ortaqlıqlarına bağlayan dəmir yollarının çəkilməsilə gerçəkləşdi. Sonucda Qafqazın coğrafi ortamı dəyişdi. Ömrü boyu çəkişən, yağıtək yaşayan gücsüz xanlıqların yerində bir yönətimə bağlı ekonomik bütövlük yarandı. Bundan gələn gəlirin çoxunu öncə Rusiyaya, sonra yerli xristianlara vermək Rusiyanın politikası idi. Buna baxmayaraq Qafqazın Azərbaycan bölümü də istər-istəməz bundan yararlandı, Azərbaycan kəndləri böyüdü, aralarında ilişkilər, alver artdı, xanlıqlar dönəmindəki özəlliklər aradan qalxdı, ölkə ekonomicə, alvercə gəlişdi, doğal gəlişmə yoluna girdi. Bu gəlişmə işlək bir ürətim çağı ortaya çıxararaq, yeni əmək bölgüsü yaratdı. Yeni əmək bölgüsü ilə də yeni toplumsal qatlar yaranırdı.

Rusiya nə Avropa kimi Avropa, nə də Doğu kimi Doğu idi. Böyük Pyotr «Yenidənqurma»sından sonra Rus yönətimi feodalizm qalıqları ilə burjua dayaqlarını şaşırdıcı bir biçimdə birləşdirmişdi. Bunun üçün də o başqa Avropa ölkələrinə baxanda çox yavaş addımlarla gəlişirdi. Ancaq Rusiya kapitalizmi son yüzilin dörddə birində eyicə irəlilədi. Sonucda önəmli sayılacaq bir demokratiya oluşdu.

Rusiya kapitalizminin yüksəlişində Bakının önəmi böyük idi. Bakı Rusiya sənayesinin böyük bölümünün, eləcə də bütün dəmir yolunun (neftə görə) motoru olduğu kimi, özü də çox önəmli alver, sənaye ortaqlığı durumuna gəldi. Bu anlamda o, neftdən başqa coğrafi durumuna da borclu idi. Bura Rusiya ilə İranı, İranla Türküstanı, Rusiya ilə Qafqazı alverlə bağlayan tək limandı. Bakının bu yeri indiki toplumlarda önəmli olan demokratiyanın oluşması ilə də artdı. Burada başqaları ilə birgə Türk toplumsal sinifləri də ortaya çıxmış, Türk demokratiyası oluşmuşdu.

Hə, xanlıqlar aradan qaldırılmış, tarixin gedişilə yerində bütöv bir türklük yaranmışdır. Ayrılığın göstəricisi bulunan xanlıqların ortadan qaldırılması ilə qəsəbələr birər kəndə çevrilmiş, ulusal birliyi gərəkdirəcək demokratiya doğmuşdu. Bu demokratiyanın qatları içində çağın bilim-texnikası ilə sağlanmış uzmanlar, aydınlar, sənayeçilər, alverçilər, işçilər yetişirdi. Bu sinif başlanğıcda Rus yönətiminə, Rus kültürünə çox da qarşı deyildi. Tərsinə, hər şeydə Rusiyanı yamsılamaq bu sinif öncüllərinin özəlliyi idi. Bunun üçün onlara «rusyönlülər» deyilirdi.

Rusyönlülərin qarşısında isə «iranyönlülər» dururdu. İranyönlülər Rus yönətiminin etkisilə yerlərini yeni güclərə vermək istəməyən əski toplumsal qatın ideoloqları idi. Birincilər yeni oluşan toplumun hürrəndişləri (liberalları), ikincilər isə mühafizəkarları (konservatorları) idi.

Liberallarla konseratorların qarşıdurması illərcə sürdü. «Uçitel»lə «mirzə» yağı bulunarkən, konservatorlar liberalları kafir adlandırırdılar. Sonda bu durum dəyişdi. Liberallar qatı toplumsal yaşamın yönəltməsilə onu hüquqca, ekonomicə basan rusluğa savaş bayrağı açmalı oldu.

Doğrudur, kəndlər böyüyür, burada demokratiya olu-

şurdu. Ancaq bununla birgə kəndlər ruslaşdırılır, köçürmə politikası yerlilərə, yerli ürəticilərə gəlişmə alanı vermirdi. Türk aydını, Türk alverçisi, elliklə Türk ürəticisi buna qarşı çıxacaqdı. Bu ağır görəvdə o yalnız savaşammazdı, toplumu da bu savaşa yönəltməli idi. Bunun üçün onu etkiləmək, ona üz tutmaq gərəkdi. Bax, bu gərəklik duyulduğu anda aydınlardan bir bölümünün ulusa doğru gedişi başlanmışdır. Aydınların bu girişimi varlılardan bir bölümünün dəstəyi, yardımı ilə güc bulmuşdur [Acınacaqlı da olsa, Azərbaycanın çağdaş varlılarının çoxu ulusun var-yatırını özəlləşdirmə, ya da başqa yolsuzluqlarla ələ keçirmiş, ulus, yurd düşüncəsindən uzaq «yarımrus» törəmələr olduğundan, ulusun adını, tarixini, kültürünü, politik var-yatırını qoruyan, gələcək soylara düzgün çatdırmağa çalışan ulusalçı yurddaşlar Azərbaycan Ağalığı bir yana, demək olar, heç bir varlıdan yardım almır. Bu yurdsevər demokratlar, gerçək igidlər sıxışdırılıb, çox ağır günə salınsalar da, qutsal yollarından dönmürlər!].

Bu anlamda gündəlik basının yaradılmasının çox önəmi olmuşdur. Basının yaranması ilə Qafqazda politik, toplumsal, ulusalçı bir düşüncə oluşur, toplum düşüncəsi ortaya çıxır, ulusal yaşam üçün çox önəmli olan bir taqım sorular çəkişilirdi.

Qəzetlərin bugünkü ulusların oluşmasında oynadıqları rol bəllidir. Onlar bu rolunu Rusiya türklüyü üçün də oynayırdılar. Onlar eldə ulusal duyğuları oyandırır, ulusal amacdan olan soruları işıqlandırırdılar. Türkcə basının işıqlandırdığı soruları araşdırsaq, aşağıdakı düzükləri özətləyə bilərik:

1. «Yeni yol» sorunu. Okullarda Türk dilinin qramatikasının öyrədilməsi, mədrəsə proqramına yeni bilimlərin salınması.

2. Ulusal okulların açılması, yaradılması. Öncə olan mə-

həllə, köy, cami okullarındakı farsca yerinə türkcə oxutmaq, yeni yollu okullar açmaq.

3. Ağalıq okullarında Türk dilinin öyrədilməsini istəmək.

4. Ruhani qurumlarla İslam fondlarını müsəlmanların seçdiyi mollaların, yönəticilərin yönətməsi baxışını yaymaq.[1]

5. Müsəlmanlar üçün də başqa uluslarda olduğu kimi, eyitim yayımı, yardım işlərilə uğraşan qurumların yaradılması.

6. Bələdiyə, Duma (Rusiya Parlamenti) seçkilərində müsəlmanlara qoyulan yasal sınırlamaların qaldırılmasına çalışmaq (Bakı, Gəncə, elliklə Qafqaz bələdiyələrində müsəlmanlar üyələrin yarısından çox olammazdı).

7. Yurddaşlıq, uzmanlıq hüququnun bütünlüklə müsəlmanlara da verilməsilə, politik, eləcə də mülkiyət hüququnda başqa yurddaşlarla bir tutulmaq.

1905-ci il devrimindən sonra çoxalan basın bu kimi istəkləri yayması ilə güclü bir axın yaratmışdı. Bu istəklər yalnız qəzetlərdə qalmıyıb, az-çox gerçəkləşmiş, bir az da ayrı-ayrı çağlarda Ağalığa verilən diləkçələrə, toplumsal qurumlarda çıxarılan qərarlara qaynaq olmuşdur. Bu amacın yayılması üçün açıq-gizli olmaq üzrə çeşidli komitələr, toplumsal qu-

1 Rusiya müsəlmanlarının ulusal yaşamında bu sorun daha çox önəm qazanmışdır. Azərbaycan türklərində isə bu sorun yalnız «ruhani qurumu»nun seçki yolu ilə oluşdurulmasını istəməklə qalmayıb, İslam birliyi düşüncəsinin yayılmasına da nədən olmuşdur. Azərbaycan türkləri Rus Ağalığının şiə-sünni adları ilə iki ayrı quruluş kimi yaratdığı qurumların «İslam ruhani qurumu» adı ilə birləşdirilməsini də istəyirdi. Bu istək 1905-ci ildə Güney Qafqaz müsəlmanları adından Qafqazın başçısına verilən diləkçədə yer bulduğu kimi, şiə-sünni qarşıdurmalarının aradan qaldırlıması üçün keçirilən İslam qurultaylarının qərarlarında da yazılmışdır. Şiə-sünni çatışmaları hər yerdən öncə Azərbaycan türkləri arasından qalxmışdır. Bu, ulusal birliyini anlayan bir toplum üçün çox uyğun idi.

rumlar, partiyalar yaranmışdır. Güclü-gücsüz demədən, bu politik topluluqların başlıca istəyi çarizm quruluşunu dəyişmək olmuşdur. Bu topluluqlardan çoxu çox ara çarizmə qarşı olan devrimçi partiyalarla ilişkidə, ya da anlaşmada bulunmuşlar [Azərbaycana bağımsızlıq günəşitək doğmuş Məhəmməd Əmin yaşıl çağlarından, Mirzəbala Məhəmmədzadənin «Heyvanın insandan daha çox dəyəri olan Orta çağ dərəbəylik, qulluq düzənilə yönətilən çarlıq Rusiyası» dediyi İmperiyanın, ən önəmli sənaye otaqlıqlarından olan Bakıdakı açıq-gizli bütün özgürçü, devrimçi dəstələrə qatılmış, 1903-1904-cü illərdə «Azərbaycanlı gənclərin inqilabçılar dərnəyi»ni yaratmışdır. 1903-1904-cü illərin «Bakı Qorunma Bölməsinin «Hümmət» dəstəsindən olanların izləmə bilgiləri» bəlgəsində göstərilir: «Hümmət» dəstəsindən olanlar: Rəsulzadə-molla oğlu, Axundov, İsabek Aşurbekov». «Difai» qurumundan olanlar: Əhməd bəy Ağayev, Q. b. Qarabəyov. Musa b. Əzimbəyov, İsa bəy Aşurbəyov, Abbasqulu Kazımzadə, Məmməd Əmin Rəsulzadə («Təkamül»ün red.), Məhəmməd Sadıq Axundov, Məhəmməd Həsən Hacınski, Murtuza Muxtarov». ARPİQPBA, f. 276, sıra 3].

1905-ci il devrimi devrimçilərin istədiyi kimi gəlişmədi, geriçiliyin yenməsilə devrim axını durdu. Bundan sonra güclü bir geriçilik başladı. Bununla bağlı edilən basqıların sonunda başqa Rus partiyaları kimi müsəlmanların da başlangıcda bulunan topluluqları dağınıq duruma gəldi. Rusiya toplumunda şovinist politik axın başladı. Bu axın Balkan Savaşı dönəmində daha da gücləndi. Rus şovinizmi doğrudan-doğruya Türk aləminə qarşı yönəldilmişdi. Tanınmış Rus yazıçılarından biri balkanlara gedən Qızıl Xaç dəstəsini uğurlama yazısında «Bir slavyan, bir xristian varkən Türk yaralısına baxmayın!» – deyirdi.

Bu şovinizm Rus olmayan uluslarda ulusal axını körükləyirdi, daha çox da Türk ulussevərliyi qabarırdı. Rus universitetində oxuyan Azərbaycan öyrəncilərinin Kiyevdəki topluluğu bəlirlənərək üyələri tutulmuşdu [Qaynaqlar o çağda Ukraynanın çeşidli yerlərində 200-ə yaxın müsəlman öyrənci oxuduğunu, onlar içində Şəfi bəy Rüstəmbəyli, Firuz Ordubadski, Sona xanım Axundova... kimi Azərbaycan türklərilə yanaşı Rusiyanın başqa yerlərindən olan Türk-müsəlman öyrəncilər də olduğunu yazırlar. Onlar 1911-ci ildə «zemstvo»-«yerli toplumsal qurum»u yaratmışlar. Öyrəncilər 1913-cü ildə «Qutsal Vladimir Universiteti Müsəlman Öyrəncilərinin Qarşılıqlı Toplumsal Yardım Qurumu»nun «Düzük»ünü, eləcə də başqa bəlgələri sağlayıb yetkililərə versələr də istəklərinə çatmayıb, aprelin 17-də saxlanaraq, daha sıx izləniblər].

«Qızıl Ay» üçün yapılan propaqanda oçağkı duyğuların dəstəklənməsi üçün ən uyğun bir nədən olurdu. Bakı qadınlarından sırğalarını verənlər olmuşdu. Yaşıl öyrətmənlərlə öyrəncilər okullarını ataraq Türk Ordusuna könüllü gedirdilər.

Bu çağda çoxu 1905-ci ildəki devrim topluluqlarında yoxlanmış yaşıllardan gizli bir politik qurum yaranırdı. Bu qurum Rusiyada yaşayan türkləri hər yöncə ruslarla bir hüquqlu görmək istəyir, bütün Türk, İslam aləminin özgürlüyünü də düşünürdü. Qurumun amacı uluslar arasında bütünlüklə hüquq eşitliyi idi. Bunun üçün də «Müsavat» [Eşitlik] adını almışdır.

Bu qurumun o çağda nə kimi bir ruhla yaşadığını göstərmək üçün «Səbiül-Rəşad» [Doğru yol] qəzetində yayımlanan «Bildiriş»indən bir parçanı buraya köçürürük:

«...Bilin, anlayın, bizim yeganə qurtuluşumuz ancaq Türkiyənin bağımsızlığında, onun dirçəlişindədir. Biz indi də

qabaqkı duyğusuzluğumuzdan vaz keçməzsək, bu üzdən dünyanın gözü önündə hüququmuzu, insanlığımızı, ulusal kimliyimizi itirib, yağılara günlükçü işçi, asılı olub, qultək qalacağımızdan quşqu edilməsin...».

«Bütün aləm bilir: bu savaşı Türkiyə İslam xəlifəliyinə açan Balkanın kiçik, ufaq ağalıqları deyildir. Axı, aslan necə gücsüz olsa da, çaqqallar, tülkülər [Bu kobud, aşağılayıcı deyim o çağda Azərbaycanda çox yayılmışdı. Azərbaycanın yurdsevər, türkçü qoşucuları bu deyimli qoşular yazmışlar. Onu ilk yol Fransız Pyer Loti Parisdə çıxan «Maten de Pari» qəzetində işlətmiş, «İqbal»-«Gələcək amac» qəzeti 1912-ci il 9 noyabr sayında çap etmişdir. Pyer Loti deyirdi: «Mən Balkan uluslarını bu yaxın günlərdə yırtıcı çaqqallara bənzədirəm! Bu yırtıcı çaqqallar özlərinə qurbanlıq seçdiklərinə doğru var güclərilə sürünürlər. Ancaq onun ən güvənsiz anında saldırırlar»] ona yaxın gələmməzlər! Bu işləri işləyən insanlıq, İslam yağısı, hər gün nə boyda sağlamlıq şeyləri, doktorlar, yardımlar, könüllü adı ilə bölük-bölük nizamilər (yəni əskərlər) göndərən, «Dünya jandarmı» adlı Quzey ayısı, Rusiya despotik ağalığıdır»!.

«Buna görə Bolqar, Serb, Qaradağlıların ordu sıralarında saysız Rus subayları, topçuları savaşmaqdadır. Osmanlıların yenilməsindən çəkilən teleqraflar hamısı yalandır [Abbas Səhhət 1912-ci ilin oktyabrında çap etdirdiyi bir qoşusunda yazmışdı: «Teleqraf gündə verir xalqa soraq, Balkan işlərindən yalanı... «Russkoye slovo», «Novoye vremya» Balkandakı vulkanları yandırır, dəm vurarkən insanlıqdan bu çağda, Orta çağ vəhşiliyini andırır!»]. Bu yolla onlar bir yandan Rusiyadan savaşa gedənləri ürəkləndirmək, o biri yandan da müsəlmanları qorxutmaq istəyirlər. İslam aləminin başına gələn uğursuzluğun çoxuna, bəlkə də, bütününə bax bu... [Orijinalda buraxılıb.

Ola bilər, xristianlar, slavyanlıq duyğusu], ... [Orijinalda buraxılıb. Rusiya sözü uyğundur] despotik ağalıq nədən olmuşdur. Başqa ölkələrdəki müsəlman qardaşlarımız canla, malla yardımda bulunduqları çağda biz, Rusiya müsəlmanları, nədən bir daş kimi donmuşuq?!».

«Sözsüz, müsəlman olan kimsələr, ulusal duyğusu olan adamlar, apaydın İslam dinini, ulusunu bunca ağrı-acıda, çətinlikdə görüncə, el təpəri, din qeyrəti coşub, böyük, ünlü Quranın dini, Məhəmmədin bayrağı altında doğru yola çağıran ... [Orijinalda buraxılıb. Bu, Quranın «Tövbə» surəsinin 111-ci ayəsidir: Allah, sözsüz, allah yolunda vuruşub öldürən, öldürülən möminlərin canlarını, mallarını Tövratda, İncildə, Quranda söz verilmiş cənnətə qarşılıq satın almışdır. Sözünü Allahdan daha çox tutan kimdir? Etdiyiniz alış-verişə görə sevinin. Bu, ən böyük qurtuluşdur (uğurdur)!] düzgün ayəsinə uyğun, çanlarını, mallarını əsirgəməzlər. Əsirgəyənlər ulus satqını, din yağısı, qeyrətsizdirlər!».[1]

1 Səbiül-Rəşad. Sayı 38-220, səh. 226, ili 1328 [Hicri].

III

BİRİNCİ DÜNYA SAVAŞI, BÖYÜK DEVRİM

Ulusal ağalıq savasının 1905-ci il Kiçik Rusiya Devrimindən ulus okulu, ulus basını, ulusal qurumların yaradılmasına azacıq onaylar kimi qazandığı ürünlər vardı.

Doğrudur, bu ürünlər sayca çox az, necəlikcə də çox yeni idi. Buna baxmayaraq, bu onaylardan yararlanan Qafqaz türklüyü Böyük Savaş öncəsi, eləcə də Böyük Devrimin partladığı çağda çox da sağlıqsız deyildi. İndilik ulusal amacın böyüklüyü, çətinliklərinə uyğun bir qurumu yoxdusa da, daha politik düşüncəsiz, ulusal istəksiz bir topluluq da deyildi, yaşamını oluşduracaq şeyləri olan, diri, yaşamaq istədiyini duyuracaq bir varlıq durumunda idi.

On illik kiçicik bir ara Azərbaycan türklüyünü çoxlu basını, çeşidli quruluşları, politik çevrələri, gizli topluluqları, çağdan, olan-bitəndən anlar aydınları olan anlaqlı, bilinc yiyəsi bir toplum durumuna qoymuşdu.

Bu toplum 1914-cü ildə partlayan Dünya Savaşının alt-üst elədiyi anlayışları, dəyərləri duyğusallıqla izləyir, topların gurultusu ilə bir yerdə qopan «Ulusların hüququ qutsaldır!» çağırışını dörd qulaqla dinləyirdi. O, savaşan bütün böyük dövlətlərin yetkililərinin ağzından sıx-sıx eşidilən bu çağırışın içdənliyinə deyilsə də, bu böyük gerçəyin istər-istəməz gerçəkləşəcəyinə inanırdı.

Birinci Dünya Savaşı çağında, daha Rusiya Devrimi ortaya çıxmadan, savaşın qatı senzoru hər yazılanı gözaçdırmadan silməkdə, daha çox da Türk sözü ilə türkçülük amacına qarşı yağıca tutum sərgilədiyi sürədə «Açıq söz» qəzeti

yuxarıda göstərilən amacı gözə alıb yazırdı: «Hərhankı yenmiş yan az-çox sürünclü bir dinclik yaratmaq istərsə, yüzilin vicdanlarını ən çox etkiləyən gücü – ulus idealını gözardı edəmməz! Bunun böylə olacağını ara-sıra, gələcək barışdan söz söyləyən Avropa bilginləri də doğrulamaqdadır. Barışcıl politiklərcə ulus özülünə dayanmayacaq, ulusların hüququnu gözlətməyəcək bir barış anlaşması çox çəkməz yırtılır, sürünclü bir dinclik yaradammaz!».

«Doğal hüququ tapdanmış bir ulus da qalıncayadək Avropanın böyük dövlətləri gerçək, sürünclü bir barış üzü görməyəcəyi kimi, yurddaşları arasında ögey-doğmalıq gözətən bir dövlət də gerçək bir gücə söykənməyəcək (istinad etməyəcək), qabaqcıl, güclü qurumu da olmayacaqdır!».

«Demək, bəlli bir ideallı, çoxluğunun aydın bir amacı olan uluslar dövlətlər arasındakı ilişkilərdə dəyər qazandıqları kimi, dövlətlərin iç politikaları üzərində də böyük etkilər yaradacaqlar. Beləliklə, ayrı-ayrı uluslar bir ulus olaraq yaşaya bilmək üçün hər şeydən öncə özlərini bilməli, bəlli düşüncələr, istəklərdə birləşərək, böyük bir düşüncəyə, ideala çevriləcək o işıqlı ulduza yiyələnməlidirlər. Bütöv bir ruhu, ortaq bir ideallı olmayan uluslarla yeni özüllər üzərinə qurulacaq yaşam düzəlişməyəcək, belə bir yaraqdan uzaq qalan toplumlar kimsəyə söz eşitdirəməyəcəklər!».

Böyük Savaşın Qafqaz türklüyündə doğurduğu umud belə idi. Ulus prinsipinin uğur qazanacağına bağlanmış bir umud!

***

Rusiya İmperatorluğunun (1917-ci ildə) Karpat dağlarında, Polşa ovalıqlarında, Baltik qıyılarındakı o görünməz yenilgisi dünyanı sarmış alovun savaş bağının önəmli halqa-

larından birini qırmış oldu. Rusiyanı əlində tutuqlutək saxlayan çarizm də bu halqa ilə birlikdə devrilmişdi, böyük savaş böyük bir devrim doğurmuşdu.

Ayrı-ayrı uluslardan yoğrulmuş 180 milyonluq böyük bir topluluğu yönətən, dünyanın ən böyük imperatorluğunda ortaya çıxan Böyük Devrim iki dürlü sonuc verəcək, iki önəmli sorunu çözəcəkdi, yoxsa öz ruhuna, öz doğasına tərs olub, özü ilə birlikdə Rusiyanı da batıracaqdı.

1917-ci il devrimi əzilən siniflərə özgürlük, saldırıya uğramış uluslara da özərklik verəcəkdi.

İnqilabın ilk günləri parlament gözləntisilə keçirdi. Parlament bir an öncə toplanacaq, köylülərə topraq, işçilərə iş, uluslara da özərklik verəcəkdi. Bu idi elliyin istəyi!

Parlamentdən kim nə bəkləyir? Toplantılar, qurultaylar, qərarlar, bildirişlər hamısı bunu bəlirləməkdə...

Qafqaz da olmaqla bütün Rusiya türkləri də bunu unutmurdular. Bakıda, aprelin 15-də ilk yol olaraq «qurultay» adı ilə Qafqaz müsəlman konqresi toplanır. Qurultay hər şeydən öncə, hər sorundan daha qızğın bir biçimdə özgür Rusiyanın alacağı, istənən yönətim biçimini çəkişdikdən sonra aşağıdakı qərarı çıxarırdı:

«A. Qafqaz Müsəlmanları Qurultayı ulusal politik amacla bağlı sorunu çəkişərək, Rusiyanın dövlət quruluşunun müsəlman uluslarının çıxarlarına ən uyğun olan yerli federasiya özülü üzərinə qurulu demokratik respublika olduğuna qərar verir».

«B. Qafqaz Müsəlmanları Qurultayı İslam dinində olan bütün ulusların ruhani, kültürəl bağlılığını gözə alaraq, bütün Rusiya müsəlmanları üçün yasaçıxarıcı yetkisi olan genəl bir qurumun yaradılmasını uyğun görür».

Bu qərar günlərcə sürən çəkişmələrin sonunda uzlaşa-

raq alınmışdı. Qarşıdurma bir yandan türkçülər, bir yandan da islamçılarla sosialistlər arasında idi. Federasiya quruluşunu savunanlar türkçülər idi. Bunlar Azərbaycan üçün də ayrıca yerli özərklik istəyirdilər. Qarşılar isə yalnız demokratik respublika ilə yetinib, ulus sorununun çözümünü yerli deyil, kültürəl özərklik kimi düşünürdülər.

Apreldən sonrakı may ayında Moskvada bütün Rusiya müsəlmanlarının genəl qurultayı keçirilmişdi. Rusiya türklüyünün bütün ellərindən olan min elçili bu böyük qurultayda qızğın çəkişmələrdən, qarşıdurmalardan sonra Rusiyanın ulusal, bir də yerli özərkliklər üzərinə qurulu federativ demokratik respublika olması istənmişdi.[1]

Bu istək Rusiya müsəlmanlarının Böyük Devrimdən bəklədikləri politik amacı bütünlüklə göstərmişdi.

Sonda Parlament seçkilərində Güney Qafqaz müsəlmanlarının böyük çoxluğunun səsini qazanan «Müsavat» Partiyası ilə «Ulusal komitələr»[2] sırası Rusiya Federasiyası ilə birgə Azərbaycanın özərkliyini də bir çağırış olaraq ortaya atmışdı.

Türk Federalist – «Musavat» partiyasının[3] bakılıların böyük ilgisi altında bu aylarda keçirilən ilk qurultayı [1917-ci il, 3 iyul] Rusiya türklüyünün Rusiyanın politik quruluşu yönündə bəklədiyi amacı aydınlaşdıraraq, Azərbaycan, Türküstan, Qırğızıstan, Başqırdıstan kimi köklü Türk ölkələri üçün yerli özərklik, Volqa çayı boyu ilə Krım tatarları, eləcə də Ru-

1 Bu istək yazarın dövlət quruluşu ilə bağlı etdiyi çıxışdan sonrakı çəkişmə-savunmadan sonra irəli sürülüb, qurultayın böyük çoxluğunca alınaraq, keçmişdir.

2 Rusiyada seçimlər proporsional yolla, partiyaların sunduğu sıraya uyğun keçirilirdi.

3 «Müsavat» Partiyasının Balkan Savaşı illərində Bakıda yaradıldığı yuxarıda deyildi. 1917-ci ildə Rusiya devrimi olanda Gəncədə «Türk Federalist Partiyası» yaradıldı. Bu iki qurum Qafqaz Müsəlmanlarının Qurultayındakı bildirişləri, savunmaları ilə ulusalçı, türkçü olduqlarını göstərdiklərindən, birləşib bu adı aldılar.

siyada yaşayan başqa Türk ellərinə də yerli olmazsa, ulusal özərklik istəyirdi.

Beləliklə, «Açıq söz»ün 1915-ci ildə I Dünya Savaşından bəklədiyi ulusal ağalıq çağırışının uğurundan umduğunu, 1917-ci ildə Rusiya Devrimindən yararlanaraq gizlənmədən çıxan «Musavat» partiyası yuxarıdakı kimi bəlirləyirdi.

Azərbaycan türkü bu yolla I Dünya Savaşı ilə Rusiya Devrimindən özgürlüyünü, ulusal ağalığını bəlirləyəcək bir sonuc bəkləyirdi.

***

Devrim İmperatorluğu içindən sarsıdan iki önəmli gücün daşmasından ortaya çıxmışdı. Bir yandan əzilən siniflər, bir yandan da əzilən uluslar haqlarını istəyirdilər. Köylü topraq, işçi iş, Velikorus olmayan uluslar da özərklik diləyirdilər.

Devrim bunların hamısı ilə düzəlişməli idi. Ancaq bununla birlikdə o, bir də bunların üstündə başqa bir sorunla da üz-üzə gəlmişdi. Ortada çözüləcək bir savaş sorunu vardı. Çar Ağalığının uzantısı Keçid Ağalığı, özəlliklə Kerenski Ağalığı başlanmış savaşı uğurla bitirmək üçün bir arac olaraq qullandı. Qorxunc bir iş yapıldı, devrim ordusu Almaniyaya saldırıya keçdi.

Bu yolla bütün gücünü «Son uğuradək»ə yönəldən Devrim Ağalığı doğal olaraq başqa köklü sorunların çözümünü bir sonraya saxladı. Toplumsal düşüncə devrimin ortaya atdığı «Topraqsız, ödəməsiz barış, uluslara özünübəlirləmə hüququ!» çağırışı ilə birlikdə topraq, işçi sorunlarının bir an öncə sözdən işə gətirilməsini istəyirdi. Ağalıq isə hər şeyi Parlamentə saxlayırdı.

Bu yubatma bir yandan bolşevizmi, o biri yandan da ulusal axınları qızışdırırdı. Özəlliklə Kerenskinin Finlandi-

ya Seymi, Ukrayna Radasına qarşı aldığı qorxuducu tutumu, müsəlman ulusal alaylarının yaradılmasına qarşı çıxması, Almaniya üzərinə etdiyi uğursuz saldırı bolşevizmin yaranmasına alan vermişdi.

Petroqrad önəmli günlər keçirirdi. Bölgələr düşünülməyəcək bir bunalım içində bulunurdu. Bir yandan işçi, köylü, əskər, bir yandan da ulusal şuralar yaranırdı. Milyonlarca orduçu kimsəyə sormadan cəbhəni ataraq dağınıq bir biçimdə geri dönürdü.

Sonda oktaybr ayı gəldi. Böyük Rusiya Parlamenti toplanmaqda ikən Ağalıq Kerenskidən bolşeviklərə keçdi. Lenin Ağalığı Parlamenti ilk toplantısındaca qovdu.

Bolşeviklərin Ağalığı güclə əldə etmələrindən sonra Rusiyanın hər yanında anarxiya başladı. Ordu «Evə! Evə!» deyərək döyüş yerini atdı. Köyünə yaraqlı dönən köylü, köklü seçkinlərin yaşayış yerlərini yağmalamağa, tarlalarını tutmağa başladı. Bütün Rusiya qorxunc bir devrim alovu ilə alovlandı. Velikorus olmayan bölgələr anarxiya içində bulunan ortaqlıqdan qorunmaq üçün özlərini yönətmək düşüncəsinə gəldilər. Ukrayna, Polşa, Baltik respublikaları, Finlandiya Rusiyadan ayrılmış oldu. Kazanda, Ufada, Orenburqda yaranan ulusal Tatar, Başqurd alaylarına dayanan ulusal quruluşlar yarandı.

Petroqradda bulunan Bolşevik Ağalığı isə heç durmadan dekretlər (qanunlar) çıxarırdı. Bu dekretlərilə o, böyük İmperatorluğun başlanmış dağılmasını hızlandırırdı. Bu yasalara görə köylü mülkədar toprağını, var-yatırını güclə almaq, istədiyi kimi qullanmaq yetkisi qazanırdı. Uluslar da istərlərsə Rusiyadan belə ayrıla bilirdi.

***

Bu arada Qafqazın durumu nə idi?

Volqa boyundakı Türklər ordu qulluğunda bulunduqlarından Rus Ordusunun dağılma çağında ulusal alaylar qurmuş, Müsəlman Ordu Şurasını yaratmış, buna görə də devrimin ilk günlərində önəmli bir güc olmuşdular. Qafqaz müsəlmanlarının durumu isə çox ağır idi. Qafqaz cəbhəsindəki Rus Ordusu da dağılırdı. Bütünlüklə geriyə dönən ordu yollarda qarşılaşdığı müsəlmanlara olmazın saldırır, alçaldırdı. Türkiyə sınırına yaxın yerlərdə araqarışdıranların yaydığı yalanlar üzərinə «dissiplin»dən [ordu düzənindən] çıxmış soldatlar (Rus əskərləri) yerli türkləri qırğınlarla qorxudurdu. «Daşqalaq» edilən müsəlmanlar olayı, gündəlik sırasına keçmişdir. Bu durum elə artmışdı, Petroqradda bulunan Tatar Ordu Şurası soydaşlarını qorumaq üçün Qafqaza ayrıca bir Elçi dəstəsi göndərməli olmuşdu.

Tiflisdə Rusiya Keçid Ağalığı adından Güney Qafqaz Komitəsi adlı bir dəstə ağalıq edirdi. Petroqradda çarın yetkisi Duma üyələrindən oluşan Keçid Ağalığına keçdiyi kimi, burada da canişinlik görəvi yenə Duma üyələrindən qurulmuş bu komitəyə keçmişdi. Sonda Ortaqlıq Ağalığı Kerenskiyə keçdiyi kimi, Güney Qafqaz yönətimi də Türk, Gürcü, Erməni politik qurumlarının qatılımı ilə yaradılan Güney Qafqaz Komisarlığına keçdi.

Bolşevik devrimi ortaya çıxanda, Rusiya Parlamentinə seçilmiş üyələr daha Qafqazda bulunurdu. Bunlar Tiflisdə toplanaraq «Güney Qafqaz Seymi» adı ilə Parlament yaratdılar [23 fevral-26 may 1918]. Bu Parlament Türk, Erməni, Gürcü elçilərilə bir az da Ruslardan oluşurdu. Güney Qafqaz Seymi Rusiyadan Türkiyə-Qafqaz cəbhəsilə bağlı qalan işləri

bitirəcək, eləcə də Güney Qafqaz ölkəsinin politik yönətimini boynuna götürəcəkdir.

O çağda Bakı olayları başqa bir yöndə gedirdi. Bura sənaye ortaqlığı olduğundan, işçi sinfi çox bulunan bir kənd idi. Yaşayanının üçdə biri işçi idi. Bu işçinin çoxu dışdan gələnlərdəndir. Rusiyadan gələnlər daha çox bolşevik düşüncəsinə qapılmışdılar. İran cəbhəsindən dönən Rus əskərləri də bunlara eklənirdi. Bakı limanındakı çoxu Rus olan, ordu, alver donanmasından olanlar da ayrıca bir qarışıqlıq gücü idi. Bu kimi güclərə dayanan bolşeviklər burada güclü «Sovet» yaratmışdılar.

Güney Qafqazın dörd yanı Tiflisdə yaradılan «Seym» Ağalığını tanımışkən, Bakı Soveti bunu tanımırdı. O, Petroqrad Ağalığını tanıyırdı.

Bununla birgə Bakıda yeni seçilmiş bir Bələdiyə vardı. Bələdiyə qurumu «Sovet»ə qarşı olub, «Seymi» istəyirdi. Bu nədənlə də kənd iki yerə ayrılmışdı. İşçi kəsimi «Soveti», o biri bölümü də Bələdiyəni tanıyırdı. Bir birindən qorxmuş iki güc istər-istəməz savaşacaqdı. Ancaq bu çağın gəlişini nə bu, nə o biri yan hızlandırmaq istəmirdi, bir-birilə yola getməyə çalışırdılar.

Qafqazda «Seym»lə «Sovet»dən başqa bir də Ulusal şuralar vardı: Erməni, Gürcü, Türk Ulusal şuraları. Bu quruluşların rəsmi tutumları genəl politikada yerləri, sayğınlıqları çox önəmli idi. Güney Qafqaz Müsəlman Şurasının Ortaqlıq Komitəsi Bakıda idı.

Politik olayların gedişi Ulusal şuraların irəlidə birər ulusal ağalıq biçimini alacaqlarını çox açıq göstərirdi. Yuxarıda söyləndiyi kimi, Rus Ordusu dağılırdı. Güney Qafqaz Komisarlığının buyuruğu ilə dağılan bu ordunun yerinə Ulusal alaylar yaranırdı. Gürcü, Erməni alayları ilə yanaşı Müsəlman

Alayının yaradılması üçün də buyuruq verilmişdi. Ancaq irəlidə də söylədiyimiz kimi, Güney Qafqaz müsəlmanları orduya alınmadıqlarından, bu buyuruğun yerinə yetirilməsində çətinliklərlə qarşılaşılırdı. Müsəlman Alayının yaradılması çəkişilməkdə, qarşıdurma durumunda ikən Gürcü, Erməni alaylarının oluşumu az arada olub, bitmişdi.

Bolşeviklər nə qədər Petroqradda ağalıq qarşısı idilər bölgədəki bolşeviklər ulusal özərklik düşüncəsini dəstəkləyən qurum kimi görünürdülər. O üzdən Bakı bolşevikləri Müsəlman Ulusal Axınına başqa Rus partiyalarından daha artıq yönəlikdi. Örnək: liberal Rus sosialistləri «Musavat» partiyası burjua partiyasıdır deyə «Sovet»ə almasalar da, bolşeviklərcə menşeviklərlə eserlərdən üstün tutulurdu.[1]

***

Lenin Petroqradda ağalığı əldə edər-etməz bütün dünya müsəlmanlarına yönəlik bir Bildiriş yayımlamışdı. Bu Bildirişində o, əzilən Doğuya peyğəmbərsayağı bir görünüşlə özgürlük, bağımsızlıq boyun olurdu.

Bu, Bolşeviklərin daha yerlərini bərkitmədikləri ilk günlərdə idi. Ancaq Bolşevik Ağalığı gücləndikcə «söz»lə «iş»in necə uyğun gəlmədiyi bir yol daha ortaya çıxdı. «Özünübəlirləmə hüququ hər kəsin deyil, işçilərindir» – deyə ortaya yeni yozumlar çıxdı. «Azərbaycanın özərkliyi demokratiyanın deyil, xanların, bəylərin, ağalarındır» – deyə düşüncə dəyişdi.

Lenin ortaqlıqda yerini gücləndirdikcə bölgələrdəki

1 Menşeviklər sosial-demokrat idealına salındırılır. Bolşeviklərlə aralarındakı ayrılığı devrimin daha sırasının gəlmədiyini demələrilə açıqlarlar. Eserlər Rusiyadakı toplumsal qurama ürünü olub, köylüyə dayanaraq sosializm devrimi yapılacağını düşünən bir partiyadır, indi bolşeviklərə qarşıdır. Eser adı isə Sosialist Revolyusionerdən yaranmışdır.

«törəmə»ləri bir anda birər ortaqlıqçı, Böyük Rusiyaçı biçimini, üzünü almağa başladılar.

Türküstandakı soyqırım, qanlı Daşkənd olayı, Krım qırğını, Kiyevdəki qanlı olaylar, Kazandakı qorxuncluq hamısı bu üzdən törəyirdi[1]

Azərbaycanın özərkliyi artıq politik bir proqram biçimində ortaya atılmışdı. «Musavat» partiyası ilə Güney Qafqaz Ulusal Komitəsi bu proqramı tuturdular. Bolşevik partiyasının düşüncə yayıcısı bulunan «Bakinski raboçi» (Bakı işçisi) qəzeti bizimlə yapdığı bir danışıqda: «Azərbaycan özərkliyi Türk varlılarının özərkliyidir. Bu özərkliyi nə Rusiya burjuasiyası, nə də Rusiya demokratiyası qoyar. Azərbaycan özərkliyini istəyən musavatçılar sonda dağılmış yer bulurlar!» – deyirdi.

İlgincdir, «Musavat» idealına qarşı belə basqıçı tutum alan Bolşevik Ağalığının Güney Qafqaz yetkilisi Şaumyanın cibində Rus saldırqan ordusunun boşlatdığı Türkiyə topraqlarında Erməni bağımsızlığının bildirilməsilə bağlı Leninin qolladığı bir dekret bulunurdu [Rus-erməni-sovet-mason bolşefaşistlərinin uluslararası hüququ tapdayan bu bəlgəsi 1917-ci il dekabrın 29-da verilmiş, 1918-ci il yanvarın 15-də III Bütün Rusiya Sovetlər Qurultayında doğrulanmışdır. Dekreti Lenin, Stalin, Bonç-Bruyeviç, Qorbunov qollamışdı]. Bu dekretlə Şaumyan «yüzillərdən bəri yazıq Erməni ulusunun bəklədiyi ulusal amacı sözdən işə keçirmək» üçün Erməni qurumlarına, quruluşlarına yardım etməkdə görəvli idi. Şaumyandakı bu bəlgənin etkisindən bir ay qabaq Bakı

1 Bolşeviklər 1917-ci ildə Xokənd, Daşkənd, Krım, Ukrayna kimi bölgələrdə özərklik istəyilə özlərini yönətməyə qalxan yaşayanları yaraq gücü ilə qırmışdılar. Bolşevik Ağalığı ortaqlığı Kazanda bulunan Müsəlman Ordu Şurası ilə Tatar Ulusal Şurasını, Başqurdıstan Respublikasını, Krım Qurultayı Ağalığını qanlı bir biçimdə dağıtmışdır.

Bələdiyəsində Rus toplantısını dağıdan Bolşeviklərə qarşı bombalar, pulemyotlar saçan «Daşnaksütyun» partiyası Bakı «Sovet»ilə sıx ilişkiyə, ordu birliyinə girmiş oldu.

Şaumyanın əlində bulunan «Bakı İşçi, Əskər Soveti» Erməni alaylarının, «Daşnaksütyun» partiyasının yardımı ilə müsəlman qurumuna qarşı kəskin bir yol tutdu. Gözləri önündə söz sorulmadan gəzən Erməni Alayı döyüşçülərini görən Müsəlman ulusu Müsəlman Alayının yaradılması üçün Tiflisdən göndərilən subayların «Sovet» milislərincə yoxlanmasını görüncə, doğal olaraq qızışırdı. Beləcə, gündən-günə çoxalan yandırım (mevaddi-ehraqiyə) sonucda bir araqarışdıcı qığılcımı ilə tutuşdu, 1918-ci il martın 17-dən 21-nə kimi [Yeni stillə 30 mart-2 aprel 1918-ci il] sürən qanlı Mart olaylarına nədən oldu.

Bu olayla Bolşeviklər bir çox bölgələrdə yapdıqları qanlı qırğınları Bakıda da uyğulayırdılar. İşçi-yoxsul Ağalığı adından «Müsavat» Partiyası ilə «Müsəlman Ulusal Şurası»na savaş açan «Bakı Soveti» Erməni alayları ilə birlikdə 10.000-ə yaxın müsəlmanı öldürdü [Azərbaycan Cümhuriyəti Ağalığının 1918-ci il iyulun 15-də Ermənilərin Azərbaycanda törətdikləri soyqırımı araşdırmaq üçün yaratdığı «Olanüstü Araşdırma Komisiyası» Rus-erməni-sovet-mason bolşefaşistlərinin Bakıda 12 mindən çox Türkü, müsəlmanı öldürdüyünü bəlgələrlə doğrulamışdır. Azərbaycan Cümhuriyətinin Paris Barış Konfransındakı Elçiliyinin başçısı Əlimərdan bəy Topçubaşı da 1919-cu il iyunun 5-də Konfransın başçısı C. Klemansoya verdiyi Notada 12 minə yaxın insanın öldürüldüyünü yazıb.

Ermənilər Azərbaycanın ayrı-ayrı bölgələrində, Güney Azərbaycanda, Türkiyədə də yüz mindən çox Türkü, müsəlmanı öldürmüşlər]. Öldürülənlər arasında çoxu işçi, yoxsul

sinfindən olan minlərcə qadın, çocuk, yaraq daşımaları söz konusu olmayan qocalar vardı.

Bakı Türk ulussevərliyinin ortaqlığı idi. Rus partiyası bulunan Bolşevik partiyası bu ortaqlığı dağıtmaq istəyirdi. Bu işdə o, Rusiyanın türklərə qarşı gələnəksəl ortağı olan Ermələri bulurdu. Doğrudan da mart olaylarında ortaya çıxan qırğın, bir sinif savaşına heç bənzəmirdi. Bu, hərhankı bağımsız gözləmçiyə görə savunmasız müsəlman ulusunun amansız bir biçimdə soyqırımından başqa bir şey deyildi. Toplar, pulemyotlar, Erməni əskərinin yaylım atəşləri, aeroplanlar, limandakı dəniz donanması toplarının hamısı müsəlmanlar yaşayan yerlərə tuşlanmışdı. Müsəlmanlar yaşayan yerlərin başına od yağdırılır, cəhənnəm püskürdülürdü.

Görəsən, müsəlmanlığın, türklər yaşayan yerlərin suçu nə idi?

Bu suç «Müsavat» Partiyası ilə «Milli Komitə»yə çıxılırdı. Baxmayaraq, bu iki qurumun o qırğının qarşısını almaq üçün eylədiyi çalışmalar, gördüyü işlər bəlgələrdə vardır. Ancaq bir ulusa yağılığını bildirmək bolşevikliyə yaraşmazdı. Bunun üçün də onlar «Müsavat»ı mahna eləyir, «Komitə»ni sorumlu tuturdular.

Ancaq sonuc?... On minədək müsəlman işçisi, yoxsulu öldürülmüş, «Təzə Pir» məscid-camisinin minarələri top gülləsilə dəlinmiş, ulusal qurumların «İsmailiyə» El yurdu ilə Türk toplumsal düşüncəsinin yayıcısı bulunan «Açıq söz» redaksiyası, «Kaspi» Çap evi yaxılmışdı. Müsəlmanlar böyük bir terrora uğradılmış, bir çox aydınlar saxlanıb, tutulmuşdu.

Bu acı olaydan sonra Bakı bütünlüklə Sovet əlinə keçmiş, Güney Qafqazdan ayrılmış, Tiflisə qarşı yağıca tutum almışdı.

Bakının bu dağılması ilə Güney Qafqaz Müsəlmanlarının Müsəlman Ortaqlıq Komitəsi də dağılmışdı.

Bu olaydan sonra bütün Güney Qafqaz müsəlmanlarının baxışları Tiflisdə yaradılan «Seym»ə dikildi.

«Seym»də bulunan müsəlman elçilər bir fraksiya yaratmışdılar. Bu fraksiya öncə ancaq yasa çıxarmaqla görəvli ikən, sonra müsəlmanların bütün sorunlarını boynuna götürməli oldu. «Seym»in müsəlman elçilərinin qulluq edəcəyi yerlərdən uzaqda bulunması olan çətinliklərə bir qat daha əngəllər artırırdı. Bu sırada bir taqım qırğınlar durumu daha da qorxunc edirdi. Güney Qafqazın güneybatısında olan qanlı olaylar baxışları özünə çəkirdi. Öncə Rus Ordusunun I Dünya Savaşında tutduğu Türk topraqlarında, sonra da Ermənilərin Qarsla İrəvan bölgələrindəki müsəlmanları soyqırıma uğratmalarından bir-birindən daha qorxunc soraqlar alınırdı.

Bir yandan Bakı soyqırımı, o biri yandan da İrəvan, Qars qırğınlarına uğrayan Güney Qafqaz müsəlmanlığının o günlərdə keçirdiyi ağrı-acıları bir az anlamaq üçün sözü gedən «Müsəlman Fraksiyası»nın 15 aprel 1918-ci il tarixli protokolundan kiçik alıntını aşağıda yazırq: «Tiflisə gələn Rum [Yunan] köçkünləri Qars bölgəsindəki müsəlmanların durumunu belə anladırlar: Türk Ordusu qarşısından qaçan Erməni Ordu bölüklərilə yaraqlı Erməni qaçqınları yolları üstündəki müsəlman köylərini yer üzündən silərək hər şeyi odla qılıncdan keçirir, düşünülməyəcək qorxuncluğa, dağıntıya uğradırdılar. «Yenmiş» Erməni Ordusu savaş yağmaları, yəni süngü ucuna taxılmış südəmər çocuklarla çəkildikləri yollar üzərində müsəlman qadınlarını çılpaq soyundurur, sıraya qoyurlar...Rumların dediyinə görə bu, cəhənnəm acısını görmüş, çıldırmış qadınların, çocukların ürək parçalayan iniltilərini, qocaların umudsuz haraylarını dinləmək üçün insanüstü bir dözüm olmalıdır. Səksən altıdan çox köyü olan

bir sancaq bu düşünülməsi çətin ağrı-acıya uğramışdır.[1]

Varlı Qars bölgəsinin kapitan Movsesyanla general Areşovun törətdikləri qırğından, qorxuncluqlardan ortaya çıxan dağıntısı 1915-ci ildə I Dünya Savaşında Rus kazaklarının yapdığı qırğını unutdurmuşdu.

İrəvan bölgəsindən gələn soraqlar qorxuncluğuna görə bundan az deyildir. «Seym»in İrəvan olaylarını araşdırıb, zərərçəkmişlərə yardım amacı ilə göndərdiyi Ulus elçiliyinin başçısı İbrahim ağanın [General-mayor Usubov] raportuna görə İrəvan bölgəsində 211 müsəlman köyü yerlə bir edilib, qaçqınların (mühacirlərin) sayı yüz minə varırdı.

Bu olayların gözlənilmədən deyil, bağımsız Ermənistan bölgəsində ulusal çoxluq qazanmaq üçün cızılmış bir plan üzrə törədildiyi düşünülürdü.

O yolla artan olayların önünə keçmək iş görmək üçün gərəkənləri olmayan, ordu gücünə dayanmayan müsəlman «Seym» fraksiyasının olanağı dışında idi. Yapılanlar olayların ölçüsünə uyğun olmayan ötəri işlər idi.

1 Bakıda yayımlanan «İstiqlal» toplusundan alınmışdır [«İstiqlal». 1918-28 mayıs-1919, B., 2014, s. 82].

IV

QARDAŞ TÜRKİYƏNİN HARAYA YETMƏSİ

Bolşeviklər Azərbaycan türklüyünün Rusiya Böyük Devriminin də bildirdiyi «özünübəlirləmə» hüququndan yararlanmağa qalxmağını Bakı küçələrində axıtdıqları qanlarda boğmaq, «İsmailiyə» El evində yaxılan özgürlük alovunu o gözəl evin dağıntıları, külü altında söndürmək istədilər [Erməni quldurbaşısı Tatevos Əmiryan 1918-ci il martın 20-də üç əskərlə yandırıb. Bəlgə: ARPİQPBA, f. 277, s.2].

Belə qorxunc bir tarixi suçun törədildiyi çağda ulusun düşüncəsinin, idealının daşıyıcıları olan müsəlman elçilər Tiflisdə idilər. O çağda Tiflisdə toplanan Seym ortaq toplantısı bir yandan çarizmidən qalan Qafqaz cəbhəsinin sorunlarının çözümünü, bir yandan da Rusiyadan biryolluq ayrılaraq bağımsızlığını bildirmək sorununu araşdırıb çəkişməklə uğraşırdı.

Seymdəki müsəlman elçilərinin bütün gücü cəbhə sorunlarının barışçıl yolla çözülməsilə Qafqazın bağımsızlığının bir an öncə sözdən işə keçirilməsinə yönəlmişdi. Onlar Rusiyadan ayrı, bağımsız bir Qafqazın yaradılması üçün bundan daha eyi bir olanaq gəlməyəcəyinə inanırdılar. Bağımsız bir Qafqaz yalnız Qafqaz müsəlmanlarının deyil, uzun illər Rus basqısı altında bulunan başqa müsəlman ölkələrinin də çıxarlarına uyğun idi. Bakı qırğını müsəlmanların bu politik «suçlu» istəklərinə qarşı Bolşeviklərin uyğuladığı bir öcalma idi.

Bakı doğal olaraq Tiflisin yardımını bəkləyirdi. Yalnız Bakı deyil, bütün Azərbaycan Azərbaycanlıların qatılması ilə qurulan «Seym» Toplantısı ilə Güney Qafqaz Ağalığının bu

yardımını gözləyirdi.

Ancaq yox! Azərbaycanlı «Seym» üyələrinin yüksək səclə bağırıb-çağırması Tiflis Ağalığının gerçək yiyələri olan Gürcü menşeviklərini yetərincə etkiləmədi. Gürcüstan içindəki bolşevizmi min güclə, acıqla basdıran bu ağalar Bakıya quru savaş belə bildirmək istəmədilər. Gəncə Milli Müsəlman Komitəsinin yaratdığı qurtuluş ordusuna milyonlarla fişəng, onlarla pulemyot, bir kaç top boyun olunsa da, bu sözlər gerçəkdə tutulmadı. Tiflis basını isə Bakının Azərbaycanın «başıpozuq» güclərilə qurtuluşuna qarşı «gerilikçi olayı» – deyə protest etdi. Sonda «Türk qorxusu varkən, Bolşeviklərə yağı olammarıq!» – deyə aldıqları bu şaşırılacaq durumu görünməmiş dillə açıqladılar.

Bu sırada Seymdəki Erməni bölümünün tutumunu açıqlamağa gərək varmıdır?...

Müsəlmanların öcündən, Tiflisin yardımından qorxan çaxnaşmaçı Bakı bolşevikləri öncə qorunmaçı bir durum almışkən, ürəklənərək saldırıya keçmişdilər. Başda Hamazasp, Avetisov kimi Erməni döyüşçüləri, Petrov kimi Rus topçuları olmaqla Gəncəyə doğru yürüyən bu saldırqan gücdən öncə Şamaxı pisliklər gördü. Əski Şirvanşahların bu əski başkəndi bir saldırıda oda verilib, ünlü tarixi camiyə varıncayadək yaxıldı. Yalnız erməni bölgəsi sağ buraxıldı. Sonda sağ qalmış bu bölüm də Gəncə qorunma güclərinin kəndə girib-çıxmasından sonra yandı. Yanmayan yalnız iki kilsə qalırdı.

Şamaxının uğradığı saldırıya Lənkəran, Salyan, Quba, Nəvahi, Kürdəmir kimi sancaqlar, qəsəbələr də uğradı. Bu saldırılarda yaxılan evlərin, qıyılan namusların, kəsilən qarı-qocaların, yağmalanan mal-qaranın göstərilməsi düşünüləməyəcək bir ağrı-acı yaradır.

Qorxu artıq Gəncəyə gəlmişdi. Bir yandan Gəncə qorxu

altında ikən, bir yandan da Qarabağ Ermənіləri Bakı bolşeviklərilə birləşmək üçün bir plan cızırdılar – Azərbaycanın odla qılıncdan keçirilməsi planı!

Bəlli Stepan Şaumyanın qəzeti «Özərklik deyil, dağılmış yer alacaqsınız!» – deyirdi.

Belə bir qorxu qarşısında ulusu qoruyacaq yalnız bir Gəncə qalmışdı. Gəncə üstünə düşən bu ağır görəvi təkbaşına görəmməzdi. Savunma günləri uzandıqca yönətim əldən çıxır, Bolşevik əlinə keçməyən yerlərdə də böyük bir sorumsuzluq, anarxiya ortaya çıxırdı.

Beləcə, doğal yaşamını dağıdan bu qorxuncluğa qarşı ağalığını tanıdığı Tiflis Ağalığından qulaqardılıq görən Azərbaycan toplumsal düşüncəsində çox doğal olaraq bir güvən doğurdu. Bu çətin durumdan ulusu qurtaracaq tək bir güc vardı: TÜRKİYƏ!

Umudlar bütünlüklə oraya yönəlmişdi: «O, qardaş ulus gələcək, bizi yağı əlindən qurtaracaq!». Ulusun bundan başqa bir umudu qalmamışdı.

Ancaq iş elə də saya deyildi. Özünü Rusiyadan ayrı, gerçək bağımsız bir durumda yönətməkdə olan Güney Qafqaz Türkiyə ilə barış bağlamaq istəsə də, amacına yetəmmirdi. Türkiyə Güney Qafqaz Ağalığı adından Trabzona gəlmiş, 1914-cü il I Dünya Savaşından qabaqkı Qafqaz sınırlarının saxlanmasını istəyən Elçi dəstəsinə «Brest-Litovsk» Anlaşmasının bütünlüklə işə keçirilməsini önərirdi. Bu önəriyə görə Güney Qafqaz Ağalığı qabaqlar Türklərdən savaş ödəməsi kimi alınan Qars, Ərdəhan, Batum üçlüyündən əl çəkməli idi. Bolşevik Ağalığı Brest-Litovsk Anlaşması ilə bu bölgələrdən çəkilmişdi.

Durum belə olunca, Trabzon danışıqları olduqca kəskinləşirdi. Ermənilərlə Gürcülər «savaşmadan Türkiyəyə yenil-

mərik!» – deyirdilər. Bir yandan bolşevizm, bir yandan da Erməni-Gürcü savaşçılığı arasında qalan Müsəlmanlar çox dolaşıq bir durumda bulunurdular.

Ancaq durumun kəskinliyini anlayan Trabzon Elçiliyi Erməni, Gürcü, Türk üyələrinin birliyilə Türkiyənin ultimatumunu alqılamağa qərar vermişkən, «Seym» toplantısında Gürcü menşeviklərilə Erməni daşnaklarının çoxluğu ilə savaşa qərar verilmişdir.

Konfrans dağılmış, savaş başlamış, Elçilik Tiflisə dönmüşdü. Ancaq Elçilik Tiflisə gəlincəyə kimi savaş da demək olar bitmiş, Batum tutulmuş, Qars qısqaca alınmışdı.

Daha dözmək olmurdu. Savaş durmalı, barış bağlanmalı, Güney Qafqazın bağımsızlığı rəsmən bildirilməlidir, yoxsa biz ayrılar, özümüzə gün ağlayarıq – deyə «Seym»dəki müsəlman üyələr son olanağa əl atmışdılar.

Yanlış, gerçəkdışı düşüncəyə qapıldıqlarını, Güney Qafqaz uluslarının belə bir savaşa kəsinliklə sağlanmış olmadığını anlayan gürcülər də bundan başqa bir yol qalmadığını bilərək, savaşçı Gegeçqori ağalığını dəyişib, yerinə barışçı Çxengeli kabinəsini gətirdilər.

Batumda yeni danışıqlar başladı. Çxengeli Trabzondakı Türk istəklərinin artmayacağına umud edirkən, gerçək düşündüyü kimi çıxmadı. İstanbul Ağalığı Batumla Qarsda tökülən Türk qanına qanpulu olaraq yeni bir sıra topraq istəyirdi. Bu istək Axıska, Axalkələk, Aleksandropol, Sürməli, Naxçıvan sancaqlarından oluşurdu.

Güney Qafqaz Elçiliyilə Türk Elçiliyi Batumda danışıqlarda ikən Nuru Paşa başçılığında bulunan bir kaç subay İran-Qarabağ yolu ilə Gəncəyə gəlmişdi [Nuru Paşa Təbriz-Savucbulaq-Alacücə yolu ilə mayın 20-də Araz çayına çatmış, onu salla keçərək, ayın 25-də Gəncəyə girmişdir].

O çağda qorxunc bir anarxiyaya uğramış, bir yandan da Bolşevik saldırısı ilə qorxudulan Gəncə Nuru Paşanı «göydən enmiş qurtarıcı mələk» kimi görürdü. Ulusun ona yapdığı qarşılama Gəncə tarixində görünməmişdir.

Batum danışıqları bir çox çətinliklərə uğrayırdı. Danışıqlar uzanırdı. Gürcülər bundan belə Güney Qafqaz Ağalığı içində qalmağı özlərinə gərəksiz görür, əl altından Almaniya ilə anlaşırdılar. Türkiyə ilə savaş ortağı Almaniya arasındakı anlaşmazlıq gürcülərə belə bir addımın yararlı olacağını deyirdi. Sonda olan oldu. Gürcüstan mayın 26-da Güney Qafqazdan ayrı bağımsız bir respublika yaratdığını bildirdi.

Gürcülərin Güney Qafqaz Federasiyasından çıxmalarından sonra birgə Ağalıq parçalanmışdı. Buna görə «Seym»dəki müsəlman elçilər də, gürcülər kimi, özlərinə Azərbaycan Milli Şurası dedilər. Milli Şura iki gün sonra, mayın 28-də, Azərbaycanın bağımsızlığını bildirərək, bunu mayın 30-da teleqrafla bütün dövlətlərə yaydı.[1]

Milli Şura bağımsızlığı bildirməklə birgə Azərbaycan Ağalığını da qurdu. İlk Ağalıq Azərbaycan Ulusal Axını yağılarının Tiflisdə öldürdüyü Fətəli Xanın başçılığında qurulmuşdu.

Güney Qafqaz Ağalığının dağılması ilə Batumdakı Elçilik də dağılmış, buna görə danışıqları Azərbaycan, Gürcüstan, Ermənistan elçiləri ayrılıqda sürdürmüşlər.

Batumda iyunun 4-də Osmanlı İmperatorluğu adından Ədliyə bakanı, birinci elçi Xəlil bəylə, Doğu Ordusu komandanı, ikinci elçi Vəhib Paşa, Azərbaycan adından Milli Şura başçısı Məhəmməd Əmin Rəsulzadə, Dış İşləri bakanı Məhəmməd Həsən [Hacınski] bəylər Barış Anlaşmasını qolladılar.

Azərbaycan Cümhuriyəti bu Anlaşmanın 4-cü düzüyünə

1 «Azərbaycanın təşəkkülü» adlı bitiyə bax [Əlimərdan bəy Topçubaşı. «Azərbaycan Cümhuriyətinin yaradılması» B., 2013].

görə ölkənin güvənliyini, toxunulmazlığını qaytarmaq üçün Türkiyədən ordu yardımı istəmək hüququnu qazanırdı.

Azərbaycan elçiləri Trabzonla Batumda Türklərlə olan görüşlərində Azərbaycanın nə kimi çətinliklərə düşdüyünü, bu qorxunc çətinlikdən çıxa bilmək üçün Türkiyənin yardımından asılı olduğunu istər sözlə, istərsə yazılı anlatmışdılar. Bu yol Azərbaycan Milli Şurası adından biz, Dış İşləri Bakanlığı adından da Məhəmməd Həsən bəy [Hacınski] bu Anlaşmanın 4-cü düzüyünə dayanaraq Türkiyə Ağalığına üz tutub qurtuluş gücü istədik.

Türkiyə Elçiliyi bütün Azərbaycan ulusunun dördgözlə bəklədiyi umuda hay verən bu diləyimizə yubatmadan uyğun cavabını verdi. Ancaq Gürcüstan yolu ilə gedəcək qurtuluş gücü Almaniya Ağalığının göstərdiyi çətinliklərdən dolayı istənildiyi hızla yetişəmmirdi.

Olanüstü durumda bağımsızlıq bidirən Milli Şura Gəncəyə köçdü.

İyun ayının 16-da keçirdiyi tarixi toplantısında Milli Şura Fətəli Xanın ikinci kabinəsini qurub, bütün yetkilərini bu Ağalığa verərək, olanüstü nədənlə bağlı özünü buraxdı. Toplantının bununla bağlı çıxardığı qərar aşağıdakı kimi idi: «Azərbaycan Milli Şurası Azərbaycanın keçirməkdə olduğu ağır iç, dış çətinlikləri gözə alaraq, bütün hüquqlarını, yetkilərini Fətəli Xan Xoyskinin başçılığında qurulan kabinəyə verib, bu kabinəni yubadılmadan, ulus səsverməsilə Parlamen toplanana kimi, Azərbaycanın ağalıq hüququnu öz əlində bulundurараq kimsəyə verməməklə görəvləndirir».

Azərbaycan Milli Şurasının bu yolla buraxılması, o çağda Gəncədə ortaya çıxan bir taqım politik çəkişmələrdən yaranmışdı. Bu çəkişmə ölkənin politik quruluşu ilə bağlı demokratik axınlarla aristokrat düşüncələr arasında yara-

nırdı [Tiflisin önəmsəməməsi, «Seym» üyəsi bulunan müsəlmanların çıxış yolu tapammaması üzündən arxasız qalan Bakı, eləcə də ağalıqsızlıq bəlasına uğrayan başqa yerlərin qaçqınları Gəncəyə toplaşmış, ürəkləri «başçılar»a acıq duyğusu ilə dolmuşdu. Çoxu canı acımış seçkin siniflərdən olan bu topluluq yerli qarşıçıxanlarla birlikdə elliyin düşüncəsində ortaq bir geriçilik etkisi yaratmış, «Seym» üyələrinə qarşı bütöv bir axın doğurmağa çalışmışdılar. O çağ Milli Şuranın çağırışı ilə, Azərbaycan Ağalığına bəlli, yasal olaraq Gəncədə bulunan Türk komandanlığı da hamını saran belə bir etkidən uzaq qalammamışdı...Milli Şuranın başçısı Məhəmməd Əmin Rəsulzadə, Baş bakan Fətələ Xan Xoyski, Dış İşləri bakanı Məhəmməd Həsən Hacınski bəylər Nuru Paşa ilə bu yöndə anlaşmaq istəmişlərsə də, Paşa bir əskər olub politikadan anlamadığını, bununla bağlı «politik-yardımçı»sı bulunan Əhməd bəy Ağaoğlu ilə anlaşmağın gərəkdiyini söylədiyindən, elçilər onunla görüşmüşlər. Əhməd bəyin bu yolda baxışı belə olmuşdur: Ulus sizi istəmir! Komandanlıq da sizin işinizə qarışmaq istəmir. Öz gücünüzə güvənirsinizsə toplantınızı açın, Ağalığınızı qurun. Ancaq ulus sizə qarşı ayaqlanarsa, Türk əskəri qarışmaz! Əskər buraya qardaşlarını yağıdan qurtarmaq üçün gəlmiş, yaşayanlara güllə atmaq üçün deyil!

Elçilər Əhməd bəyə sormuşlar: Komandanlıq Azərbaycan Ağalığına hankı yolla yardım edə bilər? Cavab almışlar: Milli Şura özünü buraxsın. Onda Paşa özü bir Ağalıq qurar. Elçilər buna qarşı çıxmışlar. Belə olursa, Azərbaycanın uluslararası hüququ tapdanır tutalqasına qarşı Əhməd bəy Milli Şuranın Ağalığı qurub bütün hüququnu ona verərək özünü buraxmasını bildirir. «İstiqlal». 1918 – 28 mayıs – 1919. B., 2014, s.94].

Hər yandan yağı güclərlə çevrələnən ölkədə bu kimi çəkişmələri bir ara qırağa qoymaq gərəkirdi. Bu gərəklik geniş yetkiləri olan bir Ağalıq qurulması ilə əldə edilə bilmişdi.

Azərbaycanın yaradılış tarixində önəmli olan bu olayda Milli Şuranın nə kimi duyğularla yaşadığını göstərmək üçün başçısıtək söylədiyimiz qapanış çıxışından bir parçanı burada veririk: «... Hə, bəylər, Azərbaycanın keçici başkəndi Gəncədə az da olsa Ulus Ağalığının göstəricisi olan bir qurumun bu yolla ortadan çəkilməli olması, sözsüz, demokratiyanın geriləməsi, geriçi güclərin uğurudur. Bu geriləmə ağ, arı güclərə qarşı qara, çirkin gücləri gücləndirəcəkdir. Bu baxımdan görülüncə ilk baxışda bizim durumumuz Ukraynanın durumuna bənzəyən kimidir. Bu durumlar bizdə Rusiya devriminin amacının uğursuzluğunu göstərən bir düşüncə yaradır. Ancaq bəylər, görüntü ilə qalmayaq, üzdən düşünməyək, çox da düşkün olmayaq! Böyük Rusiya Devrimi nə deyirlərsə desinlər, kəsinliklə yenilgiyə uğramadı. Rusiyada devrim nə yapacaqdı? Bu sualla «Böyük Rusiya» düşüncəsilə ağılanmış Rus devrimçilərinin baxımından deyil, devrimin öz doğasını araşdıraraq cavab verilməlidir. Belə baxılırsa, Rusiya Devrimi əzilən, itkiyə uğramış siniflərlə tutuqlu uluslara özgürlük verməlidir. Əzilən siniflərin istədiklərindən artığını aldıqlarını deməliyik. Uluslar isə birər-birər bağımsızlıq qazanırlar.

Devrim dünyanın altıda birini tutan Böyük Rusiya yaratmaqlamı görəvli idi? Kəsinliklə deyildi! Aşırıya varan sinif özgürlükləri sözsüz, gözə alınacaq, uyğun bir biçimə girəcəkdir, axı, özgürlüyün bu biçimi sözsüz, özgürlük deyil, bir bəladır! Ancaq güman edirəm, bu yolda yapılacaq geriləmə bütün durumlarda devrimdən qabaq olan sınırın ötəsində deyil, bərisində qalacaqdır. Demək, durum qabaqkına baxanda eyi olacaqdır.

Bəylər! Mən əski Rusiya torpağında yaşanan bu olaya belə baxıram. Buna görə də indi də umudlarla yaşayıram. Bilirəm, bəylər, Azərbaycan Rusiya Devriminin ortaya çıxarıb gözəl quramalarla bildirdiyi ələdüşməz özgürlükdən sonadək yararlanacaqdır!

Budur, bağımsız bir Azərbaycan! Politikaca özgür, bağımsız olacaq Azərbaycanda toplumsal özgürlüklərin, insan hüquqlarının despotik Rusiya çağından daha geniş, daha uyğun olacağına quşqu etməm! Özü də, bəylər, söyləmək istərəm, Azərbaycan Qafqazda ən özgürlüksevər, devrimçi sayılan Gürcüstandan daha uğurludur! Nədən? Burada bizim iç özgürlüyümüzə qatışan, qatışacağı düşünülən güc yad bir güc deyil, öz gücümüzdür! (Alqışlar).

Buradan, gələcək, böyük, ünlü bir ulusun çeşidli bölmələrinin, budaqlarının qovuşmağa doğru gedəcəyi birgə amacımızdır! (Alqışlar).

Toplumsal, eləcə də hüquq özgürlüklərində itirsək belə, politikada qazanacaq, itkiləri dolduracağıq! Ancaq Ukrayna, ya da Gürcüstan elə deyildir.

Hə, bəylər! Çox da umudsuz olmayaq. Tarixin, ulusal amacımız baxımından uyğun bir çağında olduğumuzu, Türk birliyi üçün olanaq ələ keçdiyini unutmayaq. Bütün gücümüzü bu politik özgürlüyün gerçəkləşməsinə verək. Bunun üçün də hər dürlü qurbanlığa sağlanmış bulunaq!».

Yuxarıda alıntı verilən Qərarnaməyə görə, Milli Şuranın ölkəni yönətməkdən sorumlu etdiyi Ağalıq bir an öncə Bakını qurtaracaqdır!

Nuru Paşanın başçılığındakı ordunun yardımı ilə az bir sürədə Bakı bölgəsindən başqa bütün Azərbaycanda yasal düzən yaradıldı. Yalnız Bakı ilə yan-yörəsi Bolşeviklərin əlində idi. Bunlar ara-sıra baş qaldıraraq saldırıda belə bulunur-

dular. 5-6 aylıq bir olanaqdan yararlanan Bolşeviklər olduqca yaxşı bir qorunma gücü sağlamışdılar.

Dışdan Azərbaycan-Türkiyə ulusal güclərinin sıxışdırdığı «Bolşeviklər-Daşnaksütyun» gücləri içdən sarsılır, aralarına parçalanma girirdi. Sonda yad əlində bulunan Bakıda Bolşevik diktaturasına qarşı bir çevriliş olur, ağalıq Erməni alayları ilə Bakı limanındakı donanma əskərlərinə dayanan, Ermənilərlə Ruslardan yaradılmış bir «Direktoriya»ya keçir. Bu «Direktoriya» İngilisləri Bakıya çağırır. O çağda İranda bulunan İngilis komandanlığı bu çağırışdan sonra Bakıya qoşun çıxarır.

Durum belə olunca, Türkiyədən yeni güclər çağırılması gərək görülür. Almanlar isə yuxarıda deyildiyi kimi, Gürcüstan yolu ilə Bakıya gedən Türkiyə yardım güclərini yubatmağa çalışırlar. Buna görə Bakının qurtuluşu da sentyabrın 15-nə kimi gecikir.

Qanlı bir savaş, dönməz bir qarşıdurmadan sonra qardaş qurtuluşuna can atan igid Məhmədciyin Türk birliyi tarixində altun hərflərlə yazılacaq igidliyilə Azərbaycan ulusal güclər öz başkəndinə girir. Altı ay başdan-başa qan-ciyər yeyən müsəlmanların üzü gülür. Bakı Qurban Bayramı kimi gözəl bir gündə yenidən öz yiyələrinin əlinə keçir.

O arada biz İstanbulda idik. O biri Qafqaz respublikaları ilə birlikdə, Orta Avropa Dövlətlərinin qatılımı ilə olacaq toplantıya qatılmağa getmiş Azərbaycan Cümhuriyəti Elçiliyinin başında bulunurduq. O çağın Ordu bakanı, Baş komandan elçisi bulunan Ənvər Paşa telefon edirdi:

– Əmin bəy, Bakı alındı!

Bu qısa sorağın məndə doğurduğu duyğunu yazmaqla göstərəməm! O duyğunu indi də unudammıram!

Bundan bir kaç gün qabaq Almaniya Ağalığının bir qə-

rarını protest etmişdik [Azərbaycan Respublikasının İstanbuldakı Elçiliyinin başçısı kimi Almaniya İmperiya Ağalığının Türkiyədəki elçisi qraf Valdburqa 12 sentyabr 1918-ci ildə protest edib] Almaniya dövləti Bolşevik Ağalığı ilə Brest-Litovsk Anlaşmasına ek olaraq gizli yapdığı bir bağlaşmaya görə Bakı bölgəsinin Kür çayına kimi Ruslara verilməsinə onay vermiş, qarşılığında ozünə neftdən yararlanma üstünlüyünü qazandırmışdı. Böyüyümüz Əhməd bəyin [Ağaoğlunun] dediyi kimi, bizi bir tənəkə neftə satmışdı. Bununla bağlı bizə üz tutan qəzetçilərə: «Bakısız Azərbaycan – başsız bədəndir!» – demişdik [1918-ci il sentyabrın 6-da Azərbaycan Cümhuriyətinin Dış İşləri bakanı Məhəmməd Həsən Hacınskiyə göndərdiyi «Bildiriş»də «Bakı sorunu ancaq gücdən asılıdır. Bakı alınmazsa – hər şey bitdi! Sağlıqla qal, Azərbaycan! – da deyib] .

Başı ölüm məngənəsində bulunan bir adamın qurtulması necə bir yenidən doğuşsa, Bakının qurtuluşu da eləcə ağlasığmaz bir olaydı. Doğrudan da elə idi. Sonra acı bir devrim sonucunda məzarları unudulmuş qalan Anadolu məhmədcikləri Bakıda şəhid olmaları ilə türklüyə yeni bir politik görkəm verirdilər. Varlığı unudulmuş, ancaq mənən bütün könüllərdə bulunan bu bahadır şəhidlər yalnız Bakıdadırmı? Naxçıvandan, Qarabağdan, Şamaxıdan, Gəncədən Bakıyadək bir yer varmı, orada belə bir igid yatmasın?!

Hə, Azərbaycanın dörd bir yanında qoşucu dediyi «Sarmaşıqlı bir məzar» bulursunuz. «Qız-gəlin»lərin anıta çevirdikləri məzar, qardaş harayına qaçan «TÜRK» məzarıdır!

V

MUDROS BARIŞININ QAFQAZDAKI SONUCLARI

Tarixin daha başqa işləri varmış. Türkiyə Mudros Barışını [30.10.1918] bağlamalı oldu. Biz də bəklədiyimiz konfransın [Orta Avropa ölkələrinin Güney-Qafqaz respublikalarının qatılması ilə İstanbulda keçiriləcək konfransı] başlanmasını görmədən geri dönürdük. «Yürük» gəmisi quzeydən əsən güclü yelə qarşı boğazdan çıxır, bizi Batuma doğru götürürdü.

Oktyabrın sonlarına doğru Bakıda idik. Bir az öncə sevinən üzlərdə dərin bir üzüntü görünürdü. Türk Ordusunun gedəcəyi, İngilis Ordusunun gələcəyi sorağı hər kəsi üzürdü.

Görəsən, nə olacaq? İngilislərlə birgə Rus Ordusu, Ermənı quldur dəstələri də dönəcəklər, kim bilir, yaşayanlardan nə kimi öc alacaqlar?

Ənzəlidə bulunan Birlik Dövlətləri Ordusunun komandanı general Tomson Nuru Paşadan Mudros Barışığına görə bir həftəyə kimi Bakının, bir ayadək bütün Qafqazın boşaldılmasını istəyirdi. Nuru Paşa Azərbaycanda ordu qulluğuna keçdiyini irəli sürərək, Bakıda qalmaq girişimində bulunsa da, alınmadı. Tomsonun ultimatumu kəsindi, başqa heç bir yorum-yozuma yer buraxmırdı.

O çağda Baş bakan görəvində bulunan Tofiq Paşanın bir teleqrafı gəlmişdi. Bu teleqrafda Barışın ayrıca düzüyünə görə Osmanlı Ordusunun Azərbaycanı boşaltmasının gərəkliyi sorağı verilirdi. Anayurdu çətinliklərə soxmaq istəməyən subaylar İstanbuldan gələn buyuruğa uymaq yolunu seçirdilər.

Bakının qurtuluşundan sonra Milli Şura yenidən toplanmışdı. Milli Şura noyabrın 16-da ölkənin Milli Şurada bulun-

mayan bölgələrinə, ulusal azlıqlarına da elçilərini göndərmək üçün yeni bir yasa çıxarırdı. Bu yasaya görə 120 elçidən oluşacaq bir Parlament toplanacaq, yeni yaranmış duruma uyğun ortaq bir Ağalıq yaradılacaqdı.

Unudulmayacaq ağır bir gün, noyabrın 17-si. İngilis göstəricisilə çar Rusiyasının bayrağı olan donanma Bakı limanına yanaşırdı. Bir az qabaq Bakıdan qaçaraq Ənzəlidə yerləşən bu gücün Bakıda oturmaqda olan Azərbaycan Ağalığına yanaşması nə olacaqdı? – Bəlli deyil!...

Türk Ordusu çəkilmiş, Azərbaycan bölükləri də yox. Gələn komandanlıq Azərbaycan bölükləri deyə ordu tanımır. Azərbaycan Ordusu adlı düzənli bir güc gerçəkdə yox kimi idi. Komandan Nuri Paşanın o çağda Milli Şuranın başçısı olduğumdan mənə yazdığı bir məktubdan anlaşıldığı kimi, toplam ancaq 1500 kişi olan Azərbaycan Ordusunun toplu olaraq bir yerdə bulunmayıb ölkənin çeşidli yerlərində durduğu anlaşılırdı. Azərbaycan Ağalığını bu gün Bakıda qoruyan güc yalnız 500 milis (polis) idi.

Düşünək: güc olsa belə, Almaniyanın, Türkiyənin yenildiyi bir gücə qarşı Azərbaycanın savaş açması ağla belə gəlməzdi. Buna görə sorun yalnız diplomatik yollarla çözüləcəkdi.

Üç gün qabaq bu istəklə göndərilən Elçiliyə[1] İngilis komandanının son sözü bu olmuşdu: «Bizim bildiyimiz, Azərbaycan ulusunun elliklə istəyindən doğma bir Respublika yoxdur, yalnız Türk komandanlığının intriqası ilə qurulmuş bir Ağalıq var. Siz bunun tərsini deyirsinizsə, onda gələr, yerində öyrənər, ona görə də qərar verərik!».

Bu «qərarı» umudla gözləyən Azərbaycan Ağalığı İngilis komandanlığına verdiyi notada Birlik Dövlətlərinin o yolla Azərbaycan torpağına girişilə Azərbaycanın bağımsızlığının, topraq bütünlüyünün tapdanmayacağına umudunu bildirirdi.

1 Bu Elçilik Nəsib bəy Yusifbəyli, Əhməd bəy Ağaoğlu, Mehdi bəy Hacınskidən [Musa bəy Rəfiyev] oluşurdu.

Noyabrın 17-də iki Bakı vardı, üzüntülü müsəlman Bakısı ilə sevincli xristian Bakısı. Kənd üzərində Rus Biçeraxov bölüklərinin uçaqlarından bildirişlər atılır, bu bildirişlərdə Rus yurddaşlar Bakının yenidən ana yurda verilməsilə qutlanırdı.

«Çıxarma» olaysız edildi. Azərbaycan bayrağı ilə bəzənmiş köprüyə çıxan Tomsonu Dış İşləri bakan yardımçısı [Adil xan Ziyadxan] salamladı. Qarşılığında Tomson onu I Dünya Savaşının bitməsilə bağlı qutlayıb, burada barış yaratmaq üçün bulunduğunu dedi.

İki gün sonra komandanlığın müsəlmanları üzən bir Bildirişi yayıldı. Bu Bildirişdə Biçeraxov Bildirişində olduğu kimi «Yenmiş Birlik Ordusunun ölkəsinə dönmədən öncə ortaq uğura bunca qatqıları dəyən, canından keçən Rus ulusuna çox sağ ol, deməyin görəvlərindən olduğu, bu görəvin yerinə yetirilməsi, Rusiyadan qoparılmış Qafqazın yağıdan boşaldılması üçün Ufada yaradılan Rus Ağalığı ilə uzlaşaraq buraya gəlindiyi» anladılırdı [Tomsonun 19 noyabr «Bildiriş»ində Ufa sözü yoxdur. Orada «Biz buraya yeni Rus Ağalığının bilgisi, onayı ilə gəlmişik» – deyilir. Məhəmməd Əmin bəy Ufa Ağalığı sözünü Azərbaycan Cümhuriyəti Parlamentinin 26 may 1919-cu il, 41-ci toplantısında da işlədib].

Belə bir Bildirişin etkisinə, bir də İngilis Ordusu ilə birlikdə gəlmiş Biçeraxov bölüklərilə Erməni quldur dəstələrinin kənddə törətməkdə olduqları olaylar, müsəlmanlara qarşı takındıqları alçaldıcı addımlar da düşünlürsə, o çağda nə kimi saatlar yaşandığı öz-özünə anlaşılır.

Türkcə yazılı göstəricilərin qırıldığı, gəmilərdəki Azərbaycan göstəricilərinin aşağılandığı, boşuna tüfəng ataraq müsəlmanların hər yolla alçaldılıb saldırıya uğradıqları olaylar hər an önünəkeçilməz bir qarışıqlıq törətmək üzrə idi.

Bakı belə sıxıntılı günlər keçirməkdə ikən, Gəncə daha bir kaç gün öncə onunla birgə bulunan Türk komandanlığını dərin bir üzüntü ilə yola salırdı...

VI

PARLAMENT, ETDİKLƏRİ

Azərbaycan Milli Şurası belə bir ağır durumda Ağalığın dayaqlarını gücləndirməyə çalışırdı.

Dekabrın 7-də Azərbaycan Parlamenti açılırdı. Böyük bir topluluğun qarşısında açılan Parlamentdə söylənən açılış çıxışının sonunda Azərbaycan bayrağına baxaraq söylənən «Bir yol yüksələn bayraq bir daha enməz!» çağırışı coşqun, sürəkli alqışlarla qarşılanaraq yeni bir yaşama girilirdi.

Ancaq nə qorxunc, nə qaranlıq bir ortam içərisində?!

Bir yanda Birlik Komandanlığının sayğınlığı ilə ayaqda duraraq Azərbaycan deyə bir varlıq tanımayan yaraqlı güc, o biri yanda da ulusun istəyindən, istəncindən güc alsa da, düzənli orduya dayanmayan bir Ağalıq.

Birlik Komandanlığı ilə uyumda bulunan Rus qurumu ürəklənmiş, politikası olmazın aşırılaşmışdı. Azərbaycanlılara «Bildirdiyiniz bağımsızlıqdan əl çəkin, sizi bağışlayaq!» – deyir, keçici olaraq quracaqları yerli Ağalıqda Azərbaycanlılara da önəmli bir yer verəcəkləri «yaxşılığı»nı da artırırdılar.

Erməni qurumunun yağılığı, dirənişi isə daha açıq idi.

Azərbaycan başçıları üçün bu boyda ağır politik durumda yıxılmayıb, bağımsızlıq özülü üzərində dəyişməz qalmaq, bu yolda güc göstərmək doğrudan da çətin idi.

Bu çətinliklər dolaşığında yollarını 360 dərəcə dəyişənlər vardı. Ulussevərliyindən quşqu duyulmayan bir çox sayğınlar belə, yaranan çətinliyi adlamaq üçün «Bağımsızlıqdan əl çəkmək» önərisini incələmək gücsüzlüyünə düşdülər.

[Azərbaycan Respublikasının Dövlət Arxivindəki 2994 №-li fonddakı «İngilis qoşunlarının Azərbaycana gəlməsindən özət»də bu adamların Əhməd bəy Ağaoğlu, Xosrov bəy Sultanov, Musa bəy Rəfiyev, Tağı bəy Səfərəliyev, Əsədulla Əhmədov olduğu aydınlaşır. Rus, erməni, müsəlman uluslarından olan qatılımçılar «Rus Soveti»ndə aşağıdakı kimi anlaşmışlar: «Biz, bütöv Rusiya ilkəsini, ən başlıcası da Rusiya ilə topraq bütünlüyü ilkəsini alqışlayırıq. Azərbaycanın politik quruluşu biçimini Bütün Rusiya Qurucu Toplantısı bəlirləyir. Buna baxmayaraq biz, Barış Konfransında Ulusal elçiliyimizlə Rusiyanın iç quruluşunun bizim özərkliyimizə yardımçı olacaq biçimdə qurulması üçün çalışmaq hüququmuzu özümüzdə saxlayırıq].

Ancaq Ağalığın başında duran Fətəli Xanla Milli Şuranın çoxluğunu oluşduran «Musavat» partiyasının başçıları ilə sol yan dəstələri belə bir çaşqınlıqdan uzaq qaldılar, «Ruslar, Ermənilər Parlament «Düzük»ünə görə Ağalığa qatıla bilərlər, bundan artığını kəsinliklə edəmmərik!» – dedilər, istəklərinə də yetdilər.

Parlament yaradılan kimi Ağalıq qurmaq yetkisi yenidən Fətəli Xana verildi. Fətəli Xan kabinəsini yaradaraq Bildirişini oxudu, Parlamentdə güvən qazandı.

Bunun ardınca general Tomson 1918-ci il dekabrın 18-də [28] Birlik Dövlətləri Komandanlığının adından yayımladığı Bildirişində «Fətəli Xanın başçılığında koalision Azərbaycan Ağalığı yarandığından, Birlik Dövlətləri Komandanlığının Azərbaycanda tək yasal bir ağalıq kimi bu Ağalığı tanıyacağını, ona gərəkən bütün yardımda bulunacağını» hamıya bildirirdi.

Komandanlığın ilk Bildirişini ortadan qaldıran bu ikinci Bildirişi Bakı ortamında böyük bir devrim düşüncəsi yaratdı. O çağadək Komandanlığın öyücüsü bulunan Rus, Erməni ba-

sını indi, bir gün qabaq öydükləri görəvə söyüşlər yağdırmağa başladılar. Azərbaycan amacını savunan müsəlman basını isə doğal olaraq, komandanlığın bu addımını alqışlayır, sayğı ilə yanaşırdı.

Rus qurumları bu duruma yalnız qəzet yazıları ilə qarşı çıxmaqla yetinmədilər. Birlik Komandanlığına qarşı bir taqım «devrimçilik»ə də girişdilər. Bunun üzərinə önayaq olanlardan bir kaç adam tutuldu, Ənzəliyə sürüldü.

Bu olaydan sonra Bakıda bulunan Rus-Erməni işçiləri işə çıxmadılar. Elektrik Ortaqlığı işçisinin çoxu xristian olduğundan, bunların işə çıxmaması ilə bütün yaşam durmuş olurdu. Bu olay etkili oldu. Tutulanlar qaytarıldı. Rus qurumunun istəyilə basının kontrolu da Azərbaycan Ağalığının yetkiləri dışında tutuldu.

Başqa bir olayla bağlı yenə o qurumdan ikinci bir işəçıxmama istəyi oldu. Bu çağırış bir az da Azərbaycan Ağalığına qarşı edilmişdi. Amac Ağalığın gücsüzlüyünü göstərməklə çətinliklər törətmək idi. Ancaq bu yol «Müsavat» Partiyası müsəlman işçisini yetərincə sağlamışdı. Müsəlman işçi bu yol xristian işçilə iş birliyində bulunmadı, işəçıxmama önərisini protest etdi. O biri yandan da Ağalıq kəsin çalışmalarla Elektrik Ortaqlığını işlədə bildi.

Düşünülən basqı boşa getmişdi. Bu andan sonra Ulusal Ağalığın politik durumu güvən verirdi. Bu olayın gerçək sonucundan biri polis qurumundakı yadelli komisarlığın ortadan qaldırılması, biri də basının kontrolu hüququnun yenidən Ağalığa verilməsi idi.

Ağalıq bununla yetinmirdi. Komandanlığa verdiyi notada «Yetki hüququ komandanlıqca tanınmış bir Azərbaycan Ağalığı varkən, Birlik Dövlətlərindən bulunmayan Rus Biçeraxov Ordusu ilə elliklə güvənliyi pozmaqdan başqa bir yara-

rı olmayan Erməni yaraqlı dəstələrinin Bakıda bulunmalarına bir nədən olmadığını bildirməklə bu ordu birliklərinin bir an öncə Azərbaycandan uzaqlaşmasını» istədi. Bu notadan sonra Biçeraxov alayı 48 saatlıq bir sürədə Bakıdan çıxdığı kimi, Erməni yaraqlı dəstələrinin buraxılması da kəsinləşdi.

İngilis komandanlığının gəlişində gördüyü ilk işlərdən biri də liman qurumu ilə maliyə qurumlarının kontrolunu öz əlində bulundurması idi. Azərbaycan Ağalığının çalışmaları ilə bu iki buxov da aradan qaldırıldı.

Ağalığın qurulmasının ardınca o çağ Versalda toplanacaq Barış Konfransına qatılmaq üçün bir Elçilik yaradıldı. O çağda Cümhuriyətin tək gücü olan ulusal cəbhənin birliyi üçün ayrı-ayrı dəstələri bir araya gətirməyə, nazlanmalarına belə dözməyə olanüstü önəm verildiyindən, Elçiliyin bütün axınlardan olan üyələrini Ağalıq deyil, Parlament seçmiş, Ağalıq göndərmişdi.[1]

Bu Elçiliyə Azərbaycanın varlığını dış ölkələrdə tanıtmaq, ulusal hüququnu, bağımsızlığını savunmaq, Barış Konfransında onun elçisi kimi çıxış etmək yetkisi verilmişdi.

Elçilik komandanlığın onayından sonra Azərbaycanın bağımsızlığını uluslararası alanda qorumaq amacı ilə Bakıdan yola çıxdı.

Sayğılı oxucu ordusuz bir Ağalıq qurulduğunu görür. Doğrudan da elə idi. Olaylarından danışdığımız bu çağlarda

1 Elçilik bir başçı, üç üyə, üç də yardımçıdan oluşmuşdu. Başçı, Parlament başçısı Əlimərdan bəy Topçubaşı. Üyələr: Parlament elçilərindən Əhməd bəy Ağaoğlu, Əkbər ağa Şeyxülislamzadə, Məhəmməd Həsən bəy Hacınski. Yardımçılar: Parlamentdən Seyid Mir Yaqub bəy Mehdizadə ilə Məhəmməd bəy Məhərrəmzadə, bir də yazışmaçı Ceyhun bəy Hacıbəyli idi. Bunlar içində yalnız birisi «Müsavat» Partiyasından olub, o biriləri Parlamentin başqa fraksiyalarından idi. Müsavatçı Məhəmməd Həsən [Hacınski] Cümhuriyətin dağıdılmasından qabaq ölkəyə dönüb orada qalmışdır. Məhəmməd Həsən bəy sonralar partiyasını atıb bolşeviklərə qoşulmuş, dönük olmuşdur.

Bakıda Azərbaycan Ordusu bulunmurdu. İngilis komandanlığı Mudros Barışığını yalnız Türkiyə Ordusuna deyil, Azərbaycan bölüklərinə də uyğulayırdı. Bunun üçün də Ordu bakanı Səməd bəy Bakıda deyil, daha çox Gəncədə bulunur, ilk Azərbaycan alayını yaratmağa çalışırdı. Sonda Gəncədə yaradılan bu alay Bakıya gəldi. Ulusal Ağalıq çağında Bakının yaşadığı ən ürəkdən sevincli günlərdən biri də bu gün idi.

İngilislərin Bakıya gəldiyi gün yayımladıqları Bildirişə Rus-Erməni qurumunun güvəninin, boşboğazlıqlarının artdığını görüncə, ilk basqıda bütün tuzları vermək istəyənlərin on gün sonra necə boş qorxuya düşdükləri 1919-cu il aprelin 5-də (Azərbaycan Ordusunun Bakıya gəldiyi gün) bilindi [Azərbaycan Respublikasının Ordu bakanı artileriya general-leytenantı Səməd bəy Mehmandarovla Baş Qərargahın başçısı general-mayor Həbib Səlimovun 9 iyul 1919-cu ildə verdikləri 320 №-li Buyuruq Ordu Bakanlığının iyulun 3-dən Gəncədən Bakıya köçmüş sayıldığı bildirilir. İlk ordu birliyi aperlin 5-də gələ bilərdi. Tutuşdurmaq üçün başqa qaynaq tapammadıq]. Düşünək: bütün Milli Şura o qorxu ilə etkilənsəydi, bəlkə də Azərbaycan Cümhuriyəti heç yaradılmadan yox olub gedəcəkdi.

İngilislərin bu addımı Azərbaycanlıların qara gözlərinə vurulduqlarından irəli gəlmirdi. Sevginin bir politika nədəni olması düşüncəsi uzun illərin əskiliyi ilə birlikdə çoxdan söyləncəyə qarışıb getmişdir. Burada sevgi deyil, politik, ekonomik çıxarlar vardı. Bakı neftinin bağımsız qafqazlı bir Ağalığın əlində bulunması, elliklə Qafqazın Rusiyadan ayrılması İngilislərin işinə gəlirdi. Azərbaycan da bu durumdan yararlanmalı idi. Ulusal Ağalığın diplomatik uğurları bununla açıqlanırdı.

***

Yenidən Ağalıq qurmaqtək böyük, sorumlu bir iş qarşısında qalan Azərbaycan aydınlarının üzləşdiyi çətinlikləri bütünlüklə dəyərləndirə bilmək üçün çarizmin Azərbaycan bölgəsini Rusiyadan ayrılan başqa yerlərə baxanda nə kimi sıxıntılara soxduğu deyilməlidir, yoxsa oxucular durumu bütünlüklə anlamazlar.

Azərbaycan müsəlman dövlətlərilə sınırlı bir Türk-müsəlman bölgəsi idi. Çarizm bu kimi bölgələrini sürəkli quşqu altında bulundururdu. I Dünya Savaşından qabaq Qafqazın başçısı bölgənin xristian yaşayanlarından arxayın ikən, müsəlmanlar arasında ayrılıqçı axınların ola biləcəyini düşünürdü.

Çar Ağalığı sınırda bulunan müsəlman bölgələrini yüksəlişə, bilgiyə erdirəcək istəklərdən özəlliklə uzaq bulundurdu. Ordu qulluğuna alınmamaqla görüntüdə onlara bir yüngüllük göstərilirdi. Ancaq gerçəkdə güvənilirliyi sürəkli quşqu altında olan bu ulusa yaraq vermək istənilmirdi. Bu yolla orduçuluq özəlliyini unudan ulus dağınıq bir topluluğa çevrildiyindən düşünülən qorxu azalırdı.

Qonşuları Ermənilərlə Gürcülər ordu qulluğunda bulunduqlarından, orduçuluğun özlərini qorumağa yetik çağdaş yolları ilə tanışdılar. Müsəlmanlar isə orduçuluqda xanlıqlar dönəmindəki qorunma yollarını belə unutmuşdular.

Xristian generallar, miralaylar [alay başçıları-polkovniklər] çox ikən, Azərbaycanlı subayları barmaqla saymaq olardı.

Polis qurumunda bir ilçə başçısı rütbəsini bulmaq Azərbaycanlı bir müsəlman üçün göydəndüşmə sayılırdı.

Ədliyə görəvlilərinə gəlincə, çeviricidən yuxarı bir müsəlman yetkililə qarşılaşılmazdı.

Azərbaycan ordu quruculuğunda Rusiyanın dağıntıları üzərində qurulan respublikaların hamısından pis durumda idi. Rusiya türklərindən orduya alınanlar yalnız Volqaboyundakı türklərdi. Coğrafi yerləşmələrinə görə Rusiyadan ayrılmalarına olasılıq olmadığından bu görəvə alınmışdılar.

Türküstanla Qafqaz müsəlmanlarından isə orduya alınmırdı. Bu üzdən ordu yaradılması Azərbaycanlılar üçün çox çətin bir iş olurdu.

Düşünün, Rusiyadan ayrılmış Ermənistan, ya da Gürcüstan ağalıqları yayımladıqları bir buyuruqla hansısa ildə Rus Ordusunda qulluq eləmiş əri, subayı yaraq altına çağırınca, on gün sonra yeni Ağalığın ilk ordu kadrlarını oluşduran, savaş-döyüş görmüş, barıt qoxlamış bir güc ortaya çıxırdı. Azərbaycan isə bundan yoxsundu [Nuru Paşa iyunun 28-də baş komandanı Ənvər Paşaya yazırdı: «Yeni qurumdan bir sonuc əldə edilməməkdədir. Yaşıllardan yaraq altına 30.000 kişi gəlməsi bəklənirkən bunun yerinə ancaq 37 kişi gəlmişdir. Bunlardan yararlanamayacağımız anlaşılmışdır. Bakı sorununu özümüz tez çözmək üçün bu bölgəyə bir tümən daha göndərilməsi uyğun olardı». Nuru Paşa iyulun 1-də göndərdiyi məktubunda isə gileylənirdi: «Güney Qafqaz müsəlmanları çox söylər, az yapar, keyfinə düşkün, paranı olduqca çox sevən adamlardır!».

Yurdunu qorumaq üçün orduçuluq duyğusu, düşüncəsi itmiş bir ulusun qarşılaşacağı şey yağıların törətdiyi soyqırımı olar! Ancaq Azərbaycan Cümhuriyətini quran böyük oğullar bu gün birilərinin dəyərləndirməsi çətin olan böyük əməklə az sürədə Azərbaycan Ordusunu yaratdılar].

Bəllidir: ordunu ordu edən subaylardır. Azərbaycan bu yöndən də bütünlüklə yoxluq içində idi. Rusiya Ordusunda qulluq eləmiş subaylar çox az idi. Yaradılan bölüklər üçün

deyil, Azərbaycanlı tək müsəlman alay komandanı bulmaqda çox çətinlik çəkilirdi.

Baltikyanı ağalıqlarından, yanılmıramsa, Estoniya Respublikası Bolşeviklərə qarşı yapdığı bağımsızlıq savaşlarından birində verdiyi minədək itkidən yarısı subaylar idi. Bu subayların hamısı əskidən Rus qulluğunda bulunub, çoxu çavaşda yetişmiş estoniyalı subaylardı.

Azərbaycan Cümhuriyəti isə öz soyundan 500 deyil, 50 zabit belə bulmurdu. Bunun üçün də Azərbaycan Ordusunda ayrı-ayrı uluslardan bir subay dəstəsi vardı.

Ordunun bütün ağırlığı kiçik subayların üstündə idi. Bunlar da tez-tələsik, Nuru Paşa çağında yaradılan Gəncə Ordu Okulundan yetişmə [1918-ci il iyul] dönməz Azərbaycan yaşılları idi. Bunlar quşqusuz yurdsevər, ulussevərlərdi.

Çətinlik yalnız ordu qurumu ilə qalmırdı. Azərbaycanlılar Ağalığın başqa işlərini görmək üçün də yetərincə uzman, yönəticilər bulammırdılar. Çarizm öz Ağalıq maşınına müsəlman yönətici almazdı. Bu baxımdan qonşumuz Gürcülərin durumu daha yaxşı idi. Bir çağlar Qafqazın teleqraf, dəmir yolu, poçt kimi qurumlarına Gürcülər çox alınırdı. Müsəlmanlar polis, mülki işlər, maliyə, ədliyə kimi qurumlarda heç dərəcəsində idilər.

Ermənilərin kilsə okulları, Gürcülərin köklü seçkin qurumunun ulus okulları illərdən bəri Ermənilər, Gürcüləri oxutmaqda ikən müsəlmanlara böylə bir hüquq verilmirdi. Ulusal eyitim yalnız özəl okullardakı əski yollu, məscid «məktəbxana»larına dayanırdı.

Bələdiyələrdə də müsəlmanların hüququ sınırlı idi. Yasaya görə çoxu müsəlmanlardan olan Bakı, Gəncə kimi kəndlərdə bələdiyə üyələrinin yarısı xristian olmalı idi.

Bütün bunlar yeni Ağalıq qurulduğu çağda pis etkilərlə

duyulurdu. Buna 1918-ci ildəki «komunizm quruculuğu» ilə dağıdılmış qocaman Bakı neft ocaqlarının yenidən doğal durumuna gətirilməsi kimi çətinliyi də artırın...

Çarizm dönəmində bölgənin ortaqlığı Tiflis idi. Güney Qafqazın bütün ortaqlıq qurumları, ordunun yerləşdiyi yer, gərəkən saxlanclar hamısı burada idi. Başkəndini Bakıda quran Azərbaycan Ağalığı bu qurumları yenidən yapmalı idi.

Bakıda yalnız dünyanın baxışlarını çəkən neft ocaqları yoxdur, Kaspi [Xəzər] dənizinin ən önəmli limanı da buradadır. Bura İran, Türküstan, Rusiya ilə Avropanı birləşdirən önəmli bir alver ortaqlığıdır, ikinci İstanbuldur. Bakı limanında əskidən devrim olaylarından dolayı işləməyən, önəmli bir alver donanması var idi. Bu donanmanı yarın üçün qorumaq, qulluqçularını barındırmaq, yönətmək gərəkdi.

Ortada bu boyda yönətim, quruculuq çətinlikləri varkən, devrimin toplumsal çağırışları ilə qızğın, son düzəyə gəlmiş topraq sorunu, işçi sorunu kimi hər an alovlana biləcək, bir an öncə çözümünü istəyən köklü yenidənqurma sorunları da vardı.

Bu boyda yönətim, toplumsal, politik, ordu, iç ekonomik sorunlarla yanaşı, bir yandan Ermənilərlə kəskinləşən sınır sorunu, o biri yandan da Denikin Ordusu kimi bir Rus saldırqanının qorxusu altında bulunan Azərbaycan Ağalıq qurmağa başlayırdı. Bu arada Azərbaycan Ağalığının ulusun güvəni, partiyaların birliyindən başqa bir dayağı, yardımçısı yox idi.

***

Bundan sonrakı olayların nədənlərini daha yaxşı anlıya bilmək üçün Parlamentin hansı partiyalardan qurulub, ayrı-ayrı olaylara qarşı nə kimi bir yön aldığını qısaca söyləmə-

yin gərəkliyini duyuruq.

Parlament 85 ulus elçisindən oluşurdu.[1] Bundan 10-u Erməni, 5-i Rus, 5-i də çeşidli uluslardan olmaqla 20-si müsəlman olmayan, qalan 65 üyə bütünlüklə müsəlman, bir kaçını çıxmaqla hamısı Türk idi.

Partiya baxımından Parlament belə bölünürdü: «Müsavat» Partiyası – 27, «Müsavat»la birləşən «Bitərəf» dəstə – 6, «İttihad» Partiyası – 11, Sosialist bloku – 10, «Əhrar» partiyası – 7, «Özgürdüşüncəlilər» – 3 [Parlamentə qatılanlar, çıxanlar olduğundan saylarda kiçik uyğunsuzluq vardır. AXC Ensiklopediyası. I c., B., 2004, s. 154-də 11 fraksiya, 109 ulus elçisinin adı keçir].

«Müsavat» Partiyası ideologiya baxımından ulusseverlikdən doğan türkçülük idealını tutan bir partiyadır. Daha geniş adı Türk Federalist Müsavat Partiyasıdır. Azərbaycan Cümhuriyətinin bayraqçısıdır. Bu çağırışı birinci ortaya atmaq, onu yalnız yadlardan deyil, bir sıra Azərbaycanlılardan da qorumaq baxımından «Müsavat», Azərbaycanın birinci bağımsızlıq partiyasıdır. Toplumsal quramasına görə ulusalçılıq idealandan dönməyən, aşırı demokrat bir proqramı vardır. Baş bakan Nəsib bəy bu partiyanın qurucularından idi.

Bitərəf dəstə – Universitet bitirmiş bir kaç aydınla varlı sinfindən olanlardan oluşub, partiyaya girmədən, ayrıca dəstə kimi genəl politikada «Müsavat» Partiyası ilə birlikdə bulunurdular. Baş bakan, rəhmətlik Fətəli Xan [Xoyski] bu dəstədən idi.

«İttihad» Partiyası öncə «Rusiyada müsəlmanlıq» adı ilə qurulmuşdu. Rəsmi idealı İslam birliyi idi. Partiyanın başında Türkiyədə də tanınan Qara bəy [Qarabəyov] bulunurdu.

Sosialist bloku bir az sosial-demokrat (menşevik), bir

1 Ulus elçilərinin sayı 120 olmalı idisə də, gerçəkdə 85 elçisi var idi.

az da toplumçu sosialist elçilərdən qurulmuşdu. Birincilərin başçısı Səmədağa Ağamalı oğlu, öncülləri İbrahim bəy [Əbilov],[1] ikincilərinki – Aslan bəy Səfikürdski idi.

«Əhrar» [Özgürlük] Partiyasının idealı da Türk ulusalçılığı olub, proqramı «Müsavat»a yaxın idi. Başçıları Aslan bəy Qardaşov idi.

Bu sətirlərlə, burada göstərilən parlament (parlament üyələri) üzərinə bir az düşünülürsə, toplumsal düşüncə birliyindən başqa bir gücə dayanmayan Azərbaycan Ağalığının istər-istəməz çoxpartiyalı biçimdə yarana biləcəyi aydın olur.

İlk birlik bir çox çətinliklərdən sonra «İttihad» dışda qalmaqla bütün dəstələrin qatılması ilə yarandı. «İttihad»ın ilk birliyin dışında qalması bütün partiyalarca yararlı görülən Fətəli Xana qarşı bulunmasından irəli gəlirdi.

İlk kabinə partiyaların Ağalıq başçısına, proqramına güvənilə qurulmuş, Ağalığa alınan bakanların partiyasına, sayına önəm verilməmişdi.

Bir kaç ay sonra partiyaların bu yolla yetdikləri güvən itincə Fətəli Xanın kabinəsi buraxılıb, yerinə Nəsib bəy Yusifbəylinin kabinəsi quruldu (14 aprel 1919).

Fətəli Xanın ilk kabinəsi partiya prinsipləri dışında «İş adamları»ndan yaradılmışkən, Nəsib bəyin kabinəsi «İttihad» Partiyası yenə dışda qalmaqla partiyaların üyələrindən quruldu.

Bu kabinə də dəyişikliyə uğradığından Nəsib bəy dekabrın 24-də [22] ikinci kabinəni qurdu. Ona «İttihad» Partiyası ilə yanaşı Fətəli Xanın ilk kabinəsinin üyələri də girmişdi. Bu, Azərbaycan Ulusal Cümhuriyətinin son kabinəsi idi.

Bu kabinə dəyişmələrində bütün ağırlıq Parlamentin say, eləcə də görkəmli adamlar baxımından daha güclü bir ortaq-

1 Bunlar saldırıdan sonra dönüb bolşevik olmuşlar.

lıq partiyası olan «Müsavat» Partiyasının çiynində idi. Ancaq «Müsavat» ortaqlığı yalnız öz sayına dayanaraq təkpartiyalı bir Ağalıq yapmaq gücündə deyildi. Çoxpartiyalı bir kabinə qurunca da düşündüyü politikanı istədiyi kimi uyğulayammırdı. Üç yol dəyişən bu kabinələrdə müsavatçılar sayca üçdə bir olsalar belə, ağalıqlara «Müsavat Ağalığı», işlərinə «Müsavat uyğulaması» demək bir alışqanlıq idi.

Ulussevərliklə Azərbaycan adına nə yapılırsa onun adı «Müsavat işi» idi. Belə bir ün boşuna deyildi. Azərbaycan idealını «Müsavat» Partiyası yaratmışdı. Onun üçün də hər şey onun adına çıxılırdı. Parlamentdəki yüzdə ilə çoxluğu da buna bir nədən idi.

Ortaqlıq durumunda bulunan «Müsavat» Partiyası Cümhuriyətin yaranışında qorxunun geriçi Rusiyadan gələcəyini bildiyindən, ağalıq qurarkən solları oluşduran sosialist partiyalarına daha çox isinmiş, Denikin qorxusu ortaya çıxınca bu yanaşmasının necə düzgün olduğunu görmüşdür. Son çağlarda Rusiya qorxusu Denikin paltarından bolşevik donuna girincə, sosialistlər ortaqlığın umudlu dayağı olmaq özəlliyini itirirdi. Bu durumda ortaqlığın istər-istəməz sağa yönəlməsi qaçılmaz olurdu. Ortaqlığın bu yönəlməsi isə sonucda «İttihad»ın da kabinəyə girməsinə gətirmişdir. Ancaq bu yöndəki qurama umud gerçəkləşincə, başqa bir taqım şeylərin etkisilə umulanın dışında bir sonuca vardığından, Cümhuriyətin devrilməsinin önəmli nədənlərindən biri olmuşdur.

Parlament partiyalar arasında olan ayrılıqlara baxmayaraq ordu quruculuğu, quzey qorxusuna qarşı Gürcüstan Respublikası ilə bağlanan birgə ordu qorunması anlaşması, Denikinin tutduğu Dağıstan Respublikasının qurtuluş savaşına yardım, dış ölkələrdə bağımsızlığı tanıtmaq üçün yapılan diplomatik çalışmalar kimi işlərdə birlik göstərib, yalnız işçi

sorunu ilə bolşevik saldırısına qarşı gərəkən birliyi özündə bulamamışdı.

– Axı, neçin?...

***

Oxucu yuxarıdakı sualın cavabını aşağıdakı bölməni oxuyandan sonra öz-özünə alır. Biz isə indilik Parlament Ağalığının 17 ay [Məhəmməd Əmin bəy bağımsızlığı 23 yox, Azərbaycan Parlamentinin açıldığı gündən, dekabrın 7-dən – 17 ay sayır. Bizim düşüncəmizə görə gerçək bağımsızlıq daha az, İngilis Ordusu 1919-cu il avqustun ortalarında Bakıdan gedəndən sonra – 8 ay olmuşdur. Cümhuriyətin qurucuları – böyük bahadırlar bu az sürədə çox böyük işlər görmüşlər] içindəki işlərini, uğurlarını özətləyək:

BİRİNCİ: Yaya, atlı, topçu, uçaqçı, teleqrafçı kimi çeşidli yaraqdan 17 minlik[1] bir ordu sağlanmış, Ordu Okulu yaradılmış, kiçik bir donanma düzəldilmişdi.

İKİNCİ: Bütün Azərbaycanda ordu, mülki, eləcə də polis

1 Azərbaycan Ordusu iki Yaya Diviziya ilə bir Atlı Diviziyadan qurulmuşdu. Yaya Diviziya pulemyotları ilə birlikdə, 3 alaydan, eləcə də 2 Topçu Alayından oluşurdu. Atlı Diviziya isə pulemyotları ilə birlikdə 3 alaydan, bir də Atlı Topçu Alayından oluşurdu. Birinci Yaya Diviziyası 1-ci Cavanşir, 2-ci Zaqatala, 3-cü Gəncə alaylarından qurulub, 2-ci Yaya Diviziyası, 4-cü Quba, 5-ci Bakı, 6-cı Şamaxı alaylarından oluşurdu. Üçüncü diviziyanın başlanğıcı kimi 7-ci Lənkəran alayı yaradılmışdı. Alayda 2 min süngü olub, bir diviziya 6 min sayda idi. Atlı diviziya 1-ci Tatar, 2-ci Qarabağ, 3-cü Şəki alaylarından oluşurdu. Yaya, eləcə də Atlı divizi-yalardan başqa iki Obus [Özüyeriyən Artileriya Qurğusu – ÖAQ] bölüyü də vardı. Bunlara 6 zirehli avtomobillə bir kaç da zirehli qatar artırılırdı. Azərbaycan Ordusunda 600-dək subay vardı. Bunlardan yalnız 60-ı Baş Qərargah kadrlarından yetişmişdi. Bitikdə göstərildiyi kimi, subayın yalnız yüzdə əllisi Azərbaycanlı idi [Bu bilgilər düzgün olsa da, Azərbaycan Ordusunun gerçək savaş gücünü bütünlüklə göstərmir].

qurumları yaradılmış, ölkədə güvənlik, yasal düzən yaradılaraq Rus ayrılıqçılarının əlində bulunan Lənkəran sancağı ana yurda qaytarılmış, Türklərin Qafqazda bulunduqları sürədə belə yaraq buraxmayan Qarabağ Ermənilərilə anlaşmaya gələrək Azərbaycan Ağalığı onlara tanıtdırılmış, Bakıdan çox uzaqda bulunan Naxçıvanın Ermənistan Ağalığına qarşı dirənişi mənəvi, maddi, politik dəstəklənərək, oraya general-qubernator göndərməklə Azərbaycana bağlılığı yönətimcə də güvən altına alınmışdır.

ÜÇÜNCÜ: Maliyə, ekonomik yenidənqurmaya girişilmiş, 1918-ci il mart qırğınından sonra ağalıq edən Bolşeviklər dönəmində doğal durumundan çıxaraq dağılmış neft ocaqlarının yönətimi yoluna qoyulmuş, ortadan qaldırılmış dövlət bankı Azərbaycan Bankı adı ilə yenidən açılmış, köylərdə ürətimi artırmaq üçün ufaq kredit bankları açaraq, kəndlərdə də əmanət sandıqları yenidən açılmışdı.

DÖRDÜNCÜ: Azərbaycanlılardan kiçik yönəticilər yetişdirməkdən ötrü ayrıca quruluşlar, Türk yaşıllarının oxuması üçün teleqraf, sürücü, dəmir yolu okulları açılmış, əskidə heç yoxkən dəmir yolu qulluqçularının yüzdə əllisini türklərdən yapa biləcək biçimdə uğur göstərilmişdir.

Bilimə-bilgiyə gəlincə, okulları tezliklə Türk dilinə keçirmək üçün yaradılan yazma, çevirmə qurumlarının başarısı ilə ilk, eləcə də orta okullar üçün dərs bitikləri yazılaraq çap edilmiş, olan orta okullardan bir bölümü uluslaşdırılmış, ölkənin çeşidli yerlərində 7 erkək, bir qız pedoqoji kursu açılmış [Parlamentin 17 iyul 1919-cu il, 56 saylı toplantısında katib Əhməd Cövdət belə bir bəlgə oxuyur: «Ağalığın qərarına görə türkcə öyrətmənlər sağlamaq üçün on yerdə – Qubada, Qusarda, Gəncədə, Şuşada, Salyanda, Göyçayda, Qazaxda öyrətmənlər kursu açılacaqdır...Bakıda bir oğlan, bir qız

okulu vardır], Bakı Universiteti yaradılmış, çeşidli dallarda yüksək okul bitirmək üçün yüzə yaxın öyrənci Ağalıq adından ayrı-ayrı Avropa ortaqlıqlarına göndərilmiş, Türkiyədən əlliyə yaxın öyrətmən, qadın öyrətmən çağırılmış, köylərdə ilk okulun, elliklə bilikləndirmənin yayılması üçün keçici pedaqoji kurslar açılıb uluslaşdırılmış, indilik uluslaşdırılmamış orta okullarda Rus tarixi yerinə Ortaq Türk tarixi keçilərək, Türk dilinin bütün okullarda keçilməsi yasal güvənc altına alınmışdı.

Türk dilinin dövlətin rəsmi dili olması bildirilərək, Rus dilinin yalnız dəyişiklik çağında, keçici bir sürədə qullanılmasına yol verilmişdi.

Bölgələrdə ulusal ağalığı gücləndirməkdən ötrü bölgə qurumları yaratmaq üçün yasa tasarısı yazılıb Parlamentə göndərilmişdi. Bu yasaya görə bölgələrin yerli işlərini özlərinin görmək hüququ olub, bələdiyə güvənlikçilərini də özləri qoyurdular.

Eləcə də mülkiyət hüququnu saxlamaqla topraq sorununun köylünü toxtadacaq bir biçimdə çözəcəyi düşünülən yasa tasarısı da Parlament komisiyasının incələməsinə verilmişdi.[1]

Anarxiya illərində çox böyük dağıntılara uğrayan ulaşımla, araclar yoluna qoyulub, Gürcüstanla yapılan anlaşma ilə Bakı-Batum dəmir yolu düzənli işləyir, devrim çağında pozulan Bakı-Batum neft borusu əskisi kimi axır, Azərbaycan

1 «Müsavat» Partiyasının sunduğu bu proyekt ayrı-ayrı əllərdə olan böyük topraqları alandan sonra torpaqsız köylülərə ödəməsiz verməyi önərirdi. Ancaq köylüyə veriləcək, ya da mülkiyət hüququnu qorumaqla ona buraxılacaq topraq üzərində mülk yiyəsinin mülkiyət hüququ tanınırdı. Köylü toprağının üstündən istədiyi kimi yararlana bilərdi. Ancaq topraqda bulunan dəfinələr, kültür üzərində özəl mülkiyət hüququ tanınmayıb, dövlətə verilidi. Topraq altındakı yatırın işlədilməsilə bağlı işlər isə, sözü gedən proyektdə ayrıca yasa ilə düzənlənəcəkdi.

ekonomisinə böyük etkisi olacaq Culfa-Ələt dəmir yolunun tikintisi sürdürülərək, Kür çayı üzərində yapılan böyük körpünün rəsmi açılışı bəklənirdi[1] [Azərbaycan Parlamentinin 3 aprel 1919-cu il, 26 saylı toplantısında baxılaraq komisiyaya göndərilib. Mayın 8-dəki 35 saylı toplantıda çəkişməyə qoyulub. Çıxışçı Abuzər bəy Rzayev].

O çağda Azərbaycanı öyrənmək üçün gələn çeşidli Avropa, Amerika dəstələrinin Avropa qəzetlərində yazdıqlarına baxılırsa, Azərbaycan türklərinin az arada çox yaxşı yaşam görüntüsü, quruculuq işləri gördüklərinin yazıldığı görülür.

Politik hüququ, yurddaş hüququ olmayan, dövlət yönətimi işlərinə yaxın buraxılmayan, əzilən bir Doğu ulusunun ilk olanaqda bütün çətinliklərə baxmayaraq, belə qabaqcıl bir yönətim qurmaq bacarığını göstərdiyi yetənəyindən dolayı, Azərbaycan Cümhuriyəti Böyük Birlik Dövlətlərinin, eləcə də bütün dünyanın baxışlarını çəkib uluslararası bir yaşama girirdi.

Böyük Birlik Dövlətlərinin 1920-ci il yanvarın 12 [11]-də [Başqa yerlərdə də qarşılaşılan bu yanlışın nədən törədiyi Dış İşləri bakanı Fətəli Xan Xoyskinin Parlamentin 1920-ci il yanvarın 14-dəki 117-ci toplantısındakı çıxışından anlaşılır: «Sırağa gün Tiflisdən, bizim Gürcüstanda olan elçimizdən bir teleqraf gəldi. Anlamı belədir: «Bu gün İngilis görəvlisi gəlib bildirdi: Lord Kerzon Barış Konfransında elçilərə Azərbaycanla Gürcüstanın bağımsızlığının tanınmasını önərmişdir. Barış Konfransına qatılanlar bu önərini səs birliyilə almışlar». Bu, ayın 11-də olmuşdur. Ancaq soraq bizə sırağa gün gəlib yetişdi. Bu soraq bizdən ötrü böyük bayramdır! Bu, yalnız bizim üçün deyil, bütün müsəlmanlar, bütün Türk aləmi üçün böyük bir bayramdır. Belə bir günə çatmaq üçün

1 Bu yolun tikintisilə Bakı ən kəsə yolla, birbaşa Təbrizə bağlanırdı.

başqa uluslar on illərlə çalışmışlar. Biz isə onu az sürədə, bir il yarım içərisində qazandıq. Belə az sürədə bağımsızlığını alan bir ulusun onu bərk saxlayacağına inanıram. Bugunkü bayramla bağlı sizi Ağalıq adından qutlayıram. Özümü artıq düzəydə xoşbəxt sayıram: Bağımsızlığımızı bildirən çağda da Ağalığın başında mən idim, indi də tanınmasını sizə mən çatdırıram] keçirilən Yüksək Toplantısı Azərbaycan Cümhuriyətini de-fakto tanıdı.[1]

Azərbaycan Rusiya İmperatorluğunun dağıntıları üzərində yaranan respublikalar arasında Avropanın tanıdığı tək İslam varlığı idi. Bu yeni Türk dövləti eləcə də bütün İslam aləmində qurulmuş ilk Respublika idi.

Türk aləmində, Türk tarixində böyük bir «eyi olay» olan bu olaydan yalnız gerçək bağlı olan Azərbaycan sevinmirdi. Sevr Anlaşmasının ölümcül yumruğu altında yaralarının acısı ilə sızlayan İstanbul türklüyü də bu olayı mənimsəyərək sevinirdi. «Türk Ocağı»nın universitet salonunda bununla bağlı yapdığı törən qardaşlıq adına ən duyğusal görüntülərə nədən olurdu.[2]

Bu olaydan daha öncə, Mudros Anlaşmasına görə Qafqaza gələn İngilis Ordusu 1919-cu ilin avqustunda [Birlik Dövlətləri Ordusunun Bakıdakı qoşunlarının komandanı general-mayor D. Şatelvorq avqustun 23-də qoşunların getməsilə bağlı «Bildirişi»ndə deyirdi: «Bakıdan gedən Britaniya qoşunları adından Azərbaycanda, özəlliklə də Bakıda yaşayanlarla sağollaşmaq olanağından yararlanaraq çoxlu dostlarımız, tanışlarımızla sağollaşır, onlara gələcəkdə, ürəkdən

1 Bolşevik saldırısı olmasaydı, Spada keçirilən konfransda (22 yanvar 1921) [05-16 iyul 1920, Belçikanın Spa kəndi] Gürcüstan Respublikası ilə birgə Azərbaycan Cümhuriyəti də de-fakto tanınacaqdı. Bu olay saldırıdan bir kaç ay sonra olurdu.

2 Acınacaqlıdır: o çağda İstanbul elçisi bulunan kimsə [İbrahim Əbilov] qorxaraq bu sevincdən uzaq qalmışdır.

barış, uğurlar diləyirəm. Britaniya Ordusunun bütün üyələri özlərilə Azərbaycanda keçirdikləri günlərdən ən yaxşı anılar aparırlar. Bizim burada olmağımız Azərbaycan yaşayanının yardımı ilə çox yüngülləşmişdir». Rusca «Azərbaycan» qəzeti. 24. 08. 1919, № 179] Azərbaycandan çıxarılmışdı. Bu olayla bağlı Baş bakan Nəsib bəy Parlamentə «Bəylər, bu gündən bütünlüklə bağımsız bir Ağalıq olmağımızdan dolayı sizi qutlayıram!» – demişdi [Azərbaycan Cümhuriyəti Parlamentinin Türk dilindəki stenoqramlarında yoxdur. Parlamentinin Rus dilində olan stenoqrafik özətindən 25 avqust 1919-cu il, 68 saylı toplantısında «Hə, dörd gündür biz yeni politik yaşam ortamına girmişik. Dörd gündür İngilislər Azərbaycan topraqlarından çıxıblar. Biz, dörd gündür sözün bütün anlamı ilə bağımsız yaşayırıq. Bu dörd gündə biz bağımsız yaşamaq bacarığımızı, hüququmuzu göstərdik!].

Bu yolla qurulan Azərbaycan Cümhuriyəti uluslararası bir yaşama, ilişkilərə başlamışdı. Bütün qonşuları ilə yaxşı ilişkilər qurmaq istəyinin son düzəyi idi.

Xristian qoşunlarından Gürcü Respublikası ilə olan ilişkiləri çox arxadaşca idi. Bu iki respublika arada olan qovğalı sorunları Arbitraj yolu ilə çözməyə birlikdə hə, demiş, Rusiya saldırısını bir duyduqlarından «Quzey»dən birlikdə ordu ilə qorunmaq üçün belə anlaşmışdılar. 7-8 [12] maddəlik bu Anlaşma 1920-ci ilin başlarında qollanmış [16 iyun 1919], doğrulanması Azərbaycan, Gürcüstan parlamentlərində arxadaşca bir görünüşə nədən olmuşdur [Azərbaycan Parlamentində 1919-cu il iyunun 27-də doğrulanıb].

Erməni Ağalığının da bu Anlaşmaya qoşulması önərilsə də, sözü gedən Ağalıq bu önərini alqılamamışdır. Ancaq Azərbaycan Parlamenti Erməni politiklərinin bütün qarşıçıxmalarına baxmayaraq, Ermənistanla olan sorunların da

barışla aradan qaldırılmasını istəyirdi. Bu istəklə o, 1919-cu il aprelin 25-də [Birinci konfrans 1919-cu il 9 may-1 iyunda olub. Azərbaycan Respublikasının Dış İşləri bakanı Fətəli Xan Xoyskinin 1920-ci il martın 30-da yazdığı məktubda Azərbaycan Ağalığının Konfransın aprelin 5-də Tiflisdə keçirilməsi söylənən önərini dəstəklədiyini yazır. «Qolos Rosii» qəzeti Konfransın 9-12 aprel toplantılarından bilgilər verib. «İskra» qəzeti aprelin 22-də Konfransın 10 aprel tarixli toplantısının 2 №-li protokolunu çap edib] Tiflisdə keçirilən Güney Qafqaz Konfransına qatıldığı kimi, 1920-ci ildə [14-21 dekabr 1919] də Bakıda Azərbaycan-Ermənistan Konfransını çağırdı. Azərbaycan Ağalığı bu konfransda Güney Qafqaz respublikalarını dışdan qorumaq üçün Güney Qafqaz Konfederasiyası yaratmağı önərirdi.

Azərbaycanın başkəndində başqa önəmli bir konfrans da keçirilmişdi. Bu da Azərbaycan-İran konfransıdır. Ksonfransda İranla Azərbaycan Cümhuriyətinin bütün politik, ekonomik, alver sorunları düzənlənmişdi. Bu konfransda qollanan Anlaşmaya görə İran Ağalığı Azərbaycan Cümhuriyətinin bağımsızlığını de-fakto tanıyır, Azərbaycan Cümhuriyəti də İrana Avropa ilə ilişkilərdə bulunmaq üçün yol verirdi. Bununla iki dindaş ulus arasında çox ürəkdən ilişkilər yaranırdı.

Tehranda Azərbaycan elçisi bulunduğu kimi, Bakıda da İran elçisi bulunurdu. Bu Anlaşma Parlamentin 1920-ci il mart toplantılarından birində törənlə doğrulanınca [Azərbaycan Parlamentinin 1920-ci il aprelin 15-dəki 141-ci toplantısında doğrulanıb], iki arxadaş ulus arasındakı yaxınlığı, birdüşüncəliyi bir qat da gücləndirmişdir.

Parlamentin böyük dəyər verdiyi sorunlardan biri də Quzey Qafqaz Respublikası idi. Bu Respublika «Terski oblast»la Dağıstan topraqlarında yerləşirdi. Dağıstan çarizm dönə-

mində yönətimcə Güney Qafqaza bağlı ikən Rusiya devrimi illərində Parlament seçkisi Düzüyünə görə, dağlılardan bir bölümünün istəyilə Quzey Qafqazla bir məntəqəyə ayrıldı. Bu andan irəlidə gedən olaylar Dağıstanın gələcəyini Güney Qafqazdan ayırdı. Qafqaz bölgələri ayrı-ayrı politik qurumlara bölününcə, Dağıstanla «Terski oblast» Quzey Qafqaz adı ilə bir Respublika yaratdı.

Çeşidli ellər yaşayan bu bölgədə Ağalıq qurmaqda çətinliklərlə üzləşilirdi. Bu Respublikanın yaradılması Azərbaycanın yaşam çıxarlarındandı. Azərbaycan özəlliklə Dərbənd kimi tarixi bir limanı olan Dağıstanı Rus əlindən qurtarmazsa, özünü güvənli sayammazdı! Ancaq özü də qurulmaqda olan Azərbaycan, Dağıstana yalnız maddi yardımda buluna bilirdi.

Parlament Quzey Qafqaz Ağalığna 50. 000. 000 rubl[1] [30.000.000. Parlamentin 17.04.1919-cu il 30-saylı toplantısında verilib] yüzdəsiz borc verdi. Bu pulu ayırarkən Parlament partiyaları buna bir borc kimi yox, iki qardaş ulusun ortaq çıxarları üçün işlədiləcək gərəkli bir ayırmatək baxırdı [Azərbaycan Cümhuriyəti Ağalığı 28.11. 1918-ci ildə də Dağlılar Respublikasına yüzdəsiz 10 milyon rubl da vermişdir. Azərbaycan Cümhuriyətinin geopolitik düşüncəli quruculara Qafqaz dağlıları ilə etnik, dil, kültür, din, tarix qohumluğundan başqa Dağlılar Respublikasına Rusiya İmperiyasını dirçəltmək istəyənlərdən qorunmaq üçün geopolitik bir nədəntək baxır, onun yaşaması üçün bacardıqları bütün politik, ekonomik yardımları edirdilər. Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Cümhuriyəti Parlamentinin 1919-cu il mayın

1 Azərbaycan pulu ilə verilən bu borcun dəyərini aydın bilmək üçün söyləməliyik: o çağda bir İngilis funtu – 20 rubla uyğundu. Buna görə verilən borc 1,5 milyon funt edir. 1919-cu ilin Azərbaycan büdcəsinin çıxarının 415 milyon rubl olduğunu gözə alırsaq, Dağıstan Ağalığına verilən borcun dövlət büdcəsinin 1/15-i olduğunu görürük [Saylar 30.000.000-a uyğun dəyişdirilib].

26-da keçirilmiş 41-ci toplantısında Rus-erməni-sovet-mason bolşefaşistlərilə qovuşmağı amaclayan Sosialistlər Fraksiyasının sözçüsü İbrahim Əbilova cavab verərkən demişdir: «Deyirlər, Dağıstana gərəyincə yardım etmədik. Bu doğru deyildir! Azərbaycan Parlamenti, Ağalığı bacardıqca yardım etdi. Bu gün Dağıstanda istənməyən olaylar ortaya çıxırsa, o da Azərbaycandan çox özünün toplumsal-politik durumundandır. Onlar elə olmasaydı, bizim də bu boyda etdiyimiz yardımla bu sonucu görməzdik. Ancaq bunu Dağıstanın adamlarında görmək olmaz. Ağalıq özünü buraxıb, ağalığı Hacı Murad adında birinə vermişsə də, biz düşünürük, bu Hacı Murad, Şamil çağındakı Hacı Murad olmaz!...Bax, bu soruna belə baxaraq, Ağalığın buçağadək gördüyü işləri gözə almaqla yanaşı, ondan bağımsızlığımızı göz bəbəyi kimi qoruyub-saxlamağı istəməliyik!».

Azərbaycan Cümhuriyətinin Dağlılar Respublikasındakı elçisi Əbdürrəhim bəy Haqverdiyev 1919-cu il aprelin 15-də Teymur Xan Şuradan Dış İşləri bakanı Məhəmməd Yusif Cəfərova göndərdiyi Bildirişdə Dağıstandakı politik-ekonomik, savaş durumunu incələyərək yazırdı: «Dağıstanın Azərbaycanla birləşməsindən çox danışılır. Mən, bir çox topluluq başçısının istəyilə sizə şifrli teleqram göndərib, gərəkən onayınızı bildirməyinizi istəmişdim. Ortam sağlanıb. On bölgədən dördü bütünlüklə birləşmək istəyir, qalanları isə içlərində bunu düşünürlər. Bu yöndə ancaq yerli adamlar çalışır. Bu günlərdə keçmiş Savunma bakanının yardımçısı [Mayın 13-dən başbakan, dış işləri, iç işləri bakanı] general Mikayıl Xəlilov bu işlə bağlı Bakıya gələcək. Bu sorunla bağlı tələsməyinizi diləyirəm. Raulensonun rəsmi olmayan bildirişi doğru olmazsa, Könüllü Ordu güneyə doğru yürüyərsə, Dağıstan qorunmasız qalar. Dağıstanın yaxşı qorunmasından Azərbaycanın da gələcəyi asılı olduğundan, mənə Teymur Xan Şuraya bir Azərbaycan polkunu göndərmək üçün Ağalıqla danışmağa onay verin. Qoşun sevinclə qarşılanacaq, sonrakı olaylar da öz yolu ilə gedəcək».

Əbdürrəhim bəy Haqverdiyev 1919-cu il aprelin 28-də, Teymur Xan Şuradan, teleqrafla Dış İşləri bakanı Məhəmməd Yusif Cəfərova bildirirdi: «Dağıstan Subayları Birliyi Parlamentdə Dağıstanın Azərbaycana birləşməsi sorununu qaldırmışdır. Sorun bu gün Subaylar Birliyi, Parlament üyələri, aydınların birləşmiş toplantısında danışılmışdır, yarın sürdürüləcəkdir. Hə, cavabı çıxarsa, necə davranmağım üçün yubatmadan soraq verməninizi diləyirəm».

Əbdürrəhim bəy 1919-cu il iyunun 7-də, Teymur Xan Şuradan, Dəmir Qapı Dərbəndi bircə rota ilə tutmuş «Bütöv, bölünməz Rusiya» tutqunu Denikinin Ordusunun sayını, gücünü bildirdiyi teleqramında yazırdı: «Mən, getdikcə işbilən agentlərlə bilgilər toplayıb, aşağıdakıları bəlirlədim: Polk sayı 500-dən çox olmayan iki bölükdən, 100 kazakdan, 200-250 adamlıq Eyitim rotasından oluşur. Dərbənddə mindən bir az çox adam vardır. Rostovla birbaşa dəmir yolu işlədiyindən yeni könüllü güclər gələ bilər. Buna görə də yubadılmadan Könüllülərin Dağlılar Respublikasının toprağından çıxarılması üçün gərəkən işlər görülməlidir! Mən düşünürəm, Kürin, Qaytaq, Tabasaran, Samur bölgələrində yaşayanların Azərbaycana birləşmək istəyini gözə alıb, İngilis komandanlığına Xəzər qıyılarını bolşeviklərdən qorumağa söz verərək, bu bölgələrlə Petrovskini [Mahaçqala] tutmalıyıq.

Petrovskinin tutulması ilə Dağıstan, Çeçenistan, İnquşetiya Azərbaycan Ağalığını tanıyarlar. Onlar buna sağlanmışlar. Bundan sonra ola bilər, Azərbaycanın qorumasında Dağlılar Respublikası yenidən yaradıla bilər. Bizim qurtuluşumuz bundadır!».

Ancaq Azərbaycan Cümhuriyətinin Ağalığı İngilis ko-

mandanlığının onayı olmadan bir addım da atammazdı! İngilislərsə bayraqlarını gündə bir yana yönəldirdilər. İngilislər, bir yandan Denikinə yaraq verib, sözdə bölşevizmə qarşı ürəkləndirir, bir yandan Azərbaycan Cümhuriyətinə bir-iki qırıq qayıq verir, o biri yandan da bolşevizmin dirçəlməsini gözləyib, onun Rusiya İmperiyasının 1914-cü il sınırlarını tutmasını sağlayırdı.

Azərbaycan Cümhuriyətinin Dış İşləri bakanı Məhəmməd Yusif Cəfərov 1919-cu il sentyabrın 30-da Britaniyanın Güney Qafqazdakı Yüksək Komisarı, general-mayor O.Uodropa Denikin Ordusu çəkiləndən sonra Dağıstanda ola biləcək politik quruluşları önərirdi: «1. Dağıstan bölgəsinin keçici olaraq Azərbaycan Respublikası Ağalığına verib, bu Ağalığın general Denikin Ordusunun arxasında yerləşərək, bolşeviklərin Dağıstana soxulmasının qarşısını almağı bütünlüklə boynuna götürməsi yolu ilə 2. Dağıstana Birlik Dövlətlərinin gözləmçiliyində öz Ağalığını yaratmaq olanağının verilməsi yolu ilə. 3. Dağıstanda Britaniya, ya da Amerika general-qubernatorunun yönətimində özəl general-qubernatorluq yaradılması yolu ilə».

ABŞ prezidenti T.V. Vilsonun 14 düzüklük Bildirişini bayraq edib, geopolitik çıxarlarından başqa önəmli bir şeyi qorumayıb, Rus-erməni-sovet-mason bolşefaşizmini yetişdirən Böyük Dövlətlər Birliyi dönük çıxıb Qafqaz respublikalarını bolşefaşistlərə satdılar. Azərbaycan Cümhuriyətinin Paris Barış Konfransındakı elçisi Əlimərdan bəy Topçubaşı 1919-cu il mayın 28-də T.V.Vilsonla görüşəndən sonra Baş bakan Nəsib bəy Yusifbəyliyə Bildirişində deyirdi: «1. Onlar dünyanı kiçik parçalara bölmək istəmirlər. 2. Bizim üçün Qafqaz Konfederasiyası ideyasına qovuşmaq yaxşı olardı. 3. Bu konfederasiya Uluslararası Liqanın önərisilə Böyük Dövlətlərdən birinin qorumasında ola bilər. 4. Bizim sorunumuz Rus sorunundan tez çözüləmməz!».

Azərbaycan, eləcə də Dağlılar Respublikası ilə Gürcüstan respublikalarını Rus-erməni-sovet-mason bolşevizminə qapdıran Böyük Dövlətlər Birliyidir. Elçi Əbdürrəhim bəy Haqverdiyevin Dış İşləri bakanı Məhəmməd Yusif Cəfərova «Bildiriş»ində deyildiyi kimi, gerçəkdə önəmli bir gücü olmayan, bir çağlar Dəmir Qapı Dərbəndi tək bir rota ilə tutmuş, Azərbaycan Ordusunun bir polkunun da darmadağın edə biləcəyi Denikin Ordusunu Dağlılar Respublikasını ortadan qaldırmağa qoydular, 1920-ci il yanvarın 11-də Azərbaycan Respublikası ilə Gürcüstan respublikasını de-fakto tanısalar da, yanvarın 19-da keçirilmiş toplantıda ordu yardımı istəyən Azərbaycan, Gürcüstan respublikalarına ancaq yaraqla yardım edə biləcəklərini deyib, gerçəkdə yaraq yardımı etmədilər. Birlik Dövlətlərinin 19 yanvar 1920-ci il Qərarı belə idi: «1. Ermənistanla Dağıstan de-fakto tanınmalıdır. Qərar Türkiyə ilə bağlı aparılacaq danışıqlarda Ermənistanın sınırları sorununa toxunmur. 2. Birlik Dövlətlərinin Güney Qafqaz respublikalarına ordu göndərmək gücü yoxdur. 3. Birlik Dövlətləri Güney Qafqaz respublikalarına yaraq, yemək-içmək şeyləri göndərməklə yardım edəcəklər. 4. Marşal Foşla admiral Vilsondan Güney Qafqaz respublikalarına göndəriləcək yarağın nə olacağı, hansı yolla çatdırılacağı işlərinə baxmaq istənsin».

Bu qərarın az bilinən geopolitik yönlərindən bir sıra bilgini də çatdıraq. Britaniya Ordu izləmçisinin 1918-ci il oktyabrın 25-də Ordu Bakanlığına göndərdiyi «Bildiriş»ində deyilirdi: «İki Azərbaycanın birləşməsini Təbrizdəki İran şahı irəli sürdü». Başqa «Bildiriş»də isə: «Bizdə olan bilgiyə görə (Cənab R.Koks № 871-dən 10.10) Türklər İranın şah oğluna (Keçmiş Güney Azərbaycanın general-qubernatoruna) Azərbaycanın bağımsız olması, Türkiyənin də həmişə bu ölkəni qoruyacağı sözünü vermişlər!». «Eləcə də onlar Tehranda

belə bir sorun qaldırmışlar: Azərbaycanı şah oğlu özü Türklərə önərmişdir (Cənab Koks № 880-dən 13.10)».

Rusiya İmperiyasının izləmə bəlgələrindən bu adamın Qacarların şahı yox, şah oğlu Eynəddövlə [Dövlətin gözü] olduğu anlaşılır. Rus izləmçiləri, dövlət yetkililəri «saya türksevər» adlandırdıqları şah oğluna basqılar yapıb, onu istəyindən çəkindirir, Təbrizə bölgə başçısı qoydurmağa çalışırlar – deyir.

İngilis izləmçilərinin bəlgəsi: «Eləcə də söz gəzir, Türkiyə Azərbaycanla Dağıstanı birləşdirərək bir dövlət yaratmaq istəyir. Birinci bilgi bütün anlamı ilə Türklərin uydurması idi. Bununla onlar şah oğluna Quzey Azərbaycanın bağımsızlığını tanıtdırmaq istəyirdilər. Ancaq bundan sonra Türklər Quzey Azərbaycanı Dağıstanla birləşdirər, bütün bölgəni gerçək Türk gözləmi altına ala bilmək üçün Güney Azərbaycanı da saxtalaşdırılmış elliklə səsvermə yolu ilə onlara birləşdirə bilərlər. Biz bu tələyə düşməməliyik!».

İngilislərə görə: «Türkiyənin İran Azərbaycanını Azərbaycanlıların dövlətinin içinə qatmaq istəyi vardır. Türklərin, Azərbaycanlıların topraqla birləşməyinin önəmi ondadır: Güney Qafqazla Azərbaycan Azərbaycanlıları birbaşa Türkiyə ilə ilişkidə olarsa, bu onların bütün Quzey İranı, Əfqanıstanı, Türküstanı etkiləməsinə gətirib çıxarar...Sorunun başqa çözümü Qafqazarxası Azərbaycanın Rus Ağalığı altına salınmasıdır. Belə qərarı Almaniya önərmişdir».

Böyük Dövlətlərin Azərbaycanı Türkiyədən ayırmaq mason politikası Rusiya İmperiyasının yeni biçimi Sovet Sosialist Respublikaları Birliyi dönəmində bütünlüklə uyğulandı. Məhəmməd Əmin bəy də «Azərbaycan Cümhuriyəti» bitiyində bu politikanı anladır.

Mustafa Kamal Atatürk 1923-cü il oktyabrın 29-da Böyük Birlik Dövlətlərinin dağıtdığı Osmanlı İmperatorluğunun bir parçasında Məhəmməd Əmin bəyin dediyi kimi, «Ağılları şa-

şırdan tarixi bahadırlıq»la Türkiyə Cümhuriyətini qurduqda İngilislər 1925-ci ildə İranda Türklərin min illik Ağalığını devirib, Fars Rza xanı ağalığa gətirdilər. Çağdaş Türk aydınları bu geopolitik oyunları yaxşı anlamalıdırlar.

«Dünya sosializm devrimi» çağırışı ilə bütün insanlığı titrədib qorxudan, gözləri qamaşdırıb ağılları çaşdıran, insanlığa qarşı yönəltdikləri politikaları ilə yüz milyonlarla insanı öldürmüş Rus-erməni-sovet-mason bolşefaşistləri İngilis-Fransız-Amerika-İtaliya Böyük Dördlüyün bu politikasından yararlanaraq, öncə Dağlılar, sonra Azərbaycan, daha sonra Gürcüstan demokratik respublikalarına son qoydular].

Azərbaycan bu sorunda yalnız nağd pul verməklə qalmamışdır, Nuri Paşanın Dağıstanda Denikinlə savaşan qurumuna[1] hər cür yardımda bulunmuşdur.

1 O arada Azərbaycan Ağalığının istəyilə, Dağıstanı Denikin saldırısına qarşı savaşında dəstəkləmək üçün, sığınmaçıtək Azərbaycanda bulunan Nuru Paşanın komandanlığında özəl qurum yaradılmışdı [Əlimizdə «göydən enmiş qurtarıcı mələk» - Nuru Paşanın Azərbaycan Cümhuriyətilə Qafqaz Dağlıları Respublkasını qurtarandan sonra onları yağılardan qorumaq üçün daha nələr etdiyini göstərən bəlgə yoxdur. Ancaq Rusları Vladiqafqazdan o yana atmağı amaclayanlardan biri olan bu bahadırın da dolaşıq politik ortam üzündən Rus-erməni-sovet-mason bolşefaşizminin «Anadoluya yardıma qoşmaq» aldatmacasına inandığını, sındığını, heç olmasa «Ana yurd» Türkiyəni qoruyub saxlamaq üçün bolşefaşistlərlə əlbir çalışmağa başladığını deyir. Azərbaycan Cümhuriyətinin Gürcüstan Respublikasındakı elçisinin yardımçısı Faris bəy Vəkilovun 1920-ci il yanvarın 4-də Tiflisdən Dış İşləri bakanına göndərdiyi gizli teleqramda deyilir: «Dünən Gegeçkori mənlə danışanda Dağlıların bu günlərdə bağımsız Sovet Dağlılar Respublikası yaradacaqlarından quşqulandığını dedi. O, Nuru Paşanın bolşeviklərlə əlbir işlədiyini vurğuladı. Gegeçkoriyə görə Azərbaycanla Gürcüstana böyük qorxu yaranır. Buna görə də birlikdə kəsin işlər görülməlidir. Onun düşüncəsincə buradan göndərilmiş, Bakıda saxlanan Gürcü Ordu bölüklərini bizim könüllülərlə gücləndirərək, tezliklə buraxmaq gərəkdir. Bundan başqa Gegeçkori özümüzlə yanaşı Dağlıları da bolşeviklərdən qorumaq üçün Quzey Qafqazda birlikdə savaşa sağlanmağımızı düşünür. Bu yolla Gürcülər Vladiqafqazı, biz də Dağıstanı tutarıq. Gegeçkori bunlardan ötrü dış ölkə yetkililərilə danışaraq dayaq sağlayacaqdır. O bizim Ağalığın bu işlərlə, daha çox da ikinci,

Dağıstan Ağalığının Denikin intriqaları, saldırısı ilə dağılması dağıstanlılartək Azərbaycanı da etkiləmişdir. Dağıs-

Türk-bolşevik planı ilə bağlı baxışlarını bildirməyi çox istədi» ARPİQPBA, f. 277, s.2. Bu fonddakı başqa bəlgədə Dağlılar Respublikasının Azərbaycandakı elçisi 1920-ci il martın 15-də Dış İşləri bakanına yazır: «Mən, demək olar iki həftə qabaq, Nuru Paşanın Dağıstan Ordusu ilə Yüksək Ulusal Ağalıq-Dağıstan Savunma Şurası arasında Məclis köyü yaxınlığında, Yüksək Şuranın iki əskərinin ölümü ilə qurtaran olaydan soraq alan kimi Baş bakan Nəsib bəy Yusifbəylilə görüşüb, Dağıstanda törədilənlərlə bağlı baxışlarımı bildirdim. Mən onda Baş bakana Nuru Paşanın Ulusal Şuranın iki əskərin ölümü ilə sonuclanan olayın cəbhədə dış yağı ilə savaşan Dağıstan ulusunda yurddaş savaşı törədə biləcəyini, Nuru Paşanın bu işinə bolşevizmə qarşı olsa belə başlamasına protestimi bildirib, ondan Nuru Paşanı geri çağırmağı, ona daha pul verməməyi diləyib, bununla bağlı Dış İşləri Bakanlığı yolu ilə yazılı üz tutacağımı dedim. Ağalığın başçısı Nuru Paşanı geri çağırmaq üçün məktub yazmamağı diləyib, onu Dağıstana Azərbaycan Ağalığının göndərmədiyini, buna baxmayaraq, Ağalığın başçısı yurddaş savaşına qarşı olduğunu bildirib, onun Dağıstan üçün ölüm ola biləcəyini deyərək, elə o gün də Nuru Paşaya savaş törətməməsini, durmadan Bakıya dönməsi üçün yazacağına söz verdi. Bilmirəm sayğılı Baş bakan Nuru Paşanın Bakıya dönməsi üçün məktub yazıb, ya yox, ancaq Nuru Paşa indiyədək Dağıstandadır, onsuz da savaşdan, epidemiyadan qırılan ulusun ölümünü sağlayır. Dünən Türk komandanlığının Dağıstada törətdiyi çevrilişdən üzücü soraqlar alındı. Aldığımız, ancaq düzgünlüyü doğrulanmamış bilgilərə görə Levaşdakı Savunma Şurası qovulmuş, Şura üyəsi Kazbekovla bir neçə başqası öldürülmüş, üyələrinin bir çoxu tutulmuşdur. Qasımkənddə də bölgə Savunma Şurası üyələrinin tutulduğunu deyən soraqlar vardır. Dağıstan ulusu ölümün qıragındadır: – cəbhədə Könüllü Ordu ilə savaş, arxada yurddaş savaşı ilə Türk diktaturası, bir yandan da Dağlıların sınırlarına yaxınlaşan Sovet Ordusu. Bu çağa kimi Dağıstan aydınlarında ayrı baxışlı olsalar da, koalisyon ulusal qurum yaratmaqla Sovet Rusiyası ilə Dağlıların bağımsızlığını danışıqlar yolu ilə saxlamaq, Dağlı uluslarını yeni qırğınlardan, itkilərdən qorumaq gumanı vardısa, ancaq indi Türk çevrilişindən sonra bu guman qırılır. Axı, Nuru Paşanın başçılığındakı Türk diktaturası Sovet Ordusu üçün nişan yeri, onların Dağıstana girmələri, Dağıstan əməkçilərini Türk saldırısından qurtarmaq üçün tutalqadır! Sayğılı bakan, mənim sizə fevralın 22-də yazdığın 255 №-li Diləkçəyə dayanaraq, yüxarıda bildirdiklərimi gözə almaqla, Ağalıq qarşısında Nuru Paşanı, eləcə də iç savaşın bütün suçlularını yubadılmadan Dağıstandan çağırılması sorununu qaldırmağı, Nuru Paşaya, eləcə də başqalarına pul verilməsini kəsməyi diləyirəm»].

tanın Denikinin saldırısına uğraması Parlamentdə, elliyin düşüncəsində görünməmiş bir qorxu doğurmuş, qardaş Dağlıların qurtuluşu üçün çağın, ortamın yol verdiyi işlər görülmüşdür.

Çağın böyük bunalımları içində çırpınan Acar, Qars, Araz boyundakı müsəlmanlar da Azərbaycan Cümhuriyətinə, onun maddi-mənəvi yardımlarına umud edirdilər.

Cümhuriyətə Xəzər dənizinin qarşı üzündə bulunan Türküstanlılardan da elçilər gəlib yardım diləyində bulunurdular.

Olmayan çətinliklər içində bulunan Cümhuriyət bütün bu istəkləri gözə alaraq, politik durumun, gerçək ortamın qoyduğu bütün yardımları edirdi. Türküstanla politik iliş-kiyə girişmək üçün oraya konsul adı ilə özəl bir görəvli də göndərilmişdi [Azərbaycan Cümhuriyəti Dış İşləri bakanının 15 aprel 1919-cu il, 2 nömrəli qərarı ilə Əkbər Ağa Sadıxov 1919-cu il aprelin 2-dən Azərbaycanın Xəzərarxası Respublikada konsulu görəvinə qoyulmuşdur. «Zarya»-«Dan yeri» qəzeti 5 iyun 1919-cu il, 70-ci sayında Azərbaycanın Xəzərarxası Respublikada konsulu Əkbər Ağa Sadıxovun katib Rudinski, yazışmaçı Qaibovla birlikdə iyunun 5-də Aşqabada gedəcəyini bildirib. Azərbaycan Respublikası Dış İşləri bakanlığının 6 noyabr 1919-cu il tarixli 69 №-li Buyuruğu ilə Dağlılar Respublikasındakı Elçilik 1919-cu il oktyabrın 1-dən, Xəzərarxası Respublikadakı Konsulluq isə 1919-cu il noyabrın 1-dən bağlanıb].

Azərbaycan Cümhuriyəti öz politik varlığını qorumağa çalışdığı sürədə, elliklə Türk, müsəlman toplumsal düşüncəsinin gözündə olması ilə mənən güclü olduğunu kəsinliklə unutmurdu. Bu sayğıya dəyər bir qurum ola bilməsi üçün nə ola bilərdi onu etmək istəyir, edirdi.

Bağımsız Azərbaycan dövlətinin politik quruluşu de-

mokratiya idi. Parlamentarizmə, sorumlu ağalıq qurluşuna bütünlüklə uyulurdu.

Söz, basın, toplaşmaq özgürlüyü də başdan ayağa yaradılmışdı. Bir sıra ələşdiricilər bu yöndə, bəlkə, aşırı liberalizm göstərildiyini də yazırlar.

Bir qurulma, yaranma dönəmində bulunan bu yeni politikanın sözsüz, ələşdiriləcək çatışmazlıqları da az deyildi. Bunların ən böyüyü bu kimi çağlarda güclü bir yönətimin, güclü bir ağalığın qurulamadığıdır. Qarşı baxışların birliyi üçün uyğulanan inandırma yolu ilə yanaşı bir az da güc yoluna gedilsəydi, bəlkə də, olayların sonucu başqa dürlü olurdu. [Çağının qoşucularından birinin «Ey Türk oğlu səni tanrın Doğuya düzyolgöstərən göndərdi» dediyi Məhəmməd Əmin bəy Cümhuriyətin dağıdılmasından çox üzüldüyündən bəlkə... demişdir. Azərbaycan Cümhuriyəti bütün çətinliklərə baxmayaraq gün-gündən gəlişir, güclənir, demokratikləşirdi. Azərbaycan Cümhuriyəti Böyük Birlik Dövlətlərinin dönüklüyü üzündən dağıdılmışdır. Bir çağlar Rus Ordusunun qabağına düşmüş keşiş babası İsrail Ori kimi Rus-erməni-sovet-mason bolşefaşistləri ordusunun qabağına düşüb gələnlərdən biri, Türk yağısı Anastas Mikoyan 1920-ci il avqustun 31-də «Baksovet»in bütün rayonlarla birgə toplantısında demişdir: «Bizim Azərbaycandakı yenməmiz təkcə bizim çalışmağımız, Bakı işçilərinin çalışması ilə olmamışdır. O, Sovet Rusiyasının XI işçi-köylü ordusunun əlilə olmuşdur!». Bəlgə ARPİQPBA, f. 276, yazı 3]. Bunu da unutmayaq: Azərbaycan Cümhuriyətinin dağılması içdəki ayaqlanmalardan çox dışdan gələn saldırqan bir gücdən olmuşdur. Amacımız geniş bir incələmə olmadığından bitiyimizin ölçüsünəsığar bir özətlə yetinirik.

VII

ÖNƏMLİ OLAYLAR QARŞISINDA

Azərbaycan uluslararası ilişkilərə yenicə girmiş, motoru yeni qurulmuş bir Ağalıq durumunda ikən çox qorxulu bir dönəm keçirirdi. Başı üzərində azalmayan bir qorxutək duran Denikin gücləri vardı. Əski Rusiyanı göstərən bu qara güc Azərbaycan Cümhuriyətini bir neçə yol qorxutmuşdu.

Bir ara Qızıl Moskvanı belə qorxudan bu güc bir yürüşdə Bakıya enmir, ya da Kaspi [Xəzər] dənizindəki donanması ilə Azərbaycan paytaxtını bombardıman etmirdisə, ancaq Birlik Dövlətlərilə bağlı olduğu üçün buna ürək edəmmirdi!

Birlik Dövlətlərindən önəmli yardımlar alan bu güclə Güney Qafqaz respublikaları arasında savaşa yer verməmək üçün Qara dənizdən Kaspi qıyısına kimi «demarkasiya cizgisi» çəkilmiş, Denikin Ordusunun bu cizginin güneyinə enməməsi politik yolla bəlirlənmişdi.

Martın sonlarına doğru Denikin Ordusu böyük bir hızla dağılırdı. O arada Dağıstanı tutmaqla Azərbaycannda qayğılar doğuran bu güc (Quzey Qafqazla Dağıstanda) yerini Qızıl Orduya verirdi.

Denikini sıxışdıran Bolşevik Ordusu bütün ulusların hüququnu, ulusal ağalığını sözdə bildirib tanıyırdısa da, Denikindən daha az yaramaz bir güc olduğunu işdə göstərməmişdi. Bolşeviklər bir yandan yaraqlı güclərilə Qafqaz respublikalarının sınırına yaxınlaşır, bir yandan da Qafqaz ölkələri içindəki partiyalarını gücləndirir, çalışmalarına dəstək verirdilər. Çiçerin Azərbaycan, Gürcüstan respublika-

larına telsiz teleqrafla göndərdiyi notasında bu ağalıqları qaçan Denikin Ordusunu bütünlüklə ortadan qaldırmaq üçün yaraq arxadaşlığına çağırırdı. Bu nota respublikaların bağımsızlığını tanımaq, barış anlaşması bağlanmasını istəməkdən çox yurddaşları Ağalığa qarşı qaldırmaq üçün propaqanda anlamında bulunurdu.

Azərbaycan Cümhuriyəti (Gürcüstan da) aldığı notaya verdiyi cavabda kimsəni öz iç işlərinə qarışmağa qoymadığı kimi, Rusiyanın iç işlərindən olan Denikin Ordusu ilə savaşmaq istəyində bulunmadığını yazıb, Bolşevik Rusiyası ilə barış anlaşması bağlamaq istədiyini bildirir, Azərbaycanın bağımsızlığını tanımaq yetkisi olan Rusiya elçilərinin seçilməsini önərir, Azərbaycan elçilərilə görüş yerinin də bəlirlənməsini istəyirdi. Ancaq Qızıl Dış İşləri bakanı göstərilən bəlli sorulara aydın, kəsin bir cavab verməkdənsə, Azərbaycanın iç işlərini ələşdirən qarışdırıcı «Bildiriş» notaları ilə düşüncələri qarışdırmağı daha uyğun bulurdu. [RSFSR Dış İşləri komisarı Q.V. Çiçerin Azərbaycan Cümhuriyətinə ilk notanı 1920-ci il yanvarın 2-də verib. Azərbaycan Cümhuriyətinin Dış İşləri bakanı Fətəli Xan Xoyski 1920-ci il yanvarın 14-də ona cavab göndərib. Çiçerin ikinci notasını Moskvadan 28 yanvar 1920-ci ildə verib, Fətəli Xan Xoyski fevralın 5-də ona cavab notası göndərib. Fətəli Xan Xoyski Çiçerinin fevralın 21-də göndərdiyi üçüncü notasına da martın 7-də gərəkən diplomatik cavabı verib. Bundan başqa Fətəli Xan Xoyski aprelin 15-də Çiçerinə 4-cü notasını göndərərək, Bolşevik Ordusunun ortadan qaldırılmış Dağlılar Respublikası topraqlarındakı Dərbənd [Dəmir qapı] rayonunda, Azərbaycan sınırı yaxınlığında toplanmasının nədənini sorub, Rus-Azərbaycan ulusları arasında yaxşı qonşuluq ilişkiləri qurmaq üçün danışıqlara başlamaq gününü, yerini bəlirləməyi bildirib. Ancaq Çiçerin Fətəli Xanın bu notasına cavab verməyib].

Bu notalar alınıb verildiyi sırada Denikin Ordusunun Bolşeviklərdən qaçan qalıqları Kaspi donanması ilə birlikdə Bakı limanına yığılırdı. Bir az qabaq, 1828-ci ildə bağlanmış «Türkmənçay» Anlaşmasına dayanaraq Azərbaycana üz tutub Kaspi [Xəzər] dənizində Rusiya göstəricisindən başqa bir bayrağa dözməyəcəyini söyləyən güc indi protest etdiyi bayrağın altına sığınırdı. Bununla Denikinin donanmasından, ordusundan bir bölümü uluslararası hüquqa uyğun, yarağını verərək Azərbaycan Ağalığına keçirdi.

Denikin Ordusunun o yolla dağılıb Qafqaz respublikalarına sığınması ilə sözsüz, Azərbaycan ən böyük bir qorxunu adladırdı. Ancaq indi də «Oddan çıxıb, alova düşürdü».

Denikinin yerinə indi Lenin gücləri keçmişdi. Bu da bir Rus gücü idi. Özü də bu güc ötəki kimi deyil, ondan daha qorxunc bir güc idi. Ötəki gücə bütün insan qatları qarşı olub, ondan qorunurkən, kimsədə onun yağı bir güc olduğuna quşqu yoxkən, bəriki öylə deyildi. Bunun aldadıcı çağırışları vardı. Bu, ulusların ağalığından, bağımsızlığından, Doğunun qurtuluşundan dəm vururdu, yoxsula cənnət boyun olurdu. İmperialistlərlə savaşda bulunan Türkiyəyə yardım etmək üçün əlini bir an öncə igid Anadolunun əlinə verəcəyinə söz verirdi.

Bu sonuncu çağırış daha etkili idi, Türkiyə dərdilə yanan Azərbaycanın ürəyinin incə yerinə basırdı. Bu çağırış Bolşevikləri yalnız sözləri ilə tanıyan, özlərilə çıxarları bulunmayan bəzi Türk (Türkiyə anlamında) çevrələrilə subaylarını çox etkiləyirdi.

Durum doğrudan da yaman dolaşıq idi.

İstanbulda Misaqi-Millini [Bağımsızlıq Bildirişi] bildirmiş Parlamenti Birlik Dövlətləri Komandanlığı dağıtmış,

Ulus elçilərindən önəmli bir bölümü Maltaya göndərilmişdi. Türklüyün ünlü bahadırı Qazi Mustafa Kamal Paşa bir kaç dönməz yaranı ilə Ərzurumla Sivasın uzaq köşələrində, Anadolunun çalışqan elində, bugünkü uğurlu bir yenmə ilə bitən Ulusal axını başlayırdı. Bu axını başlanğıcda boğmaq istəyilə yaraqsız qalmış Ulusal güc üzərinə Birlik Dövlətlərinin heç bir haqları olmadan verdiyi İzmirə çıxan Yunan Ordusu ağlasığmaz zülmlərlə Anadolunun bağrına doğru saldırırdı. Bəridə də bütün Doğu Anadolunu ələ keçirmək istəyən Ermənilər Ulusal gücün başı üzərindən Yunanıstana əl uzadırdı.

Belə bir durumda «suya düşən ilana sarılar» ata sözüncə, Türkiyənin qurtuluşuna çalışan ulusalçı axınının başçıları dünya imperialistlərinə savaş bayrağı açmış bir durumda bulunan Rusiyaya baxır, oradan bir umud gözləyirdilər. Rusiya devriminin başçıları Türkiyənin bu umacağından, bu çatışmazlığından çox bicliklə yararlanacaqlar. Bu yararlanma sonucunda ən azı, əldən getmiş Qafqaz, başda Bakı nefti olmaqla yenidən Rusiyaya qaytarılacaqdır.

Ortaya bir çağırış atılırdı: Bolşevik Rusiya kapitala yağıdır! Döyüşən Türkiyə Avropa imperializmilə ölüm-dirim savaşındadır. Ankara döyüşçülərinə yardım etmək Moskvanın istəyidir! Bu yardımın gerçəkləşdirmək üçün Qafqazda bizə arxadaş ağalıqlar qurmaq, bir an öncə Qırmızı Ordunu Anadoluya yeritməklə Türklərə yardım eləmək gərəkdir [Nərman Nərimanovun Azərbaycan K(b)P-nın Politbürosunun 1920-ci il sentyabrın 16-da keçirilən, Nəriman Nərimanov, Lado Dumbadze, Qarayev, Stasova, Yeqorov, Qasımov, Karakozov, Sturua, RSFSR-in İrandakı elçisi Eliavanın qatıldığı birləşmiş toplantısındakı çıxışının protokoluna baxaq: Yoldaş Nərimanov: «Türkiyədə Kamalın durumu ağırdır. Türkiyənin özündə Kamalla yaraqdaşlarına qarşı ayaqlanma

sağlanır. Kamal Anadoluda bir çox yerdə olan ayaqlanmanı kəsinliklə basdırmışdır. Ancaq bu onu başqa ayaqlanmalardan qurtarmır, özü də bu ayaqlanmalar Türkiyəyə qonşu dövlətlərdə sağlanır. Kamalın ordusunun geriçəkilməsi patron yoxluğundandır. Antantanın planı Azərbaycana saldırıb Rusiyanı baş nervindən – Bakı rayonunun neft ocaqlarından yoxsun buraxmaqdır! Durmadan bahadırcasına işlər görülməlidir. Bütün bunları ortaqlığa bildirmək gərəkdir. ARPİQP-BA fond №1, sıra № 1].

Belə bir propaqandanın İzmir qaçqınları üçün ölkənin hər yerində yardımlar toplayan, qəzetlərində Türkiyənin yasına qatılan Azərbaycan ulusunda nə kimi etkilər yaradacağını, bu yolla nə kimi olaylar çıxarılacağını düşünün. Bolşevik ağzından eşidilən bu sözlərə bir də bu sözün başqa amacı olmadığına inanan, Azərbaycanda qonaq, eləcə də qulluqda bulunan türkiyəli sayğın qardaşlarımızın tutumunu, addımlarını artırırsınız, o çağda bolşevik üçün yapılacak hər hansı bir qarışıqlığın necə yüngülcə ortaya gələ biləcəyini anlayarsınız.

Azərbaycan ulusalçıları Bolşeviklərin Rusiya içində qaldıqca kəsinliklə qarşıları deyildilər. Devrimçi Rusiya ilə savaşan Türkiyə arasında çəpər olaraq Anadolu ulusalçı axınına əngəl olan bir güc də deyildilər, Bolşeviklərin bildirdiyi çağırışların içdənliyinə yalnız Azərbaycan Cümhuriyətinin bağımsızlığını gerçək tanımalarından sonra inana bilərdilər. Yoxsa «bütün oyunun Molla Nəsrəddinin yorğanı üstündə oynanacağına» quşquları yox idi.

Bir yandan türklüyün ünlü bayraqçısını, bütün Doğu tarixini dəyişdirəcək, böyük yenilgidən qurtara biləcək istəyə qarşı çıxmaq, bir yandan da Türk aləminin bel sümüyü olan yeni bir Respublikanı öz əlilə qırmamaq. Bax, iki böyük, so-

rumlu görəv!... Bu iki görəvi uzlaşdıra bilmək üçün birpartiyalı deyil, koalision durumda bulunan Ağalıq bü yöndə aydın bir qərar alamayıb, həftələrlə sürən bakanlar bunalımı içinə girmiş oldu.

***

Ağalıq dolaşıqda, bunalımda ikən Qarabağ olayı törədilir. Novruz bayramı gecəsi Şuşa kəndinin yaxınlığında yerləşən Xankəndi deyilən ordu qəsəbəsi bayram içində, subaylar, ordu başçıları bayram gecəsini keçirməkdə. Əskərlər axşam bayram şənlikləri keçirdikdən sonra dincəlməyə dalmış, uyuyurlar. Bu arada yan-yörədəki köylərdə yaşayan Erməni quldurları bu gecə üçün sağladıqları süngülərlə basqın edirlər.

Ansızın yapılan bu gecə basqını böyük bir plana uyğun edilmişdi. Komandanlıq olayı biləntək ağıllı davranır, əskərlər yataqlarından qalxaraq amansız yağı ilə qırtlaq-qırtlağa gəlir, ordu başçıları bilgiləndirilir, basqınçılar geri oturdulur.

Xankəndinə yapılan basqınla bir saatda ünlü «Əskəran keçidi»ni də Erməni quldurları tutur. Əskəranın tutulması ilə Qarabağın Bakı ilə olan bağlılığı kəsilirdi. Qarabağın general-qubernatoru olayı Bakıya bildirir, yardım istəyirdi. Ermənilərin qışlanı qısqaca aldığını, yardım gücü gəlməzsə, yenilginin gerçək olacağını etkili cümlələrlə söyləyirdi. Qışla tutularsa, bütün Qarabağın Ermənilərin əlinə keçməsi gerçək sayılırdı.

Ordunun önəmli bir bölümü yubadılmadan Əskərana göndərilir. Güclü bir çarpışmadan sonra ikinci saldırıda Əskəran keçidi yağılardan arındırılır, Xankəndi qurtulur. Qaçan quldurlar daha yüksək dağlara çəkilərək dirənişlərini sürdürürlər. Quldurlar izlənir. Azərbaycan əskərləri Keşiş köyünə

toplaşan Ermənilәri qısqaca alır.

Qarabağ cəbhəsində olaylar belə getməkdə ikən, Ermənistan sınırında ordu toplandığı görünür. Bu arada Qazax sancağında da yeni bir cəbhə açılır. Burada da Erməni güclərilə Azərbaycan gücləri arasında vuruşmalar başlayır.

Belə ansızın, quldur biçimində olan saldırı müsəlmanları son dərəcədə acıqlandırdığından, dörd yanda bir taqım olaylar çıxmasına nədən olaraq, Şamaxı, Şəki, Gəncə sancaqlarında erməni-müsəlman qanlı olayları törəyir.

Belə bir çağda Dağıstanda kilitli güclər toplamış Bolşeviklər görüntüdə barışcıl bir üz göstərməklə olayları izləyib dururdular. Bu arada da bolşevik alver elçisi Solovyov [«İskra» qəzeti 30 mart 1920-ci il sayında yazırdı: «Rusiya «Sentrosoyuz»unun Xəzəryanı, eləcə də İranla işlərin yönəticisi S.İ. Selavri Birlik Dövlətlərinin 1920-ci il yanvarın 16-da [19] Parisdə çıxardıqları qərara dayanaraq, Respublika Ağalığı ilə Rusiya ilə alver ilişkilərinin yenidən başlamaq, «Sentrosoyuz»a Volqa yolu ilə aparmaq üçün, malların pulunun bir parasını Azərbaycan pulu, bir parasını da «Sentrosoyuz»un əlindəki gündəlik işlənən mallarla ödəməklə 5 milyon pud neft, eləcə də neft ürünləri buraxılması üçün Anlaşma bağlamışdır. Bundan başqa Azərbaycan Ağalığı, Sovet Ağalığı «Sentrosoyuz»a gəmilərin geri qayıtması ilə bağlı qarant verərsə, Bakı Neftdaşıma Donanmasının gəmilərindən yubatmadan, yararlanmağı önərdi. Sözsüz, bu ilk addımdır, gələcəkdə neft buraxılması daha da artacaqdır...Bunun böyük politik anlaşma faktı olduğuna quşqu yoxdur. Azərbaycan Ağalığı Rusiyaya heç bir yağı tutumunun olmadığını göstərdi. Moskvadan gözlənən cavabın Rusiya Ağalığının Azərbaycana olan savaşcıl tutumu ilə bağlı Çiçerin notalarından sonra yaranan quşqunu dağıdacağını düşünürük] Bakıda Azərbaycan

Ağalığı ilə neft alınması işlərini danışmaqda idi.

Qarabağ olayları ilə bağlı keçirilən Parlament toplantılarının birində bolşevik elçi [Əliheydər] Qarayev:[1] «Qarabağda ortaya çıxan bu olay Birlik Dövlətlərinin bizi boğmaq üçün sarıdığı zəncirlərdən bir halqadır. Bu halqanı Azərbaycan öz gücü ilə parçalayammaz! Buraxın, Doğu uluslarının hüququnu qoruyan Qızıl Ordu gəlsin, Qarabağ ayaqlanmasını yatırsın. Daha sonra Anadoluya yardıma getsin!» – deyirdi.

[Əliheydər] Qarayev bu sözləri söylərkən, Parlamentin qonaqlar lojasında duran türkiyəli qardaşlarımızdan yetkili birinin ağırbaşlıqla doğrulayıb, bəyəndiyini görürdüm.

Erməni ayaqlanmasından bir az qabaq başqa bir olay da törədilmişdi. Azərbaycan Komunist Partiyası adı altında toplanan devrim komitələrinin Ağalığı devirmək amacı ilə bir ayaqlanma yapmaq istəyində olduqları Ağalıqca bəlirlənmiş, bu qurumun üyələrinin bütünü öyrənilmiş, izlənməyə başlanmış, önəmlilərindən bir kacı gözaltına alınmışdı.

Erməni ayaqlanması ilə bu qurum arasında sıx bağlılıq olduğu da Moskvaya gedən Erməni sosial-demokratlarından Pirimovla Zaxaryanın Moskvada rusca yayımlanan «Həyati-miləl» [Mejdunarodnaya jizn-Uluslararası yaşam] qəzetindəki çıxışları ilə bilinir.

1 [Əliheydər] Qarayev Parlamentə Sosialist blokunun sırası ilə girmişdi. Sonra bolşevik olmuş, daha sonra Rus saldırısının ardınca ona bir kaç günlüyünə Azərbaycan Savaş-Dəniz komisarı deyilmişdir [Bir kaç gün o biri satqın – Çingiz İldırım işləyib. Bu satqınsa 1920-ci il iyunun 1-dən 1923-cü ilin yanvarına kimi].

VIII

BOLŞEVİK SALDIRISI

Həftələrlə sürən bakanlar bunalımının sonunda politik partiyaların qatılımı ilə yeni Kabinənin yaradılması Məhəmməd Həsən Hacınski bəyə tapşırıldı. Məhəmməd Həsən bəy Bolşeviklərdən Azərbaycanın bağımsızlığı, topraq bütünlüyünün qorunması onayı almaqla, savaşan Türkiyə ilə devrimçi Rusiya arasında hər iki yana arxadaş bir Ağalıq quracaqdı. Bu amacla daha yeni kabinənin yaradılmasını bəkləmədən, ayrıca bir Elçilik də Bolşeviklərin yanına göndərilmişdi. Bu Elçiliyin Rusiyanın istədiyi ekonomi ürünlərini verib, Bolşeviklərdən bağımsızlıqla, topraq bütünlüyünə politik onay almaqla anlaşmaq yetkisi vardı.

Durum belə gözlənirkən, ansızın Bolşevik Ordusunun sınıra saldırı sorağı alınır. Aprelin 26-da gecə olan bu olay 27-sində erkən politik çevrələrə bəlli olunca, hamı şaşqınlıq içərisində donuq qalıb, çaşır. Ordunun çoxu Qarabağla Qazax cəbhələrində olduğundan, sınırda bulunan əskərlər 60 min [72.472] sayda saldıran yağıya iki saatadək dirəndikdən sonra geri çəkilirlər.

O gün, axşama doğru kəndi qorumaq üçün könüllülərdən yaradılan, subayları bütünlüklə türklər olan «Yardım alayı»nın [Başçıları türkiyəli subaylar olan «Yardım alayı» Bakının Ordu komendantı general-mayor Firidun Vəzirovun 4 sentyabr 1919-cu ildə general-kvartirmeyster-gözləmçi-general Vasili Dmitriyeviç Karqaleteliyə verdiyi Göstərişdən sonra «qoşun çəkilərsə, kənddə güvənliyi saxlamaq üçün könüllülərdən» yaradılmışdır. General-kvartirmeyster Vasili

Dmitriyeviç Karqaleteli sentyabrın 4-də, Göstərişin altında «Çaparaq! Onların sayı neçədir? Çoxlu sualları aydınlaşdırmaq üçün Dəstənin başçısını çağırmaq olmazmı? – Alt yazısı yazmışdır. Dövlət Savunma Komitəsinin 1920-ci il martın 27-də verdiyi Qərarla «Yardım alayı»nın Azərbaycan Ordusundan alınaraq İç işləri bakanlığına verilib, ancaq bakan qarşısında sorumlu edilməsi, general-kvartirmeyster Vasili Dimitriyeviç Karqalatelinin Alt yazısındakı quşquları, polkun hansı amacla yaratdıqlarını aydın göstərir] yenə zirehli avtomobilləri sürən Türk[1] subayların, donanmada qulluq edən Osmanlı subaylarından bir çoxunun Bolşeviklərlə bir olduqları anlaşıldı, daha qurulmamış yeni Kabinə ilə diləkçəsi alınsa da, Ağalığı daha verməmiş əski Kabinə arasında asılı duran Ağalıq, onunla birlikdə Parlament Azərbaycan Komunist Partiyasının ultimatumu qarşısında bulundu. Bu ultimatum Ağalığın Azərbaycan Komunist Partiyası Mərkəzi Komitəsinə verilməsini istəməklə birlikdə Azərbaycanın bağımsızlığının güvəndə bulunacağına, Ağalığın Ruslara verilməyəcəyinə boyun olurdu. Parlament bütün partiyaların elçilərindən yaradılmış komisiya ilə Komunist Partiyası elçiləri arasında olan Anlaşmaya görə:

1. Rus Ordusu Bakıya girməyib, dəmir yolu ilə Doğu Anadoluya yardıma gedəcək.

2. Azərbaycanın bağımsızlığı, topraq bütünlüyü hər hansı saldırıdan, özünəbirləşdirilmədən uzaq qalacaq.

3. Azərbaycan Ordusu olduğu gibi qalıb dağıdılmayacaq.

4. Azərbaycan politik partiyalarının özgürlüyü, toxunulmazlığı qorunacaq.

5. Əski başçılar, Ağalıq üyələri, Parlamentdən kimsə politik baxışlarına görə suçlanmayacaq.

6. Özgürcə toplanacaq Azərbaycan şuraları Ağalığın po-

1 Buradakı Türk Osmanlı türkü deməkdir.

litik quruluşunu bəlirləyəcək.[1] [Bu düzük 1920-ci il mayın 6-da rusca «Komunist» qəzetinin 4-cü nömrəsində yayımlanmış 7-lik düzükdən bir az ayrılır. Bu tarixi bəlgə də Azərbaycanın böyük oğullarının son anda belə ancaq Azərbaycanı, ulusunu, demokratik dövlətçiliyini qoruyan bir bəlgəyə səs verdiklərini göstərir].

Bu arada qonaqtək Bakıda bulunan Osmanlı türklərindən bir sıra sorumlu adamın ağzından deyilirdi: «Gələn Qızıl Ordu komandanı Nicati bəy adında bir Türkdür. Bu ordunun bölükləri içində Türk savaş tutuklularından qurulmuş alaylar var. Bir çox bölüklər də Volqaboyu türklərindən oluşur. Bu ordu ölüm-dirim savaşı içində bulunan Anadolunun yardımına qoşur. Bu gücə qarşı göstəriləcək dirəniş Türkiyənin qurtuluşuna əngəl edəcək bir olay ola bilir. Bu isə böyük türklük, islamlıq baxımından satqınlıqdır!».

Bütün bu koşulların ertəsi gün yırtılacağı gerçək idi. Söylənən sözlərin də birər politik yalandan başqa bir şey olmadığı aydındı. Bununla belə bu aydınlıq bir çoxları üçün quşqulu idi. O anda aldananlar olduqca çoxdu.

Ancaq bütün bu koşullara uyulmayacağını, hüququmuzu, bağımsızlığımızı tanımaqla, Anadolu yardımına gedəcək güclərə yollarımızın açıq bulunduğunu, bizə sormadan sınır qorucularımızı toprağa sərərək ölkəmizə girən hərhangı gücü arxadaş deyil, yağı kimi qarşılamağın gərəkliyini, Parlamentin öz qərarı ilə deyil, yalnız yağı süngüsü ilə hüququndan keçə biləcəyini bildirərək protest edən olmuşsa da[2], Ulus elçilərinin çoxu bəlli olayın etkisi, basqısı altında, göstərilən ortamda Ağalığı Azərbaycan Kommunist Partiyasına qapdırmalı olmuşdur (27 aprel 1920).

1 Parlament Komisiyası bu qərarı təkcə «Müsavat» elçisinin qarşı səsverməsilə almışdır.

2 Bu qarşı çıxışı «Müsavat» Partiyası adından başçı kimi yazar söyləmişdir.

Aprelin 28-dən üçboyalı Azərbaycan bayrağı bir az Qızıl Sovet, çox yerdə də Osmanlı bayrağına dəyşdirilmişdi.

Milis [polis] başında, «Yardım alayı»nda, kənd komandanlığında, eləcə də başqa önəmli yerlərdə bulunan Türk (Osmanlı) adı, qolu ilə çıxan gündəlik buyuruqlar, bildirişlər, açıqlamalar gözə çarpırdı. Elə bir etki yaradılırdı, elə bil çevrilişi yapan saldırqan Rus Ordusu deyil, Osmanlı türkləridir: «Müsavat» Ağalığı devrilmiş, yerinə Türkiyə Ağalığı qurulmuşdir. Avtomobillərdə kəndin çeşidli yönlərinə qoşan Osmanlı subayları doğrudan da bu gedişi gücləndirəcək özəllikdə idi. Daha çox da çevriliş çağında Türk komisarlığı adı ilə yaradılan qurum adından yayımlanan bildirişlərlə, Türk komunistlərinin yayımladığı «Yeni dünya» qəzeti bu «Əmri-xeyr»in [Yararlı işin] öz istəklərilə olduğunu yazdıqdan sonra «İngilisçi Müsavatı devirməklə iki amac güdüldüyünü» açıqlayırdı:

1. Azərbaycanın qurtuluşu.

2. Yaşamı üçün savaşda bulunan Türkiyəyə devrimçi Rusiyanın yardımının çatdırılması.

«Türk elçiliyi»nin bildirdiyinə görə birinci amaca ulaşılmış, ikinci amaca çatmaq üçün də Xəlil Paşa Moskvaya göndərilmişdi.[1] Doğrudan da iki gün qabaq Xəlil Paşa Bakıdan Moskvaya getmişdi.

1 O çağda yazar Bakıda gizlənirdi. «Yeni dünya» qəzetinə taxma adla bir məktub yazdı. Bu məktubda «Azərbaycanda olan çevrilişi siz Türklərin verdiyi bildirişlərə görə «yararlı olay» kimi anlayan yaşayanlarda, son sayınızda yayımlanmış bir bölüm çox önəmli quşqu yaratmışdır. Xəlil Paşanın Rusiyanın Türkiyəyə yardımını sağlamaq üçün Moçkvaya getdiyini yazırsınız. Baxmayaraq, Azərbaycanlılar bəlli olayı Türkiyə adına edilmiş önəmli yarar kimi anlamışlar. Yazdığınızdan bu yararın indi də çıxarılmadığı anlaşılır. Düşünək: bu yarar paşanın Moskvaya gedişindən sonra da olmazsa, o çağ siz Türklər bizimlə qardaş qurtarıcısı ikən, qardaşöldürən yerində qalmazsınızmı?!» – deyə lağ edilirdi. Bu məktub çap olunmadı. Yalnız bir kaç ay sonra Lahıc dağlarında əlimə keçən «Yeni dünya» saylarından birində bu «məktub yiyəsinin Türk Komisarlığına» gəlib cavab alması bildirilirdi.

***

Azərbaycan ata sözüdür: «Yalanın ömrü az olur».[1] Bu «Yararlı iş» yalanının ömrü də bir həftə sürmədi. Rusiya Qızıl Ordusu yuxarıda göstərilən ortamın mürəkkəbi belə qurumadan, mayın birində Bakıya girdi. Ancaq söylənən ortam dışında dəmiryolu ilə Doğu Anadolu sınırına getməyərək, çeşidli yollarla ölkənin strateji yerlərini tutmağa başladı.

Qızıl Ordunun Bakını tutmasından iki gün sonra Türk komandanlar Rus yoldaşlarla dəyişdirildi. Ancaq iş bununla da qalmadı. «Yararlı işi» başa çatdırmaq üçün nə sayda Osmanlı subayı varsa, hamısını ya tutdular, ya da qapı dışarı etdilər.[2]

«Şəraitnamə»nin o biri düzükləri də oxşar itkiyə uğradı. Ordunun subaylarını tutub, özünü çeşidli uydurmalarla dağıtmağa başladılar. Əski Ağalıq başçıları ilə keçmiş ulus elçiləri bir-bir tutuldu, bir bölümü də ölkədən getməli oldu. Gözdə neçə aydın varsa, hamısı sıx izləndi, tutuldu. Kəndin seçkinləri, eləcə də yüksək görəvlərdə bulunan adamlar güclə küçə süpürmək, çoplük, eləcə də başqa təmizlik işlərində işlədildi [General Səməd bəy Mehmandarov].

Ağalığın ən önəmli görəvlərini Rus, Erməni, Gürcü, Türk olmayan işçilərlə dışdan gələn yadellilərə verdilər. Qızıl Ordunun içində «ÇK»lar yaradıldı. Devrim qarşısı qurumlarla, adamlarla savaşan bu qanlı qurum qorxunc bir bicimdə asmalara başladı. [Semyon] Pankratov adlı bir qaniçənin adı hər kəsi titrədir, asılanların sayagəlməz sıraları dörd yana qorxu yayırdı.

Daha hər kəs aldandığını görürdü. Bu baxımdan alda-

1 Anadolu deyimindəki «Yalançının mumu yatsıya kimi yanar» ata sözünə uyğun.

2 Bu politika Mustafa Sübhinin Bakıya gəlişindən sonra daha da güclənmişdi [Mustafa Sübhi Türkiyə Komunist Partiyasının başçısı]

nanlar yalnız Osmanlı qonaqlarımız deyildi. Bolşevik qəzeti Bolşeviklərdə bütün müsəlman aləminin qurtarıcısını görən, buna görə də bütün gücünü onlara verən «İttihad» Partiyasına «gərəksiz bir ortaq» [Rusca «Komunist» qəzetinin 5 may 1920-ci il, 3-cü sayında V.L. adlı yazarın «Kompremetiruyuşiye «soyuzniki»-«Güvənsiz «ortaqlar» yazısında. Rus-erməni-sovet-mason bolşefaşistləri Türk partiyalarına «Güvənilməz «ortaq» desələr də, «Daşnaksütyun»la «Hnçaq»ı sevə-sevə sıralarına alıb, quzğun kimi Türklərin üstünə saldılar] – deyə cavab verdi.[1]

Müsavatçılardan bir bölümü də «sol müsavatçı» adı ilə durumu bir az da olsun yumşaltmaq istədilərsə də onlara «İlanın ağına da, qarasına da lənət!» – dedilər. Bir ay öncə müsavatçı, eləcə də başqa ulusalçıların öncədən gördükləri qorxu bütün üryanlığı ilə ortaya çıxırdı. Rus bolşevikləri əski Rusiya sınırlarını tuturdular. Devrimdən bir ay sonra bütün Azərbaycan ölkənin qorxunc bir saldırıya uğradığını acı da olsa anlamışdı. Ulus, Türkiyəyə gedir deyə dözdüyü Rus Ordusunu ölkəsində qırğınlar törətməyi sürdürdüyünü göründə, sevgili ordusunun ona hər yürüşü ilə dünyalar boyda ruh, uca duyğu verən yaşıl əskərlərinin düzənsiz bir biçimdə dağıdıldığını, aydınlarının onunla ilişkisinin yasaqlandığını, var-yatırının yağmaya getdiyini, ədəbinin, ulusal əxlaqının çox aşağılandığını duyunca, dözəmmədi, ayaqlandı.

Bu ayaqlanma birinci Gəncədə başladı. Çarizmin qaniçən generalı Sisianovla parça-parça doğranıncayadək savaşan Cavad Xanın kəndi bu yol da özünü göstərdi, ulusun dözəmmədiyi, saldırılara qarşı döyüşkən ruhu ilə köpürdü. Burada daha yaraqlarını verməmiş Azərbaycan əskərləri dirənişin özulünü oluşdurdular. Ayaqlanma bir həftəyədək sürdü.

1 Bakıda yayımlanan «Komunist» qəzetinin 1920-ci il may saylarına bax

Ruslar burada diviziyalarını itirdilər. Bakıdan yardım gücləri gəldi. Bir yandan da Gəncə Ermənilərı ayaqlananları arxadan vurmağa başlayınca, kənd yenilməli oldu. Yolları daşqın çayla kəsilən yaşayanlar qorxunc bir soyqırıma uğradı. Kənd yaxıldı, bazar yağmalandı, tapdanmayan mənlik qalmadı.

Gəncə ayaqlanması ilə yanaşı Tərtər, Ağdam, Şuşa qəsəbələrində, kəndlərində bulunan Azərbaycan Ordusunun bölükləri də yörədə yaşayanların ayaqlanmasına birər ortaqlıq, qaynaq olurdu.

Tərtərdə Qızıl Ordunun bir alayı yox edildi. Ağdamda yenə olduqca böyük itki verdilər. Qarabağ, Şəki, Zaqatala, Lənkəran, Quba, eləcə də başqa yerlər də bir neçə yol ayaqlandı.

Lənkəran sancağındakı ayaqlanmalar aylarla sürdü.

Zaqatala, Şəki ayaqlanmaları çox qanlı bir yolla basdırıldı.

Biz burada az-çox önəmli biçimdə ortaya çıxan ayaqlanmaları yazırıq. Baxanda, ayaqlanmayan bir yer qalmamışdır. Satqınca endirilən ani saldırı ilə qurucu güclərsiz, öz-özünə törəyən bu olaylar içində elələri var, doğrudan da birər igidlik söyləncəsidir.

Azərbaycan Cümhuriyətinin tarixini yazacaq tarixçilər, sözsüz, bu ayaqlanmaları bütünlüklə öyrənib yazacaqlar. Bu ayaqlanmaların yersiz olduğunu, elliklə itki gətirdiyini deyənlər var. Ancaq bu ayaqlanmalar da olmasaydı, Azərbaycan ulusu bilməm hangı olaylarda öz namusunu qorumuş olduğunu göstərəcəkdi?!

Azərbaycanlı necə ayaqlanmayaydı, Yunan qarşısına gedir deyə yurduna bir arxadaş, ortaq kimi girən bir ordunu ölkədə qardaşı-qardaşına düşürən, saldırqan, acımasız bir güc olaraq görürdü?!

Yaşıl Azərbaycan əskəri necə dözəydi, subaylarını, yetkililərini heç bir nədən olmadan tutur, qurşuna düzürdülər?!

İnsanlar necə dözəydi, namusla qulluq etməkdən başqa suçu olmayan çalışqan yönəticilər, generallar qurşuna düzülür, ulusuna bağlılığından başqa suçu bulunmayan öyrətmənləri, yazarları, yaşıl aydınları, qadın öyrətmənləri belə ayırmayaraq quldurtək öldürürdülər?!...

Ulusun dözümü necə daşmayaydı, bir çağlar Rus çarizminin Türk savaş tutuqlularının ölüm yeri etdiyi Bakı limanındakı adaları bu əl Türk arxadaşlığı adı altında yürüyən satqın bir güc Azərbaycan yaşıllarının məzar yerinə çevirirdi.[1]

Azərbaycan ulusu necə dözəydi, gələnək-görənəklərinə yad bir quruluş yaradılması ilə Rus mujiki ona ağalıq edir, tanımdadığı, bilmədiyi alçaqları başına sorumsuz ağa kəsdirirdilər?!

Öz ulusal yaşamı, din adətlərilə yaşayan bir müsəlman necə qıyaydı, ailəsinə, girilməsi yasaq yerlərinə yabancılar girir, ismətli bir müsəlman ailəsinin bulunduğu otaqla qonşu, çox ara girişləri də ortaq, iç Rusiyanın bilməm hankı yanından gəlmə bir Qızıl Ordu subayı yaşadılır, illərdən bəri oluşan ulusal gələnək-görənəklərə komunizm quruluşu adından ağlasığmaz yumruqlar endirilirdi?!

Bax, Azərbaycan ulusu arxadaş deyə ölkəyə girən gücün bir aydan daha az bir görkü ilə qorxunc bir maddi-mənəvi yağı gücü olduğunu görüncə, uyquda ikən üstünə ölüm qorxusu çökən bir adam kimi yerindən dik qalxmışdı.

Daha ulus ayaqlanmışdı.

Üzünə devrim, özgürlük maskası taxan Rus gücü namus, ulus adına ortaya çıxan bu qiyamı Nerona rəhmət oxutduracaq bir kəskinliklə basdırır, dörd yanda işləməyə başlayan ÇK-lar gecə-gündüz qanlı işlərini sürdürürdülər.

Girişinin ilk günlərində «çevrilişin qansız olduğuna»

1 Bolşeviklərin güllələdiyi insanların bir sırası bitiyin sonunda verilir.

acıqlanan bu qanlı güc, qaniçənlik duyğusunu doyurmaq üçün olanaq bulmuşdu. Yalnız ayaqlanma olan yerlərdə deyil, ayaqlanma ilə ilişkisi olmayan yerlərdə də güllələnənlərin sınırı, sayı yox idi.

Gəncədə ayaqlanma başlayınca Bakıda tutulanların çoxu öldürüldü. Kəndlərdə, böyük qəsəbələrdə yaşayan sayğınlar «ulusalçılığın kökünü biryolluq kəsmək üçün» aravermədən sorğusuz-sualsız güllələndi.

Bu qurbanların çoxu subay, yazıçı, öyrətmən, doktor, öyrənci, yönətici, eləcə də başqa bu kimi aydınlardan idi.

Azərbaycanın gerçək diktatoru, cəlladbaşı [Semyon] Pankratov idi. Pankratovun buyuruğunun üstündə bir buyuruq yox idi. ÇK yetkilisinin özbaşınalığı o yeri bulmuşdu, Azərbaycan komisarlarının başçısı bulunan Nəriman Nərimanovu belə çıxdaş eləmişdilər.

Bu tutma-basmalara baxmayaraq, Azərbaycan ulusalçılığı düşüncəsindən ayrılammadıqları üçün Bolşeviklərdən qaçan, yenidən olanaq bulub bağımsızlıqlarının qaytarılması üçün savaşa sağlanan yurd oğulları indi İrana, Türkiyəyə, bütün Avropa ölkələrinə keçmiş, uyğun bir çağı bəkləyib dururlar.

Bolşeviklərin yuxarıda göstərilən ayaqlanmaları, daha çox da özlərinin uydurduğu işləri mahna edib Azərbaycan köylərində, qəsəbələrində törətdikləri dağıntılar Yunanıstanın Anadoluya verdiyi dağıntıdan geri qalmadığı kimi, Gəncədə törədilən qırğın da İzmir qırğınından az deyildir. Bu olaylarda aclıq, yoxsulluq üzündən ölənlər çıxılmaqla, yalnız toplama güclərilə cəza dəstələrinin öldürdüklərinin sayı on mini kəsinliklə keçməkdədir. [Rus-erməni-sovet-mason bolşefaşistləri ağalığa keçəndən 1937-ci il qırğınlarına kimi Azərbaycanın 48 mindən çox yurddaşını öldürüblər. Onlar Azərbaycan Ordusunun Gəncə ayaqlanmasında ələ keçən subaylarının çoxunu qılıncla şaqqalayıblar].

***

«Çevriliş» Ağalığı Azərbaycan Komunist Partiyasına vermişdi. Bu Ağalıq üzdə bütünlüklə müsəlman üyələrdən qurulmuşdu. Ağalıq başçısı Nəriman Nərimanov əskidən Azərbaycanda bir az tanınmış adam idisə də, o biri arxadaşları bütünlüklə törəmə idilər. Gerçəkdə isə politika çevirən güc Rusiya Kommunist Partiyasının Azərbaycan Mərkəzi Komitənin katibi, Qızıl Ordu komandanlığı, ÇK idi. Bunlar bütünlüklə Ruslarla başqa yadellilərdəndi.

İlk günlər ulusu aldatmaq üçün yapılan oyunlar yalnız yüksək, eləcə də ordu qurumlarının Osmanlı türklərinə verilməsilə qalmadı. Bəlli Qızıl Ordu Erməni ayaqlanmasını da biryolluq bitirəcək, yolunu arındıraraq Anadolunun yardımına gedəcəkdi. Buna görə də Qarabağda daha dirəniş göstərməkdə olan Erməni quldurlarına saldırıldı. Bir çağda Gürcüstan da qorxudulmağa başlandı. Ancaq bu, görüntüdə Azərbaycan ulusal politikasını savunmaq maskası Bolşeviklərin Ermənistanı tutmasına kimi qaldı. Ermənistanda da Bolşevik ağalığı qurular-qurulmaz Rus politikası əliaçıq Nəriman bəyin ağzı ilə iki gün öncə savunduğu Zəngəzurla Naxçıvan sancaqlarını törənlə Ermənistana bağışladı [Rus-erməni-sovet-mason bolşefaşistləri Bakı İşçi, Əskər, Matoros deputatları Sovetinin 1920-ci il dekabrın 1-də keçirilən toplantısında noyabrın 29-da çevriliş yolu ilə qurduqları Ermənistan SSR-ə Azərbaycan əməkçilərini XI Rus Ordusunun süngüsü ilə özgürlüyə çıxarmaq istəyən Əliheydər Qarayevin başçılığında keçirdikləri toplantıda Nərimanovun dililə dedirdirlər: «...Zəngəzur, Naxçıvan sancaqları topraqlarının Sovet Ermənistanının ayrılmaz parçası olduğu bildirilir (Ura!...), Dağlıq Qarabağın köylülərinə özünübəlirləmə hüququ verilir! Zəngəzur toprağındakı bütün savaşlar kəsilir,

Sovet Azərbaycanının qoşunları oradan çıxarılır! (Alqışlar). Sovet Azərbaycanı özünün tükənməz neft, kerosin, eləcə də başqa var-yatır qapılarını Sovet Ermənistanının üzünə geniş açır! (Gurultulu alqışlar).

Dünya imperializminin yırtıcılarının çıxardığı, ondan ötrü Güney Qafqazda qanlı qırğınlar törədilən bu var-yatır bu gündən sarsılmaz sıralarda birləşərək dünya kapitalizminin üstünə gedəcək Rusiya, Sovet Azərbaycanı, Sovet Ermənistanı əməkçilərinin malıdır! (Alqışlar). Yaşasın Sovet Ermənistanı ilə Sovet Azərbaycanının qardaşcasına arxadaşlığı! (Gurultulu alqışlar). Yaşasın dünyaya barış, qardaşlıq, əzilənlərə barış gətirən dünya devrimi!» (Gurultulu, uzun sürən alqışlar)»

Sonra çıxış edən, mələk donuna girmiş, yeni Sisianov Serqo Orconikidze gerçəkdə ulusumuzu dolayır: «Bu gün 20-ci ilin sonuncu ayı olan dekabrın 1-də Bakı əməkçiləri yeni yaranan Ermənistan Sovet Respublikasını salamlayır (Alqışlar). Yoldaş Nərimanovun çıxışı çox özəldir. O, bizə öz «Bildiriş»ini oxudu. Zəngəzur, Naxçıvan, Qarabağ sözləri onların anlamını bilməyən bilgisiz bir Rus üçün nə deməkdir? Demək olar heç nə! Hansısa Zəngəzur: verimsiz dağlar, nə çörək var, nə su! Orada heç nə yoxdur! Hansısa Naxçıvan: bataqlıq, malyariya, başqa heç nə! İnsanların heyvan kimi dolaşdığı hansısa Dağlıq Qarabağ. Bu Qarabağda nə var? Heç nə yoxdur! Ancaq bax, yoldaş Nərimanov deyir: «Götürün onları özünüzə! Götürün Ermənistanın bu verimsiz topraqlarını! Baxanda, yaxşı işdir, Sovet Azərbaycanı artıq yükdən qurtulur. Ancaq yox! Bu sancaqlarda, bu verimsiz topraqlarda Güneydoğu Qafqazda erməni-müsəlman sorunu deyilən sorun vardır. Bu sual yoldaşlar, bir-birini öldürmək üçün əməkçi müsəlmanı əməkçi ermənisinin üstünə salmışdır...Bax

budur, bu gün Azərbaycan Respublikasının başçısı çıxıb burada deyir: «Bu qorxunc sual daha yoxdur! (Gurultulu alqışlar). Bundan belə müsəlmanlarla Ermənilər arasında yağıçılıq yoxdur! Müsəlmanlarla Ermənilər, bu əməkçilər bundan belə Sovet Ağalığının qırmızı bayrağı altında qardaş olurlar (Alqışlar). Burada oxunan bu aktın çox böyük dəyəri vardır. Bu insanlıq tarixində örnəyi olmayan tarixi aktdır!». ARPİQPBA, fond 276, yazı 3].

Gürcüstanla açılan savaş da barışla sonuclandı. Gürcüstanı qorxudan Azərbaycan Bolşevik Ağalığı yapdığı bu barışda «Müsavat» Ağalığı ilə Gürcüstan Menşevik Ağalığı arasında öncə bulunan anlaşmaya görə kəsin çözümü Arbitraja buraxılacaq Borçalı toprağını gözünü qırpmadan Gürcüstana verərək, əskidən Azərbaycanda olsa da, Gürcüstana verilmək istənən Zaqatala toprağı üçün Arbitrajda baxılmaq yolunu tutdu.

Azərbaycanın politik çıxarları adına savaşa başlayan Ağalıq sonucda ölkənin bölgələrini bağışlamaqla barış yapır, işçi üçün sınır ayrılığının olmadığı tutalqa olaraq irəli sürülürdü. Doğrudan da Rusiya üçün bir sancağın ermənidəmi, türkdəmi qalmağının nə anlamı ola bilirdi!... Yetərdir bunlar hamısı Rusiyada olsun, ortadakı çəkişmələr çözülsün. Bu işdə uduzan müsəlman olursa, nə gözəl!!!

Bolşevik politikasının aldadıcı manevrlərindən biri də çevrilişin ardınca Leninin Azərbaycanın bağımsızlığını qutlayan bir teleqrafının yayımlanması, Qızıl Ordunun Azərbaycan Ağalığı ilə ayaqlanan işçi-köylü adından Azərbaycana çağırılması idi. Çiçerin bu çağırışı özünüsavunma kimi göstərir, Qızıl Ordunun Azərbaycana Azərbaycanlıların çağırışı ilə gəldiyi ortamı yaradılır. Ancaq çağıran da, «gərəkdir!» deyən də özləridir.

Dışda belə sözlərlə göz qapayan yalançıların içdə Azərbaycan çevrilişindən umduqları köklü istəkləri düzənləmələri üçün Behbud Ağa Şahtaxtınskilə ulusal Azərbaycan Cümhuriyətinin tarixi dağılmasının ən sorumlu yetkilisi bulunan Məhəmməd Həsən Hacınski Moskvaya getmişdilər. Bunların Moskvaya gedişini ulus istəyi kimi açıqlayırdılar: «Getmişlər Leninə söyləsinlər: bu quruluş Azərbaycana yaramaz!».

Gerçəkdə isə onlar daha çox illər gerçək anlamı hər kəsdən, Azərbaycanlı komunistlərdən belə qapalı saxlanan bir taqım anlaşmalar üçün getmişdilər. Yalnız Şahtaxtinskinin qolu bulunan bu anlaşmalara görə Azərbaycan ordu, dış işləri, ekonomik, yemək-içməyinin düzənlənməsini bütünlüklə Rusiyaya verir, bundan başqa dəmir yolları ilə neft qurumlarının yönətimini də ona buraxırdı.

Bu anlaşmalara görə Azərbaycan ekonomik sorunlarda, yemək-içməklə belə bağlı işlərdə Rusiyada çıxarılan bütün dekretləri dəyişdirmədən Azərbaycanda uyğulamalı idi. Göstərdiyimiz bakanlıqların Azərbaycan Komisarlar Sovetində birər gözləmçisi bulunacaq, bu gözləmçilərin öz bakanlıqları ilə bağlı sorunlarda sözləri bütün Sovet üyələrinin baxışının üstündə olacaqdı. Baxmayaraq, Azərbaycanın Moskva Ağalığına heç bir qatışacağı yox idi.

Azərbaycanın gerçək yatırı olan neftə gəlincə, bütün nefti Rusiya əlinə alır, bundan yalnız bir azı Azərbaycanda işlənmək, Türkiyə ilə İran bazarına çıxarılmaq üçün Azərbaycan Ağalığına buraxılırdı. Bu say da Moskva Baş Yanacaq Komitəsinin onayı ilə olacaqdı. Demək, Moskvanın istəyi olmadan bağımsız Azərbaycan köylüsü komasında yanacaq lampasının işığını istədiyi gibi qullanammazdı.

Doğrudan da Bakı türməsində bulunduğum çağda, qəzetlərdə Bakı ilə qonşu sancaqlardan birində köylü üçün

yaradılan gecə okullarının neft olmadığından işləmədiyini oxuyanda duruxmuşdum.

Ancaq nə yapasan, gizli pərdə arxasında saxladıqları bu anlaşmaları Bakıda çıxan komunist basını ilə o sırada keçirilən Azərbaycan Sovetlər Qurultayında [AKbP-nin II qurultayı. 16-23 oktyabr 1920-ci il Qurultayın Bildirişində deyilirdi: «Azərbaycan partiya qurumu RKbP-nin ayrılmaz bölməsidir. AKbP qurumca RKbP ilə sıx birləşmiş, onun proqramını, taktikasını, rəhbər orqanlarının bütün qərarlarını bütünlüklə alqılayıb, uyğulayır. Buna görə də RKbP qarşısında duran bütün işlər AKbP-nin edəcəyi ən önəmli işlər sayılır] söz söyləyən həyasız çıxışçılar Azərbaycanın bağımsızlığının gücləndirilməsi kimi yozmuşdular.

İş yalnız ölkənin ekonomik qaynaqlarını ələ keçirməklə qalmırdı. Az-çox toxunulmamış qalan Azərbaycan Ordusu da dağıdılırdı. Bir sıra bölükləri devrim qarşısı deyə dağıtmış, geridə qalanları da Azərbaycan devriminin ardınca Bolşeviklərin İrana yapdığı saldırı yürüşünə göndərmişdilər. Bolşeviklər bu yolla bir yandan Azərbaycan Ordusunu öldürür, bir yandan da Rəştlə Ənzəlidə yapdıqları olayları Azərbaycanlı əlilə etməklə, bu iki dindaş ulus arasında ömürlük bir yağıçılıq, uçurum açmaq istəyirdilər.

Rəsmi Bolşevik yözumuna baxılarsa, bütün bunlar Doğu devrimi üçün, Doğu uluslarını qaniçən Avropa kapitalistlərinin əlindən qurtarmaq üçün yapılırdı. Bu amacla Türkiyə Komunist Partiyası, İran Komunist Partiyası eləcə b. qurulur, qurtarıcı komunizm düşüncəsinin bu ölkələrdə yayılması üçün avantürist adamlardan oluşan çeşidli qurumlar yaradılırdı.

Yenə bu amacla Bakıda Doğu Ulusları Qurultayı [I Qurultay. 1-7 sentyabr 1920-i il. Qurultayda M. Pavloviç-Beltman,

Ulusal-kolonial sorunlardan, Bela Kun Doğuda Sovet quruculuğundan çıxış edib] keçirilirdi. Ancaq Doğu sorunlarını çözmək üçün yapılan bu yığıncaqlarda sorunları açıqlayıb çözənlər nədənsə, Batı sosialistlərindəndi. İçlərində bir doğulu da yox idi. Örnək: Macarıstanda devrimi uduzan Bela Kun gəlib Bakıda Əfqanıstan, İran, Türkiyədə uyğulanacaq topraq sorununu çözürdü. Bu qurultaya qatılan türkiyəli elçilərdən bir sırası adından söz söyləyən Bəhaəddin Şakir bəy «Doğunun qurtuluşu doğuluların əli ilə olmalıdır!» – deyirdisə də, bu sözlər internasional gurultusu içində etkisiz bir biçimdə itib gedirdi.

Nəriman [Nərimanov] Astarxana doğru göndərilən neft yüklü gəmiləri top atışları ilə yola salarkən: «Bu tarixdə görünməmiş ilk olaydır: neft kağızsız-qələmsiz, ödəməsiz olaraq Rusiyaya gedir» – deyirdi.

Bundan başqa Sovet Ağalığı ilə «burjua» ağalıqlarının ayrılığını anladırkən: «O ağalıqların gəlir-çıxar dəftəri var, ancaq bizim gəlir dəftərimiz varsa da, çıxar dəftərimiz yoxdur» – deyirdi [Stalin 1921-ci il iyulun 6-da Tiflisdə keçirilən, «Komunizmin Gürcüstanda, Zaqafqaziyada qarşıdakı işləri»lə bağlı toplantıdakı çıxışında deyirdi: «Bundan başqa, mənə dedilər, sən demə, Gürcüstanla Ermənistan neft ürünlərini Azərbaycandan pulsuz alırlar»].

Bax, bu başlıca var-yatırını qarşılıqsız dağıdan, çıxarını dəftərsiz yapan Ağalıq Azərbaycan kimi dünyada tayı yox, bol var-yatır qaynağı olan ölkəni elə bir günə gətirdi, ondan çox yoxsul olan Gürcüstana baxanda belə, güvənilməz duruma gəldi. Bakı neft ocaqlarında çalışan işçiləri öz çeklərilə doyuran Ağalıq çıxardığını bütünlüklə Rusiyaya verir, qarşılığında Moskva kağız parası olsa belə, bir şey almazsa, doğal olaraq bazarı dəyərsiz, güvənsiz çeklərlə doldurur. Bunun da

sonu sınıqlıqdan başqa bir şey deyildir.

İlginc görüntü deyilmi, başına qonmuş saybilməz bir Ağalıq üzündən Bakının nefti yaşayanının yoxsulluğuna nədən olur?..

Bu boyda politik, ekonomik dağıntılar sonucunda ölkə heç olmazsa bilikdə olsun, qazandımı?.. Doğrudan da bu ola bilirdimi? Politikanı ekonomidən, ekonomini bilikdən ayırmaq olarmı? Bir ölkənin ekonomisini dağıdıb politikasını altüst edən gücdən eyitim, kültür üçün işlər gözləmək olurmu?

Başlanğıcda üç ay içində bütün Azərbaycanın türkcə oxur-yazar bir düzəyə çatdırılacağı bildirildi. Ancaq bitik yox, öyrətmən yox...

Alver yasağından dolayı işsiz qalan bir az oxuma-yazma bilən alverçiləri tez kurslara aldılar. İki-üç həftə öyrətdikdən sonra öyrətmən oldu deyə, kağız üzərində çoxluca açılmış okullara göndərdilər.

Sözdə çeşidli bilim, kültür quruluşları yaradıldı. Başqa sənət yiyəsi olub, komunizm uyğulamasından dolayı işsiz qalan bir çox özüöyrənmişlərdən yararlanmaqla köylü ilə işçiyə yalnız oxuma-yazma deyil, incəsənətdən də bir pay vermək istədilər. Musiqi okulları, rəsm okulları, oynama okulları, bilməm nə okulları açmaq, işçini bütün yönlərcə yetkin etmək istədilər. Kəsəsi, istədilər, istədilər, yenə də istədilər...

Ancaq aylar deyil, illər keçdi. Dövlət qurumları yenə də rusca, qurultaylar rusca, az-çox işləyən okullar rusca. Üç həftədə öyrətmən olan alverçilər ağıllı-başlı sözsüz, öyrətmən deyil, bir Sovet alverçisi. Musiqi öyrətməni yenə öz yazı evində alverlə uğraşır. Əskidən olan okullar bir dağılmada. Yeni Ekonomik Politikaya görə [Nəriman] Nərimanovun quramasına baxmayaraq Sovet Ağalığının indi çox böyük çıxar dəftəri vardır. Bunun eyitim cədvəli, cədvəllərin ən kiçiyidir.

Dış ölkə universitetlərinə daha öyrənci göndərilmir. Yalnız «Müsavat» çağında göndərilən öyrənciləri geri çağırmaq politik yöndən uyğun görülməmişdir.[1] [Azərbaycan Cümhuriyətinin Avropa ölkələrində oxumağa göndərdiyi öyrənciləri öncə oxumapulu kəsilmiş, oxuyub yurduna dönənlərin də çoxu tutulub güllələnmiş, sürgün olunmuşdur].

Türkiyədən gələn öyrətmənlərlə, qadın öyrətmənlərsə bu ortamda çalışa bilməyəcəklərini gördüklərindən, bütünlüklə geri dönmüşlər.

Basının, ədəbiyatın gününümü sorursunuz?

Buyurun, sizə örnək: «Fuqəra füyuzatı» [Yoxsul yaxşılıqları] adı ilə yalnız iki sayı çıxarıla bilən «ədəbi» toplunun komisarların fotoqrafları verilən sayında fotoların altına yazılan qoşulardan biri sizə devrim yaxşılıqlarının necə şah əsər yaratdığını göstərir:

Bax, şu Qarazadə Əli Heydərə,
Töhfe-yi Şirvanə, mələk-mənzərə.
[Şirvan vergisidir, gözəl mələkdir].
Bəhr-i Xəzər, xütte-yi Azərbaycan,
[Xəzər dənizi, Azərbaycan ölkəsi]
Görməmiş ömründə belə hökmran!

Doğrudan da, belə mənliksiz bir ağanı Azərbaycan heç bir çağda görməmişdir! Bütünlüklə ortaçağsayağı bir dönəm yaşarkən belə, Azərbaycan xanlarından hansına hər hansı qəsidəxan bir qoşucu öygü deyə belə bir «töhfə» gətirsəydi, onun nə yaman bir alçaldıcı olduğunu anlayardı. Ancaq «gözəl mələk» Ordu komisarı bunu anlamır.

Kültürdə, ədəbiyatda ulusal ruhu gəlişdirəcək axınlarımı deyirsiniz? Bunu bilin, türkçülüyün sayğın qoşucusu Məhəmməd Əmin bəy əfəndinin [Türkiyəli] ulusalçı əsərləri doğru yol-

1 Bunlardan hüquq, toplumsal bilimlər oxuyan 12 öyrənci geri çağırılmışdır.

dan çıxanlardan sayılıb bütün bitik evlərindən yığılmışdır.

Türk yazısı ilə çıxan basına türkcə basın deyilirsə, indiki Azərbaycanda da bu var. Yox, ulusal basından amac yalnız yazının görünüşü deyil, ruhu, içindəkiləri də murad isə, onda Bolşevik Azərbaycanında ulusal basın yoxdur. Bir çağlar Ağ padşahdan [Rusiya İmperiyasında müsəlmanlar Rus çarına Ağ padşah deməli idilər] danışan kimi danışıb duran, misyoner Ostroumovun «Türküstan bölgəsinin qəzeti» adı ilə çap etdirdiyi türkcə bir qəzetlə Qızıl Lenin söyləncələrindən, Komunist Partiyası quramalarından başqa bir şey bilməyən Azərbaycan Komunist Türk basını arasında bir ayrılıq görəmmirəm! Bu basının başqa Türk basını ilə ortaq bir şeyi varsa, o da işlətdiyi Ərəb yazısıdır. Ancaq Bolşeviklər bu ayrılığı da ortadan qaldırırlar. Azərbaycanın indiki Ağalığı Latın yazısının uyğulanması qərarını almış, bunu istəmişdir. Bu istək bütünlüklə uyğulanırsa onda Azərbaycanla o biri Türk basını arasında nə içdən bir bağlılıq qalacaq, nə də dışdan bir bənzərlik!

***

Azərbaycanlılar bayaqdan bəri saydığım, ölçüyəgəlməz böyük itkilərdən daha acı bir dağıntıya uğradılar. Uğradıqları saldırı, tutma sonucunda köçməli olduqları Türkiyədə, bu qardaş ölkədə, Bolşeviklərin propaqandası, buna inanan, aldananların söyləmləri, yaymaları üzündən elə acı olaylarla qarşılaşdılar, imansız, qaniçən bir yağıdan qaçdıqlarını kimsəyə anladammadılar! Tərsinə, burada bir sığınacaq ararkən, özlərini hər yerdə duruya çıxarmalı, haqsızlığa uğradıqlarını soyuq bir ortam qarşısında doğrulamalı oldular.

Politika gərəyincə devrimçi Rusiya ilə anlaşmalı olan Türkiyə Azərbaycanda gedən olayların özlüyünü, içdənli-

yini daha güvənilən yollarla öyrənincəyədək Gəncədə olan ayaqlanmanı İngilis politikasına [Azərbaycan Cümhuriyətinin geopolitikləri ulusal qurtuluşun İngiltərədən çox asılı olduğunu yaxşı anlayırdılar. Buna görə də Dış İşləri bakanı Məhəmməd Yusif Cəfərov 1919-cu il avqustun 4-də Bakıdakı Birlik Ordusunun komandanı qeneral D. Şatelvorqa yazdığı 2379 №-li məktubunda «Böyük Britaniya Ağalığından Britaniya qoşunlarının Azərbaycandan çıxarılmaması»nı diləyirdi: «Mənim Ağalığımda olan rəsmi bilgilərə görə İngilis qoşunları avqustun ortalarında Azərbaycandan gedir. Azərbaycan Ağalığı bundan dolayı Böyük Britaniya Ağalığından İngilis qoşunlarının qalmasını diləmək qərarını çıxarmışdır. Qalma koşulları Britaniya Ağalığından kəsin qalma qərarı alınandan sonra qarşılıqlı anlaşma yolu ilə bəlirlənəcək». Məhəmməd Yusif Cəfərov elə o gün Azərbaycan Cümhuriyətinin Tiflisdəki elçisinin yardımçısı Faris Vəkilova teleqram vurub, general D. Şatelvorqdan qoşunun Azərbaycanda saxlamaqdan ötəri yuxarı komandanlıqla danışmaq sözünü aldığını sevinclə bildirirdi] oyuncaq olan adamların törətdiyini düşünürdü. Acı da olsa, bu düşüncə ən böyük yetkililərə varıncayadək yayılmışdı.

Azərbaycan Ulusal Ağalığının acınacaqlı dağıdılmasından daha acısı ulusalçıların Türkiyəyə qarşı dönüklüklə suçlanması idi. Ola bilir, biriləri indi də bu düşüncələrində qalırlar.

Bax, ən çəkilməz acı bu acıdır!

Dönüklüyün ən böyük tutalqası kimi, Azərbaycanın çətin, ağır günündə Anadoluya sayğısız qaldığı, sayğısız deyil, yağılarına belə yönəldiyi deyilir.

Azərbaycanlıların Bolşeviklərdən, elliklə Ruslardan qorxaraq işi daha güvənli bir dayağa bağlamadan Antantaya

yağıçılıq etməmək «istəy»inə dəlil tapılırsa, düşünürəm, bu boyda ağrı-acını söylədikdən sonra kimsə Azərbaycanı bu yöndə Türkiyəyə dönüklükdə suçlayammaz! Azərbaycanın başqa işlərdə də Türkiyənin varlığına, gələcəyinə önəmsiz qalmadığını, yeri gəlirsə, bəlgələrilə doğrulamaq olar.

Azərbaycan düşüncəsini, idealını doğan ulusalçı axın Türk ədəbiyatının etkisində bulunan bir basının yetirməsi ikən, İngilislər daha Bakıda olanda Parlamentin ən sorumlu partiyası adından «Hə, Türkləri biz çağırdıq, onlar bizi qurtarmaq üçün gəldilər. Bu qurtarıcılara başkəndimizin göbəyində anıtlar dikmək borcumuzdur!» [Məhəmməd Əmin bəy bu sözləri Azərbaycan Parlamentinin 1919-cu il, fevralın 4-dəki 13 saylı toplantısında deyib] deməkdən çəkinməyən, İzmir ağrı-acısı ilə bağlı ölkənin hər yerində ulusalçı göstərilər keçirən, Ağalıq partiyası «Müsavat»ın düşüncəsinin yayıcısı «İstiqlal» toplusunda [«İstiqlal». 1918 – 28 mayıs – 1919], Ağalığın rəsmi qəzeti «Azərbaycan»da Barışın [Mudros] ardınca yaranan qaranlıq günlərdə Türkiyənin ölməz bir güc olduğunu yazan, Osmanlı İmperatorluğu çökdüsə, yerində Türk Ağalığı [«Azərbaycan» qəzeti, 17 yanvar 1919-cu il, № 90] quruldu – umudu ilə toxtaqlıq bulan, İngilis türmələrindən qaçan sayğılı ulusalçıları istəyənlərə «Qonaq bulundurmağa hüququ olmayan bir bağımsızlığı istəmirik!» – cavabı ilə qarşı qoyan, Bakının qurtuluşunda şəhid düşən Türk əskərlərinin məzarı üstündə böyük törənlə Sayğı Anıtı tikdirən bir ulus, necə olur da dönüklükdə suçlanır?!...

Azərbaycanın yönətim cilovunu əllərinə almağa boyun olan ulusalçıların boynuna düşən sorumluluq doğrudan da böyük idi. Görəcək bir görsəniş deyilmi, Rus partiyalarının gözündə, Erməni basınında, Gürcü çevrələrində türkçülüklə bəllənən, türkiyəçiliklə suçlanan bu adamlar eləcə də Türkiyəyə qarşı dönüklükdə suçlanırlar?!...

Azərbaycanlılar üçün ölkələrinin dağıntıya uğramasından, iki qardaş ulus arasında ortaya çıxan bu yanlış anlama daha acıdır, daha ağrılıdır. Ancaq ovundurucu bir şey varsa, o da bu yanlış anlayışın yaranması bir taqım kəslərdən doğduğu kimi, yaratdığı etkinin də yalnız bir sıra adamlar üzərində ağa olması ilə sınırlı qalacağı düşüncəsidir. Yoxsa, türklüyünü anlamış Azərbaycanla türklük üçün qan tökən, can verən Anadolu arasındakı qardaşlıq bağını nə tarixin indiki Türk-Rus anlaşması gibi keçici olan epizodları, nə də bir taqım adamların politik yanlışları qırammaz!!!

IX

İNDİKİ DURUM

«Çevriliş»in ardınca Azərbaycanın bağımsızlığını qoruyan kimi görünən Rusiya bolşevikləri 29 noyabr 1920-ci ildə Ermənistan Respublikasını, 25 fevral 1921-ci lidə Gürcüstan Respublikasını tutduqdan sonra Güney Qafqazdakı üç respublikanın birləşməsi üçün bir taqım çalışmalara qalxmışdılar.

14 noyabr 1921-ci ildə [12 mart 1922] Güney Qafqaz Federasiyası yaradıldı. Ancaq iş bununla da qalmadı. 10 noyabr [30 dekabr] 1922-ci ildə Moskvada keçirilən qurultay Sovet Sosialist Respublikaları Birliyi yaradıldığını bildirdi. Azərbaycan o yolla gerçəkdə çoxdan itirdiyi bağımsızlığını bu əl də rəsmən itirirdi. Azərbaycan Sovet Sosialist Respublikası indiki biçimilə kiçik, yerli özərklikdən başqa bir şey deyildir!

Qafqazın o yolla yenidən Moskva ortaqlığına bağlanması nə Gürcüstanın, nə də Azərbaycanın elliklə istəyilə olur. Bolşevik quruluşunun istəklə, toplumsal baxışla biryolluq işi yoxdur! Basın özgürlüyü, toplumsal özgürlük olmayan bir yerdə, özü də yaşayanların böyük bölümünün yurddaşlıq hüququ olmayan bir yerdə, toplumsal düşüncədən danışmaq, sözsüz, gülünc olur.

Ancaq Bolşevik baxımından olan toplumsal düşüncə (yerdəki komunistlərin baxışı) belə, bu birliyə qarşıdır, Rusiya Federasiyası Komunist Partiyası Mərkəzi [Ortaqlıq] Komitəsinin qərarı, Leninin buyuruqsayaq teleqrafları ilə oluşmuşdur. Bu anlamda özəlliklə Tiflis gürcülərilə Moskva rusları arasında olan gizli teleqraflar göz çəkir.

Gürcüstan Komunist Partiyası Mərkəzi Komitəsi 15 sent-

yabr 1922 tarixli yığıncağında Moskvadan gələn bir önərini araşdırırdı. Bu önəri Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi [İosif] Stalinin «tezis»lərinə uyğun yazılmışdı. Bu tezislərə görə Güney Qafqaz respublikaları bütün bağımsızlıq işlərindən əl çəkərək, bir federasiya yaratmalı, bu federasiya da Rusiya, Ukrayna, eləcə də başqa özərk Sovet respublikaları ilə birlikdə Sovet Respublikasını oluşdurmalıdır.

Gürcü komunistləri çəkişmədən sonra bu önərini uyğun görmədikləri, Qafqaz respublikalarının bağımsızlıqdan əl çəkmək sırasının gəlib çatmadığı qərarını çıxardılar. Bu qərar 6 səsə qarşı 19 səslə alındı. Gürcü Komitəsi bu yöndəki baxışını Moskvaya bildirdi.

17 oktyabr 1922-ci ildə Moskvadan belə bir cavab alındı:

«Yoldaş Orexelaşviliyə!

Mərkəzi Komitənin genəl toplantısı Gürcü Mərkəzi Komitəsinin birləşmək üçün daha sıra gəlmədiyi, bağımsızlığın olduğu kimi saxlanmasının gərəkliyi baxışını səs birliyilə ortadan qaldırdı. Gürcüstan elçisi Mdivani bu yöndə düşüncə birliyini gördüyündən, Gürcü Komitəsinin önərisindən geri çəkilməli oldu. Genəl toplantı Stalin, Orconikidze, Myasnikov, Molotov yoldaşlardan yaradılan Komisiyanın Güney Doğu Qafqaz Federasiyasının olduğu kimi saxlanıb, Ukrayna, Belarusla birlikdə «Sosialist Respublikaları Birliyi» yaradılmasının gərəkliyi qərarını dəyişdirmədən aldı. [Rus-erməni-sovet-mason bolşefaşistləri bu respublikaların «sosialist» olduqları üçün birləşə biləcəyini, Xarəzmlə Buxaranın indilik «demokratik respublika» ? olduğu üçün sosialist birliyinə qatıla bilməyəcəyi taktiki yalanını uydurmuşdular].

Qərarın üzü yoldaş Orconikidzeyə göndərilir. Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsi bu qərarın böyük sevinc, coşqu ilə qarşılanacağından quşqu duymur. Nömrə 7643 (Gizli) RKP MK katibi Stalin».

Ancaq bu teleqraf, göndərənin son sıradakı umuduna baxmayaraq, Tiflisdə coşqu deyil, umudsuzluqdan doğan üzüntü duyğusu oyandırdı. Gürcü komunistlərinin bir çoxu bu üzücü duyğunu özləri Moskvaya bildirir, Rusiya İmperializmindən gileyli bir dillə danışırdılar.

Bu gileyin Moskvanı necə acıqlandırdığını aşağıdakı teleqrafdan anlayırıq: «Moskva, 3 oktyabr Çinçadze, Maxaradze yoldaşlara. Üzünü Mərkəzi Komitə üyəsi Orconikidzeyə, Güney Qafqaz Komitəsi katibi Orexelaşviliyə verməli.

Sizin velikorus ulusalçılığına qarşı çıxışınız, Gürcü ulusalçılığını göstərəmməzdi. Siz Mərkəzi Komitənin Güney Qafqazın da Rusiya birliyinə birləşmə qərarını eləcə də uyğulamalı olduğunuzu bilməliydiniz! Bu qərarı istərsə yalnız Mərkəzi Komitə dəyişə bilər! Göndərdiyiniz Bildirişin yazı biçimi partiya ədəbini çox pozur. Bu yöndəki pozuculuğa son verilməsini önəririk!

Qollar: Kamenev, Buxarin».

Pozuculuqlarından danışılan Çinçadze ilə Maxaradze Gürcüstanın saç ağartmış çox əski sosialistlərindəndilər. Onların açıqça Moskva İmperializminə qarşı çıxışları Leninin özünü belə acıqlandırırdı. Bax, bu acığı söyləyən bir teleqraf 21 oktyabr tarixində Moskvadan çəkilmişdir: «Gürcü Mərkəzi Komitəsi üyələrindən Çinçadzeyə, Kavtaradzeyə: Çinçadze, eləcə də başqalarının qolu ilə göndərilən, nədənsə, Mərkəzi Komitə katiblərindən birisilə deyil, Buxarinin mənə verdiyi notanın içindəki ədəbsizlkdən şaşırdım. Mərkəzi Komitənin Mdivanilə birlikdə qatıldığım toplantısının qərarından sonra hər hansı qarşıdurmanın aradan qalxdığına inanırdım. Orconikidzeyə qarşı söylənən çirkin sözləri bütünlüklə pisləyir, özü ilə aranızda olan olayın uyğun ədəbli bir biçimdə Mərkəzi Komitə katibliyinə verməni kəsinliklə irəli sürürəm. Birbaşa göndərdiyiniz bildiriş də göstərilən katibliyə verilmişdir. Lenin, nömrə 7994».

Bolşevikliyin zülmünü bir az görən Gürcüstanda durum belə olursa, Azərbaycanın nə kimi günlər keçirdiyi düşünülə bilər.

Acı da olsa Türkiyə bu duruma uzaqdan baxmaqla qalır, olan-bitənə bir sayğınlığı, etkisi olmur, Türkiyənin Tiflisdəki elçisi Muxtar bəy Moskvaya getməli olur.

Türkiyə Bolşevik Rusiyası ilə bizim bildiyimiz iki anlaşma ilə bağlıdır: biri 1921 ildə qollanmış Moskva Anlaşması [16.03.1921], biri də Güney Qafqaz respublikaları ilə 11 sentyabr 1922-ci [13.10.1921] ildə qollanmış Qars Anlaşması.

Birinci Anlaşma ilə Türkiyə elçiləri Qafqaz respublikalarını tanımaqla yanaşı, Azərbaycan komunistlərinin Ermənistan sovetlərinə bağışladığı Naxçıvan bölgəsi ayrıca bir bölgə kimi, üçüncü bir Ağalığa bağışlanmamaq koşulu ilə Azərbaycana verilmiş,[1] bir də anlaşanlar Doğu uluslarının bağımsız-

1 Bolşeviklər Ermənistan Respublikasını tutanda Azərbaycan Bolşevik Ağalığının başçısı Nəriman Nərimanov Naxçıvan qəzasını Ermənistana bağışlamışdı [Nəriman Nərimanov Zəngəzurla Qarabağın Azərbaycan SSR-də qalması üçün əlindən gələni edib. Bu işdə türkiyəlilər də naxçıvanlılara gərəkən dəstəyi verərək, Qars Anlaşması ilə Naxçıvanın Azərbaycana bağlılığını uluslararası hüquqla tanıdıb. Daha geniş bilgi üçün ən azı, bax: «Azərbaycan Türkləri (Kültür Tarihinin Ana Hatları». Ankara, 1998; İlqar Niftaliyev. «Azerbaydjanskaya SSR v ekspansionistiçeskix planax armyan. 20-ye qodı XX veka» – İlqar Niftəliyev. «Azərbaycan SSR Ermənilərin ekspansiya planlarında-XX əsrin 20-ci illəri». B., 2010. Bir çağlar İngilislərlə Amerikalılar da Naxçıvanı Ermənilərə vermək istəmiş, bu yöndə çalışmış, ancaq bacarmamışdılar. İngilislər 1919-cu ilin may-iyul aylarında Naxçıvanda Erməni yönətimi yaratmış, Amerikalılar 1919-cu il oktyabrın 24-də Müsəlman Milli Şurası qarşısında Naxçıvan Amerika General-qubernatorluğu yaratdıqlarını bildirsələr də türkiyəlilərin də dəstəyilə kəskin qarşıdurma gördüklərindən düşüncələrindən daşınmışlar]. Əlində yaraq, iki ildən çox Ermənistana verilməyə qarşı igidliklə savaşan naxçıvanlılar bu yol da dediklərində durdular, Nərimanın bağışlaması quru söz olub qaldı. Ermənistan Respublikası Naxçıvan «bağışı»nı almaq üçün eyicə qan tökməli idi. Naxçıvanlılar isə hər yerə üz tutaraq Ermənistana verilmək istəmədiklərini bildirirdilər. Bu sorun Türk Elçi Dəstəsini də düşünürmüşdü. Buna görə də, Anlaşma [Qars Anlaşması] Naxçıvan Sancağını üçüncü bir ölkəyə verilməmək koşulu ilə ayrıca bir Bölgə kimi Azərbaycana vermişdir.

lığına sayğı göstərəcəklərini doğrulamışdılar.[1]

Azərbaycanın indiki politik quruluşuna baxılırsa, Ağalığın içilə dışı belədir: Görünüşdə ölkəni bir Komisarlar Soveti, bir də Mərkəzi Komitə yönətir. Mərkəzi Komitə bütün Azərbaycan işçi-köylülərindən toplanan Şuralar (Sovetlər) Qurultayında seçilir. Bu komitə isə Komisarlar Sovetini seçir. Komitə bir gözləmçi ikən, Sovet işçi gücdür.

Ancaq Bolşevik quruluşunda güclər ayrılığı olmadığından, işçi güclərinin yasama gücü də vardır. Yasaların (dekretlərin) çoxunu Komisarlar Soveti çıxarır. Azərbaycan Şovetlər Qurultayı yalnız ildə bir yol toplanır.

Sovet anayasasına görə şuralar köylü ilə işçi elçilərindən qurulursa da, işçinin səs hüququ köylünkündən çoxdur. Bir işçi səsinin yasal dəyəri bir köylü səsindən qat-qat üstündür. Yüz işçi bir elçi verdikdə min köylü bir elçi şıxara bilir. Kəndlərdəki işçilərin daha çox Rus olduğu gözə alınırsa, bunun Azərbaycanın politik yaşamında nə kimi kombinasiyalara (təhəvvülata) nədən olacağı anlaşılır.

Ağalığın buyuruqlarına ən böyük etkisi olan toplumsal qurum Bakı İşçilərinin Şurasıdır. Bu Şura işçi, dənizçi, əskər, köylü elçilərindən yaradılır. Bakıda bulunan işçinin, dənizçinin, Rus saldırqan ordusu əskərlərindən yaradılan qurum demək olar bir Rus qurumudur. Bu qurumun başında [V.] Krılov adında bir Rus dururdu. Demək, Azərbaycan toplumsal düşüncəsinin daşıyıcısı olan adam bir Rusdur.

Azərbaycan Ordusu adında toplam 3-4 minədək bir güc vardır. O da ölkənin ayrı-ayrı ortaqlıqlarında dağınıq bir biçimdə bulunur. Rus saldırqan gücləri isə bir kaç diviziya olub böyük bir çoxluqdurlar. Ordu yönətimi (Azərbaycan güclə-

1 Oxucular bu güvəndən Güney Qafqaz respublikalarının yenidən Rusiyaya qatılması üçün Rusiya basqısının necə böyük olduğunu özləri düşünsünlər.

rilə birlikdə) Rus Baş Qərargahına bağlıdır. Komandirlər də Ruslardandır.

Azərbaycan ekonomisinin canı olan neft ocaqları «Neftkom» deyilən bir qurumun əlindədir. Bu qurum Ağalıq içində ağalıqdır. Bütünlüklə özərk, doğrudan-doğruya Rusiyaya bağlı bir qurumdur. Başında Rus yönəticilərindən [Aleksandr] Serebrovski adında bir Rus durur.

Komunist qurumlar yalnız görüntü pərdələrdir. Bu pərdələrin arxasında ağalıq edən güc partiyadır. Azərbaycan Mərkəzi Komitəsilə Komisarlar Sovetini yönətən güc də bu gücdür – Azərbaycan Komunist Partiyasının Mərkəzi Komitəsidir. Bu ortaqlıq buyuruqlarını Moskva Mərkəzi Komitəsindən alır.

Ortaqlıqlarda baş katiblər var. Baş katiblər, demək olar, birər diktatorlardır. Azərbaycan diktatoru isə [Sergey] Kirov adında bir Rusdur.[1]

Gerçəkdə ekonomisi, ordusu, toplumsal düşüncəsi, yürütməsi birər Rus əlində bulunan bu dövlətin yalnız Komisarlar

1 Biz yalnız başlıca toplumsal politik qurumların, ekonominin Rusların əlində olduğunu göstərdik. Dövlət qulluqçularının çoxunun, kimlər olduğundan daha aydın bir söz demək üçün əlimizdə bulunan türkcə «Komunist» qəzetinin rəsmi bölümündə qarşılaşdığımız adlardan bir neçəsini buraya köçürürük. Bir kaç saydan aldığımız bu adların oxucuara bəlli bir anlayış verəcəyini düşünürük. Azərneft Ulusal Eyitim bölmə başçısı – Barçov, Azərneft başçısının yardımçısı – Barinov, Elektrik Stansiyasının başçısı – Sizov, Oktyabr Komisiyasının başçısı – Çaykin, Oktyabr Göstərilər Komisiyasının başçısı – Edilson, Bakı Şurasının başçısı – Krılov, Bakı Şurasının katibi – Palaşkov, Dəniz Donanmasının başçısı – Larionov, Toplumsal işlərin başçısı – Poroşin, Yemək-içmək vergisi gözləmçisi – Bukreyev, Bakı Sancağının Savaş komisarı – Anefski, Savaş başçısı – Sıçkov. Orduya çağırışın bölmə başçısı – Seyçikov, Sığorta bölməsinin başçısı – İtkin, Kənd Sağlamlıq başçısı – Eyştat, İç işləri komisarının yardımçısı – Siviridov, Yasal düzən işlərinin başçısı – Biryukov, Ayrıca Qafqaz Ordusu komandanı – Yeqorov, Politik propaqanda başçısının yardımçısı – Tartakov, Çalışma bölməsinin başçısı – Şaxetov, eləcə də b...

dəstəsinin başında bulunan [Qəzənfər] Musabəyovla MİK-in başında bulunan Səmədağa [Ağamalıoğlu] türkdürlər. İkisi də türkcə adlarını belə yaza bilməyən, bütünlüklə Rus kültürünə uymuş, ulus baxımından da çox quşqulu adamlardır.

Azərbaycanın dışda yalnız iki yerdə elçiliyi vardı: Ankara ilə Moskvada. Moskvada Azərbaycan adından çox yerdə moskvalı [Nikolay] Solovyov adında birisi çıxış edirdi. Ankarada isə [İbrahim] Əbilov bəy elçidir. Ancaq Türkiyə toplumsal düşüncəsini aldatmaqdan başqa bir görəvi olmayan bu politik elçinin düşündürücü bir ömrü vardır. Arxadaşlardan birinin çox doğru olaraq söylədiyi kimi o, dünən Azərbaycanın elçisiydi, bu gün Güney Qafqaz Federasiyasının elçisidir, yarın bəlkə də Rusiyanın elçisi olacaq, biri gün də heç kimin.[1]

Devrimin ilk günlərində [16 may 1920] Rus Ordusunun ona yapdığı görkəmli qarşılama törənilə Moskvadan Bakıya dönən Nəriman [Nərimanov] «Tazə Pir» məscidi alanında ulusa üz tutaraq söylədiyi çıxışında deyirdi: «Ayrıca bir komisiya yaratdıq. Bu komisiya əski Ağalığın bəlgələrini araşdırır. Bir kaç gün sonra sonucu bildirəcək. O çağ siz də görəcəksiniz, nə kimi satqınlar sizi yönətirmiş!».

Kaç gün deyil, kaç il keçdi, o komisiya bu sonucu indiyədək açıqlamamışdır. Edəmməz də! Axı, ölkəni İngilislərə satdı deyə suçlanan Ağalığın ulusun hüququndan bir buğda dənəsi olsun yadlara verdiyini bir Nəriman [Nərianov] deyil, bütün Bolşeviklər bir araya gəlsələr də doğrulayammazlar!

Ancaq [Nəriman] Nərimanovla yoldaşları Ruslara satmadıqları bir şey buraxmadılar. Onlar hər şeyi verdilər. Maddi-mənəvi nə varsa hamısını verdilər. Top atışları ilə havayı göndərdikləri neftin yüzdə 15-ni Azərbaycana saxlamaq üçün aylarla yalvardılar. Paylarına düşən neftə özləri bazar

1 Bu sözlər Əbilov bəyin ölümündən qabaq yazılmışdır.

tapmaq üçün də necə kiçildilər, necə alçaldılar. Sonda bu yolla toplanan var-yatırı da ölkəni tutan Qızıl Ordunun adına dağıtdılar.[1]

Bakı neftilə indi Bakı yox, Moskva spekulyasiya (ehtikar) [alver] yapır. Dış ölkələrlə yapılan alver ancaq Mosk-

1 Sözümüzü rəsmi bəlgəyə dayandırmaq üçün Rusiya Mərkəzi Komitəsinin 31 noyabr 1921 tarixli, 73 saylı tutanağını buraya yazırıq: «Çəkişildi: Azərbaycana neft ürünləri verilməsi sorunu. Sorunu bildirmişdir: Rusiya Komunist Partiyası Mərkəzi Komitəsi. Qərar verildi: 1. Baş Yanacaq Komitəsinə Güney Qafqaz Dəmir yolları ilə Azərbaycanın sənayesinə gərəkən neftin göstəriləntək verilməsi bildirilsin. 2. Bundan başqa Baş Yanacaq Komitəsi Azərbaycan Komisarlar Sovetinə 3 milyon pud xam neft, 2 milyon pud neft yağı, 1,5 milyon pud mazut, 0,5 milyon pud qətran, 100 min pud benzin buraxmalıdır. 3. Azərbaycan Ağalığına neft ürünlərinin verilməsi 1 noyabr 1922-ci il tarixinə kimi bitirilərək, çıxarılan bütün neftin yüzdə 15-dən çox olmamalıdır. 4. Bu say 1921-1922-ci il proqramına görə çıxarılması planlanan neftə görə ayrılmışdır. Neftçıxarma planlamadan çox olduğundan Azərbaycanın payı da artacaqdır. 5. Azərbaycan Ağalığı ona düşən neft ürünlərini Güney Qafqazdan başqa İç Rusiya bazarında satmaq istərsə, bu yöndə ortaqlığın ayrıca onayını almalıdır.

Özü ilə düzdür.

Rusiya Mərkəzi Komitəsinin katibi: Yenukidze»

(Bu qərar Azərbaycanlıların çox güclü diləkçələri, üztutmaları sonucunda verilmişdi. Bu tarixədək Güney Qafqaz Dəmir yolları, gülünc deyilmi, yanacaq olmadığından dolayı çətinlik çəkirdi. Bolşevik qəzetlərinin yazdığına görə Bakı bölgəsindəki köylülər bir pud (üçdə bir) neft yağına 3 pud kərə yağı verirdilər. Kür çayı qıyısında bulunan 180-dək su motoru neft yoxluğu üzündən işləmir, bu nədənlə topraq əkiləmmirdi. Bir çox il güclü çatışmadan sonra yuxarıdakı bağışı əldə edən Azərbaycan Ağalığı bir az sonra bu «yaxşılığın» 5-ci düzüyündə yazılan yalvarışı əldə etmək üçün də abrını az tökməmişdir. Qızıl Ordunun gərəkənini ödəmək üçün Bolşevik Ağalığınca «ünlü şef» yolu uyğulanmaqdadır. Hər alayın özünün bir şefi vardır. Bu şeflər elliklə Sovet qurumları ilə şuralarından oluşur. Şeflər alayın ödülləndirilməsi, gərəkənlərinin ödənməsi üçün çeşidli yollarla yardımda bulunur, bağışlar verirlər. Azərbaycanın yerli quruluşları da ona saldıran Rusiya Qızıl Ordusunun çeşidli alaylarına «şef» bulunurlar. Azərbaycan komisarlarının bu ünü, onsuz da yağmalanan Azərbaycan daxılını soymaqla ödənir.

vanın əlilə edilir. Qafqaz gəlir baxımından alverə Rusiyadan daha uyğun ikən, neft Avropaya Batum yolu ilə deyil, Moskva yolu ilə göndərilmək istənilir. Bu kimi qondarma əngəllərlə Güney Qafqazın ekonomik ilişkilərinin doğal axınına Azərbaycan, Gürcüstan baxımından deyil, böyük Rusiya çıxarları baxımından baxılır. Güclə, süngü ilə, ÇK ilə yaradılan Rusiya Federasiyasına belə qondarma yollarla ekonomik özül sağlayırlar.

İş bununla da qalmır, Azərbaycanda Türk ulusal kültürünə qarşı görülən çalışmalar elə çox irəliləmişdir, Nəriman [Nərimanov] özü belə buna qarşı qəzetlərdə yazı yazmalı oldu. O, Bakıda çıxan rusca «Bakinski raboçi», eləcə də türkcə «Komunist» [18 iyun 1922-ci il, № 132] qəzetlərində yayımladığı bir yazısında deyirdi: «Azərbaycan işçisi, köylüsü bir sıra düşüncələrlə politik hüququndan, topraqlarından, ekonomik qazancından keçə bilər, ancaq öz dilindən keçməz!»[1] [«Türk dilinin Azərbaycanda dövlət dili olması bildirilib. O bu dilin bütün hüquqlarından, üstünlüklərindən yararlanmalıdır. Heç kimin bunu dəyişməyə, aradan qaldırmağa gücü çatmaz! Azərbaycan bəlli politik, ekonomik düşüncələrlə torpağından, doğal varından keçər, ancaq doğma dilindən

1 Nəriman [Nərimanov] topraq bütünlüyü sözü ilə Ermənistana bağışladığı Naxçıvanı deyirsə yanılır. Çünki Rus bolşevikləri görüntüdə nərimanların yönətiminə verdikləri topraqları belə əski çarizmdən daha amansız, dönmədən ruslaşdırmaqdadır. Aldığımız bilgiyə görə Bakı ilə Salyan arasında yeni yapılan İliç limanından [Bilgi düzgün verilməyib. Bu Bakı ilə Salyan arasında dəniz limanı yox, Bakının yaxınlığındakı Bibiheybət buxtasında dənizin doldurulması yolu ilə neft çıxarmaq üçün ilk olaraq 1909-cu ildə çalışılmış, 1922-ci ildə tikilən İliç buxtasıdır. Az sürədə 300 ha dəniz quruduldu. 1923-cü ilin aprelində 5 №-li quyu fışqırdı, gündə 50.000 pud, 8 ton neft verməyə başladı] tək amac Muğan çölünə Rus yoxsul köylüsünü yerləşdirməkdir. Bu verimli çöldə çarizm də durmadan Rus köçkünlərini yerləşdirirdi. Söyləndiyinə görə Bolşeviklər buraya bir milyona yaxın köçkün yerləşdirməyə qərar vermişlər.

keçməz, Azərbaycanda heç kimi bu dilin önəmini kiçiltməyə qoymaz!». «Bakinski Raboçiy», 15 iyun 1922-ci il, № 130].

Ancaq politik hüququna, torpağına, yaşamın özülü olan ekonomisinə sayğısız qalan bir ulus dilini, ulusal kültürünü qoruya bilərmi?!... Heç kimsə olmasa da marksistlər belə olmadığını bilməlidirlər.

Güney Qafqaz respublikalarının politik, hüquq, ekonomik gələcəyi indi öz ortaqlıqlarından çox Moskvaya bağlıdır. 1922-ci iln sonunda [30 dekabr 1922] Moskvada çıxarılan qərara görə Rusiya, Ukrayna, Belorusiya, Güney Qafqaz respublikalarından bir Sovet Sosialist Respublikaları Birliyi yaradılmışdır. Burada bütün Güney Qafqaz adından bir elçi vardır.

Birlik respublikasının yönətim qurumu respublikaların eşit sayda yolladıqları elçilərdən yox, ölkələrdə yaşayanların toplam sayına uyğun göndərdikləri elçilərdən qurulmuşdur. Beləcə, adına birlik şurası deyilən qurum, Rusiya, eləcə də Rus elçilərinin böyük çoxluqda olmaları ilə federasiya anlamından, içdənliyindən çıxarılmışdır. Ortaqların istədiyi anda bu birlikdən çıxmasına uyğun bir düzük varsa da, belə bir haqdan kim yararlana bilir?!...

X

QIZIL İMPERİALİZM

Bolşeviklərin nə kimi Doğu politikası uyğuladıqları Azərbaycan örnəyində bütün açıqlığı, aydınlığı ilə ortaya çıxmışdır. Bolşeviklər Doğu uluslarının qurtuluşu, dirçəlişi çağırışları ilə sözdə ulusların hüququna, özgürlüyünə, bağımsızlığına sayğı göstərirlər. Işdə isə başqa imperialistlərdən heç də ayrı deyildirlər. Bütün bu anlatdıqlarımızı oxuyan oxucu sözsüz, özünü yeni imperializm qarşısında bulmuşdur: – Qızıl İmperializm!

Birinci Dünya Savaşında ortaya çıxan iç qarışıqlıq sonucunda qara Rusiya İmperializmi dünyanı silkələyən bir gurultu ilə çökdü. Bu çökən böyüklük, ayrı irqdən, ulusdan yapılma 180 milyonluq çağdaş bir Babil qülləsi idi. Bu qüllənin çeşidli parçası olan uluslar gələcəklərini düşünərək, ulusal varlıqlarını qurtarmağa çalışır, bu amacla qurumlaşır, əski Rusiyanın gərək batısında, gərək doğusunda yeni ağalıqlar yaranırdı.

Rusiya dağıntıları üzərində yaranan dövlətlərdən Baltikyanı ilə Batı sınırında bulunanları – Qara İmperializmlə Qızıl İmperializm arasında keçən dəyişiklik dönəmindən yararlanıb, yeni Bolşevik ordu gücləri yaranana kimi özlərini toparlayacaq bir duruma gəldilər. Finlandiya, Litva, Latviya, Estoniya, Polşa kimi dövlətlər əldə yaraq öz varlıqlarını doğruladılar, Bolşevik saldırısına yaraqla qarşı qoymaqla özlərini Rusiyaya, eləcə də bütün dövlətlərə tanıda bildilər.

Qafqaz dövlətləri isə belə bir uğura çatammadılar. Avropa dövlətləri bunların qurduğu ağalıqları bir az birbaşa, bir

az da hüquqca tanısalar da, saldırqan Bolşevik gücünə uzun sürə dayanammadılar.

Rusiyanın iki yanında olub çeşidli sonuclarla bitən bu olayın nədənini araşdırmaq sözsüz, yarardan uzaq deyildir. Bu nədənlərdən birinin burada deyilməsini daha önəmli buluruq.

Dövlətlərin yaranma, dağılma tarixlərinə baxsanız, öz varlığı üçün savaşa başlayan bir ulusun özü ilə çıxarları ortaq bulunan bir taqım politik güclərdən yararlandığını görürsünüz. Yunanıstan bağımsızlığını İngilislərə, Balkandakı Slavyan dövlətləri Rusiyaya borcludurlar. Baltikyanı dövlətlər bağımsızlıqları üçün yapdıqları savaşda Birlik Dövlətləri donanması ilə ordusunun yarağından çox yararlanmışlar.

Finlandiya Respublikası bolşevizmin əlindən Almaniyanın ordu dəstəyilə qurtulmuşdur. Bolşevizm Batı sınırına doğru saldırarkən qarşısında yalnız Rusiyadan ayrılmış yeni dövlətləri yox, onların arxasında duran Avropa güclərini də bulurdu. Bu durum daha çox da Polşa örnəyində gözə çarpar. Polşa qarşıqoyması Fransa Baş Qərargahının qarşıqoyması da demək idi.

Qafqaz cəbhəsi isə belə deyildi. Rusiyadan qurtulmağa can atan Qafqaz bu qurtuluşla bağlı olan İranla Türkiyə dövlətlərinə arxalanammırdı. İranın gerçəkdə savunma gücü yoxdu, ordusu gücsüzdü [Azərbaycan Cümhuriyətinin İrandakı elçisi Adil xan Ziyadxan 11 aprel 1920-ci ildə Tehrandan Azərbaycan Respublikasının Dış İşləri bakanı Fətəli Xan Xoyskiyə «Bildiriş»ində yazırdı: «İran yatır. Görəvlilərin işə qoyulması başdan-ayağa rüşvətçilik, həyasızlığadək çatan açıq alverdir. Sonucda ulus acımasızca soyulmaqda. Məhkəmə, ədalət yoxdur! Keçmiş böyüklüyün qalıqları görünür, yeni kültürün olmaması, tikici-quruculuğun yoxluğu, hər yerdə

yoxsulluq, kir-kərmə! Bütün ölkədə dövlətin maraqlarını satmayacaq tək-tük yurdsevərlə qarşılaşmaq olar. Hər yerdə yaltaqlıq, yalançı sayğınlıq, tərbiyəlilik, pərdə arxasında isə cibləri doldurmaq, incə intriqalar, pozğunluq, eləcə də başqaları.

Farsların-Perslərin bizim Respublikaya yanaşması elə də ürəkaçan deyildir, tərsinə, İran türklərinin bizə yanaşması qardaşcasına-dostyanadır. İran Azərbaycanının yönü özərkliyə, bağımsızlığa, Farsistandan ayrılmağadır».

Məhəmməd Əmin Rəsulzadə 1908-1911-ci illərdə İranda yaşayarkən, orada önəmli toplumsal-politik işlər görmüşdür. O, İranda gördüklərini 1912-ci ildə Türkiyədə yayımlanan «Türk yurdu» ilə «Səbilür-Rəşad» toplusunda çap etdirmişdir. Məhəmməd Əmin bəy o yazılarında İranın Adil xan Ziyadxanın çəkdiyi görüntüsünü, demək olar, bu alıntıdakı sözlərlə vermişdir. Bax: Məhəmməd Əmin Rəsulzadə «İran türkləri». B., 2013, s. 66-97. Acınacaqlı da olsa, İran İslam Respublikası bu gün də çağdan çox dala qalmışdır. Bu ölkədə İlk Orta çağdakı kimi din dövlətidir. Azərbaycan Respublikası isə çağdaş, konstitusiyalı, demokratik respublika olsa da, burada da göstərilən, rüşvət, yolsuzluq baş alıb gedir], Türkiyə isə onu boğmaq istəyən Avropaya qarşı bayraq açdığından, devrimçi Rusiyanın nə yolla olur-olsun, bir an öncə onun sınırına yaxınlaşmasını istəyirdi. O, Qafqaza doğru enən Bolşevik gücündə Avropaya qarşı bir güc gördüyü üçün Quzeydən uzanan əli çox öyrənmək olanağı bulamadan, tez-tələsik sıxırdı. Qafqazın başı üzərindən yapılan bu əlsıxma sözsüz, Qafqaz respublikalarının varlığı üzərində kəsin bir etki yaratmışdır.

Ölüm-dirim savaşına atılan Türkiyənin belə duruma düşməsi, sözsüz, «şər deməsən xeyir gəlməz» düsturu üzə-

rində olmuşdur. Doğrudur, Qafqazın yenidən Rusiyanın asılılıq ilgəyinə keçməsi Türkiyə çıxarları baxımından böyük bir itkidir. Ancaq «Sevr» Anlaşması ilə yaşam gücü alınaraq uçurumun dibinə endirilən Türkiyə üçün daha böyük itki idi.

Türkiyəni Bolşeviklərlə əlsıxmaya yönəldən nədən Lloyd Corc-Klemanso Avropasının uğur sevincilə kor olan politikası idi. Bu politika varkən, Türkiyə Böyük Millət Məclisinin çilovunu əlində tutanları Bolşeviklərlə anlaşdıqları üçün kimsə qınayammaz! Bolşevik politikasının Türkiyə üçün politik bir strateji gediş olduğunu qəbul etməmək, dünya işlərini çox dar bir gözlüklə görmək olurdu. Ancaq bu belə olmaqla yanaşı, Bolşevik politikasının da imperializmin başqa bir biçimi olduğunu unutmaq, politik sorunları gerçəkdən çox düşüncələrimiz, istəklərimizə görə yozmaq olur.

Avropa imperialistləri koloniyalarını dəyərli malları «Ana yurd»a çəkməklə sömürürlər. Qızıl İmperializm isə koloniya durumuna qoyduğu «ortaq»larının var-yatırını bütünlüklə çalmaqla yararlanır. Azərbaycan bu yöndə ən açıq-aydın bir örnəkdir!

Rusiya özünü Avropa imperialistlərindən qorumağa çalışan Türkiyəni dəstəkləməklə Türkiyədən daha çox yararlandı. Türkiyəyə verdiyi maddi, eləcə də ordu yardımının nə kimi bir dəyərə vardığını bilmirik. Ancaq Bolşeviklərin Bakıya girdikləri çağdakı «talan həftəsi»ndə banklardan çalınan, yağmalanan[1] daş-qaşla, altun-gümüş, bəzək şeyləri, nağd puldan, Astarxana daşınan mal, çeşidli şeylərdən başqa 300 milyon put (4 milyard 800 milyon kilo) neftlə 750 min pud (12 milyon kilo) pambıq, çoxlu ipək, eləcə də b. aparmışlar.

Bundan başqa, Lenin Ağalığı neft ocaqlarını ələ keçirdikdən sonra ən böyük yağısı olan İngilislərlə anlaşa bilmiş,

1 Bolşeviklər tutduqları yeni ölkələrdə «Qrab nedelya» adı ilə tanınan Yağma həftəsi keçirirdilər.

Türkiyədən daha qabaq Avropa dövlətlərilə danışıqlara girişmiş, alver anlaşmaları bağlamışdır. Bolşeviklər İngiltərə ilə yapdığı alver anlaşması dolayısı ilə Doğu politikasını atmağa belə boyun olub, propaqandalarını bir anda dəyişdirdilər.

***

Qızıl imperialistlərə «siz də koloniyaçısınız» dedikdə kəsinliklə qarşı çıxıb, əllərində bulunan uluslara özgürlük, ağalıq hüququ verdiklərini söyləyirlər. Gələk Qafqaz respublikalarına. Baxaq-görək yüz il qabaq çar Ağalığı Qafqaza enirkən yaraq gücü ilə yendiyi xanlıqlarla, öz istəyilə Rusiyaya qatılan Gürcüstanda nə kimi politika uyğulayırdı?

O çağ xanlıqlar birdən-birə ortadan qaldırılmamışdı. Gürcüstan knyazlığı çox illər adı, görəvləri ilə dəyişməz qalmışdı.

Yalnız nə olurdu? Rusiyaya qarşı olan bir xan qaldırılıb yerinə Rus yanlısı, güvənilən birisi qoyulurdü. Ulusal qurumlara əl dəyilmir, yalnız kəndlərdə Rus Ordu qarnizonu [ordu dəstəsi] saxlanır, məhkəmələr, divan belə əskisi kimi yönətilirdi. Xanlıqların yönətim qurumları ilə bunların gördüyü işlərin bütünlüklə ortadan qaldırlıması saldırının ilk illərində olmuş bir olay deyil, yavaş-yavaş edilmiş bir işdir.

Çar dönəmində Qafqaza geniş yetkili başçı qoyulurdu. İndiki Sovet Ağalığı isə Komunist Partiyasının Bölgə Mərkəzi Komitəsini göndərir. Qafqaz respublikaları bütünlüklə bu Ortaqlıq qarşısında sorumludur. O çağda seçkin sinfinə arxalanan Rusiya İmperializmi Qafqazdakı xan, məlik (Erməni seçkini) [Bu məliklər Xristian-Alban-Türk məlikləri idi. Rusların Azərbaycana köçürdükləri Ermənilərin sayı artınca, 1836-cı ildə Peterburq Qutsal Sinodunun qərarı ilə Alban kilsəsi bağ-

lanmış Alban-Türk məliklərinə Erməni məliyi deyilmişdir], knyazlardan (Gürcü seçkini) özünə bağlı olanları qullanır, o yolla ağalıq edirdi. Baş qaldıranlar isə ya öldürülür, ya da Rusiyaya sürülürdü.

İndi də belədir. İşçi, köylü sinfinə arxalanan Bolşevik diktaturası yerli yaşayanların ayaq taqımlarına dayanaraq öz ağalığını qurub, bu sinif içərisindən belə özünə boyun əyməyənləri öldürür, ya da sürgün edir. Sonucda indiki respublikaların ortadan qaldırılması o çağdakı xanlıqların dağıdılmasından daha iti edilir.

Çarlığın ideali seçkinlər sinfi ortamında yüksələn «şovinizm» idi. «Leninliyin» ideali isə «işçi kosmopolitizmi» adlı bir yoldur. Birincisi, Rus olmayan ulusları ruslaşdırmaqla bütün Rusiyanı kültürcə bir duruma qoymaq istəyirdi. İkincisi də ulusal kültürü daha güclü olmayan kiçik uluslarda ulus düşüncəsini öldürməklə bütün Rusiyanı ulussuz bir duruma qoymaq (denasionalizə etmək) istəyir, sonuc baxımından yenə o deməkdir.

Devrimlər geniş içdənlikli olsalar da, sonucda özünü bildirmiş ölkənin toplumsal yaşamını, politik quruluşunu, tarixin gedişini, ekonomik yasalara uyğun bir biçimdə dəyişməkdən başqa bir şey verəmməz, olsa-olsa ağalıq hansısa bir sinfin, sosial qatın əlindən daha çağdaş, daha irəliçi bir ələ keçər. Toplumsal devrimlər bir dövlətin dış politikasından çox iç politikasını etkiləyir. Fransa devriminin dış politikası burbonların gələnəksəl politikasından başqa deyildi. Sovetlərin politikası da çar Rusiyasının politikasından başqa bir şey deyildir!

Keçmişdən Türk yağısı olan Rusiyanın Türkiyəyə arxadaş çıxması isə tarixdə bənzəri yox bir devrim olayı deyildir. Məhəmməd Əli Paşa ayaqlanmasında Sultan Mahmuda yardım

göstərən Rusiya Çar Rusiyası deyildimi? Bolşeviklər İngiltərəni Hindistanı tutmaqla basqılayırlar. Ancaq bu qorxu Dəli Petronun yayılmış vəsiyətnaməsindən də bəlli deyildirmi?

Hə, Məhəmməd Əli Paşa olayı ilə bugünkü olaylar tarixin birər görüntüsüdür. Bunlar birər epizoddur. Qalıcı bir şey varsa, o da Doğuya doğru axan Rusiya axını, bu axına uğrayan türklükdür.

Rus hankı dona girirsə-girsin yenə Rusdur! Qara da olsa, qızıl da olsa Rus İmperilaizmi imperializmdir! Rusiyada dəyişəcək şey, onun politik quruluşudur, ürətim, tükətim biçimidir, yoxsa Rusiya coğrafiyası dəyişməyib!

***

Qızıl İmperializm Böyük Rusiya Devriminin doğurduğu bir sistemdir. Bu devrim çağın dəbi olan sosializm çağırışları ilə alver edərək, komunizm bayrağı altında gerçəkləşdi. Dünya qorxunc bir ulus axınının coşqusu qarşısında bulundu. Bu qorxunc toplum axını, quşqusuz, çağımızın ən öyrənilməli bir olayıdır. Ancaq bu olayda keçici yerlərlə yanaşı, dəyişməz qalacaq gerçəklər də var. Öyrənərkən bunları ayırmamaq düzgün deyildir!

Sosializm, komunizm anlamları kimi böyük idealların uyğulanması, özü də Avropa dövlətləri arasında ən geridə qalmış bir ölkədə uyğulanması sözsüz, bu axının keçici duraqları ola bilir. Bu gün biz Komunist Partiyasının özünün bildirdiyi prinsiplərindən birər-birər yan keçdiyini gördüyümüz kimi.

Dörd-beş illik qorxunc örnəklər bənzərsiz terrorlar sonucda dəyişməz qalan qazanc isə demokratik sosialistlərin deyimincə, burjua quruluşunun özülünü yaradan yönlərdir. Bu yönlər içində ən önəmlisi Rusiya İmperatorluğunun özü-

lü olan köklü seçkin sinfinin ortadan qaldırılmasıdır.

Rusiya son yarım yüzildəki ekonomik gəlişməsilə ortaçağsayağı ürətim ölkəsi olmaqdan uzaqlaşmışdı. Ancaq politik quruluşca bu dövlət indi də dərəbəy düşüncəsilə yönətilirdi. Burada Ağalıq bütünlüklə köklü seçkin sinfin əlində, dövlətin mülki işlərilə, ordu qurumu çarın taclandırdığı bu seçkin qatın asılılığında idi. «Dvoryanstvo» deyilən seçkin sinif ayrıca qurumu, politik, hüquq üstünlüyü olan seçkin bir qat idi. Bu qat politik hüquqca belə ağa ikən, ekonomicə çürüməyə başlamış, çoxdan bəri yerini yeni oluşan burjua [varlı] sinfinə vermişdi.

Bu olayı araşdıranlarca, Böyük Rusiya Devrimi ölkənin ekonomisilə politikası arasındakı bu böyük toqquşmadan başqa bir şey deyildir. Devrim köklü seçkin sinfini bütünlüklə yox etdi. Bunların daha seçkin qat haqları yoxdur. Köklü seçkin qatı yalnız politikada deyil, ekonomidə də yox edilmişdir. Böyük malikanələrlə tarlalar köylülər arasında bölünmüş, birər «Qartal yuvası» olan evlər yerlə bir edilmişdir.

İndiki Rusiya böyük kəndləri olmaqla yanaşı geniş torpağı, 130 milyona çatan yaşayanı[1] ilə dünyanın ən böyük əkinçilik ölkəsidir. Bu ölkədə öncə üç milyona yaxın bir işçi sinfi varkən, indi devrim illərinin dağıdıcı etkisilə bu say milyondan daha az sayla göstərilir. Böyük çoxluğu köylüdən oluşan bu ölkənin insanları köklü seçkinin malikanələrini yağmalayıb topraqlarını tutmaq üçün bir an içində komunist olmuşdu. Ancaq indi birər kiçik mülk yiyəsindən oluşan bu köylü dənizi «ac, bacarıqsız» kəndlər ağalığı olan komunist işçi ağalığını çəkməməyə başlayır. Komunist görkülərinin sonucunda etdiklərinin boş olduğunu görən işçi bölümü də «öz» ağalığına qarşı önəmsiz, çox ara qarşı bir ruh alır. Ötədə əskisinə baxanda, daha əxlaqsız, doymaz olmaqla yanaşı, özünə

1 Devrimdən sonrakı Rusiya Federasiyası anlaşılır.

alverçi ortağı yapan komunist yönəticilərin çoxunun əxlaqını pisliyə yönəldən yeni bir «devrim burjuaziyası» doğur.

Bütün bu qarşı tör-töküntülər içərisində toplumdakı dayaqlarını itirən komunizm diktaturası son günlərini yaşamaqda bulunur. O, bütün gücünü böyük sənaye ilə dış alveri öz əlində saxlamaqla köylü dənizindən gələn dalğalara qarşı bir çəpər çəkmək düşüncəsilə yaşamını sürdürmək istəyirsə də, yüzdə 14-ü çökən Rusiya sənayesi içərisində ən çox umudsuz bulunanı böyük sənaye ilə dış alver olduğundan, bunu kəsinliklə bacarmır!

Rusiya ekonomisi bütün düşünüləbilənlərin üstündə dağılmış bir durumdadır. Belə bir durumda ruhu, yönətimi doğal ilkələrə qarşı bulunan komunizm «rejimi» çökməlidir! Bu çöküş yalnız bugünkü ağa gücün başqa bir güclə dəyişməsilə qalmayacaq!

Velikorus ortaqlığı, sənaye baxımından irəli, ürətici bir ortaqlıq ikən, komunizm manevrilə yenidən özünə bağlaya bildiyi Qafqazla, Türküstan kimi ölkələrdə ürətim başlanğıc düzəydədir. Savaşdanqabaqkı Rusiya bölgələrdən aldığı ürünlərin qarşılığında çeşidli mallar verməklə dəngə yapır, bu yolla ortaqlıqla bölgələr arasındakı ekonomik bağ oluşurdu. Bu gün isə belə deyildir.

Birinci Dünya Savaşı ilə Böyük Rusiya Devriminin sonucunda Rusiyanın ulusal var-yatırı 11 milyard altun rubldan 4 milyard rubla enmişdir. Bu çöküş daha çox sənayedədir. Sənaye baxımından Rusiyanın ulusal malları 5 qat azalmışkən, əkinçilik ürünləri 2 qat azalmışdır. Velikorus ortaqlığı qabaqlar da ürətici olmaqdan çox tükətici idi. Ancaq o bu yöndəki açığını sənaye malları ilə qapayırdı. İndi bu ortaqlıq bütün yönlərdən tükətici duruma keçmişdir.

Rusiyanın Qafqazla Türküstanın əkin ürünlərinin yerinə verəcək bir şeyi yoxdur, daha çox ara da olmayacaqdır! Rusi-

ya əskidən Bakının neftinin yerinə şəkər, manufaktura, eləcə də başqa mal verirdi. Bu gün isə sayı göylərə çatan «Sovet» çeklərini də verəmmir. Belə olunca, doğaldır, ürətici bölgələrlə tükətici ortaqlıq arasında ilişkilər qarşılıqlı ekonomik qazanc üzərinə qurulmuş doğal bir bağla deyil, Qızıl Ordunun süngülərilə, qondarma bağlarla olur.

Moskvada Sovet respublikalarının federasiyasını yaradan qurultayın [I Sovetlər Qurultayı, 30.12.1922] keçirilməsi bizim bu sözümüzü kəsinliklə aradan qaldırammaz! Bu qurultay bölgələrin istəyilə deyil, ortaqlığın buyuruğu ilə keçirilmişdir. Bölgələrin gerçək istəyini az-çox bilənlər isə bu qurultay keçirildiyi çağda, eləcə də indi türmələrdə çürüyür, ölkələrindən uzaqlaşdırılaraq Rusiyanın ən soyuq bucaqlarına sürülürlər.

Ancaq komunizm partiyası öz ağalığını qurtarmaq üçün bu günə kimi qullandığı yöntəmlərdən daha güclü olacağı bəlli olmayan bu yolla özünü qurtarır düşünülməsin! Komunizm dağılmalıdır! Komunizm dağılacağı kimi qondarma yollarla ortaq yönətim yaratmaq istəyən Moskva sistemi də dağılacaqdır!

Qorxunc terrorçu olan bu partiya üçün barışcıl yolla uyumlu, çağdaş ağalıq biçiminə girmək, ruh baxımından olası deyildir. Ayaqlanma ilə, qanla iş başına gələn bir güc ayaqlanma ilə, qanla da gedəcək! Bu gün bu ayaqlanmanı yapan düzənli bir güc yoxsa da, yarın o güc komunizmin özünün yaratdığı qurumun toxumasından olsa da doğacaqdır!

Ancaq Komunizm İmperializminin devrilməsilə ona güclə bağlanan ulusal politik qurumlar üçün də yaxanı qurtarmaq olanağı yenidən gəlmiş olacaqdır. Bu, daha çox Qafqaz üçün olacaq. Qafqaz bundan yüz il qabaqkı durumunda deyildir. Yüz il qabaq yüksələn Rusiyaya qarşı gəlişmiş bir Avropa ekonomisilə, dönməz bir Doğu ulussevərliyi yoxdu. Bu gün o da, bu da vardır.

XI

BAĞIMSIZLIQ İDEALI

Azərbaycan Parlamentinin ilk toplantısını açan çıxışçı Parlamenti bəzəyən bayrağa üz tutub «Bir yol yüksələn bayraq bir daha enməz!» – demişdi.

Bayraq yalnız ayrı boyalı qumaşlardan oluşursa, Azərbaycanın bağımsızlıq bayrağı enmiş, Parlament küçəsindəki Parlament evinin üstündə mavi, al, yaşıl boyalı, ay-ulduzlu bir qumaş yoxdur. Yox, maddəcə saya bir qumaşdan başqa bir şey omayan bayraqlar mənən bir ulusun özgürlüyünü, bağımsızlığını bildirən bir göstəricidirsə, onda, indi Bakı evlərinin üstündə çəkiclə orağı göstərən qırmızı qumaş Rusiya tutuqluluğunu örtməkdən başqa bir şey deyildir!

Hə, bu kitabın üzündə qara dördbucaq içərisində görükən Azərbaycan bayrağı Azərbaycanın özgürlüyünün, bağımsızlığının bu qutlu göstəricisi bu gün Bakının, Gəncənin, eləcə də başqa Azərbaycan kəndlərinin üstündən enmiş, ancaq haraya?...

Bağımsızlıq sevgisilə yanan, özgürlük-duyğusu ilə sızlayan Azərbaycan gəncliyinin ürəyi yarılsa, bu bayrağın orada çəkildiyi görülər.

Hə, Azərbaycan ulusu haçağsa belə üzücü bir ayrılıq duymamışdı. Hankı köylünü, hankı işçini, hankı aydını, ya da iş adamını dinləsəniz AZƏRBAYCANdan yana-yaxıla danışar.

Bolşeviklər Azərbaycanın bağımsızlıq çağına Müsavat çağı deyirlər. Ancaq ulus bu çağa AZƏRBAYCAN çağı deyir. O, indiki rejimi, Azərbaycan deyə tanımır! Ulusun düşüncə-

sində AZƏRBAYCAN anlayışı coğrafi anlamdan çox düşüncə, ideal kimi canlanır. Onun üçün bağımsızlıq dışında bir AZƏRBAYCAN yoxdur!

Bolşeviklərin qatı senzoru altında yayımlanan basından ulusun duyğularını öyrənib, izləmək olmur. Özü də bu basın kültürlü aləmin bildiyi basın kimi deyildir. Ağa partiyanın kontrolu dışında bir qəzet çıxmadığından ulusun duyğusunu bolşeviklikdə çıxan qəzetlərlə ölçmək olmaz! Ancaq ara-sıra çıxan, bir-iki sayı yayımlandıqdan sonra yenidən qapanan jurnallarda görülən bir taqım ədəbi parçaların ruhu öyrənilirsə, qoşucunun nə kimi küskün, gözləyici bir ortamda olduğunu görürsünüz.

Burada durumundan doyğun, devrimilə öyünən bir komunizm ilhamına qarşılaşammazsınız, axı, AZƏRBAYCAN KOMUNİZMİ yoxdur! Buradakı komunizm saldırqan bir gücdür! O, kəsinliklə yaradıcı bir güc olammaz! O, yalnız uçurar, yıxar, asar. Düşüncəsi, eyitimi, toplumsal gəlişimilə ulusal, demokrat bir devrim üçün sağlanmış bulunan bu ortama, ulus qarşısı, demokratiya dağıdıcısı bir gücün ağalığı, eyimsər bir ruh gəlişdirəmməz!

Komunizm nə yaparsa-yapsın, Rusiya İmperializmi hankı boyaya girirsə-girsin ortada bir gerçək var: Uluslar özlərini tanımışlar! Azərbaycan Türk olduğunu anlamışdır! Mən, illərdən bəri axan qanları bir göldən çox doğuşda axan qanlara bənzətmək istərəm. Düzünə qalsa, dünya devrimlərində, savaşlarında axan qanlar bütün çağlarda yeni idealların doğuşuna nədən olmuş deyildirmi? Bütün ağrı-acılar, üzüntülər, dözdüyümüz bu itkilər içərisində böyük bir düşüncə doğmuşdur: Bağımsızlıq düşüncəsi!

BAĞIMSIZ AZƏRBAYCAN bu gün maddi olaraq Rusiyaya zincirlə bağlansa da, mənən yaşayır. Azərbaycanın bağımsız-

lığı bir düşüncə olaraq vardır!

Bolşeviklərə Qafqazda elliklə səsvermə keçirmək önərilsə, kəsinliklə qarşı çıxarlar, axı, bütün ulusun bir anda bağımsızlığa səs verəcəyini bilirlər.

Bu boyda itkilərin sonunda Azərbaycanın əldə etdiyi bir qazanc varsa, o da bu bağımsızlıq düşüncəsinin güclənməsidir.

İndi bağımsızlıq, Ulusal Ağalıq sevdası ilə yaşayan, ÇK-nın amansız öldürmələrinə baxmayaraq, gecə-gündüz çalışaraq ilk olanağı bəkləyib duran bir Azərbaycan yaşılı vardır. O bu olanaq gəlincə ortaya çıxacaq, o çağda yanıq könlünə alovlu cizgilərlə mənən çəkilmiş bayrağı gerçəkdə yüksəldərək deyəcək:

– Hə, bir yol yüksələn bayraq bir daha enməz!

***

Hə, böyük ağrı-acılar, böyük sarsıntılar, toplumsal çalışmalar yüzilində yaşayan Azərbaycan yaşılı üçün bağımsız yaşamaq ulusal anddır. O, «Ulusal and»ın gözlənilməzliklər yaratdığını Doğu ulusalçılığının bayraqçısı, böyük qardaşı Türkiyənin göstərdiyi ölanüstüdən öyrənmişdir.

Birinci Dünya Savaşı ilə başlayan dünya olayları daha sonuca varmamışdır. Bu sonuc ulusların ağalıq haqlarını almaları ilə olacaqdır. Bayrağındakı boyaların anlamı kimi[1]

1 Azərbaycan bayrağındakı mavi boya türklüyü, yaşıl boya müsəlmanlığı, al boya da yenilik, devrim göstəricisi olmaqla çağdaşlığı göstərib, sayğılı Ziya Göy Alp bəyin «Türk ulusundanam, İslam topluluğundanam, Batı kültüründənəm» anlayışını anlatmış olur [Məhəmməd Əmin bəy burada alçaqkönüllülük etmişdir. Bu çağırışı ilk yol Əli bəy Hüseynzadə 1906-cı ildə «Türk qanlı, İslam imanlı, Firəng qiyafəli», 1907-ci ildə «Füyuzat» jurnalının 10 iyul sayında «Türk hissiyatlı, İslam etiqadlı, Firəng qiyafəli» kimi işlədib. Məhəmməd Əmin bəy yazır: «Mərhumun (Ziya Göyalpın) «Türk yurdu»nda yayımlanan «Türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq» yazıları məni çox qıcıqlandırdı. Bakıya geri döndüm.

çağdaş bir Türk, İslam politik varlığına yenidən qovuşmaq umudunu dördgözlə gözləyən ulusalçı Azərbaycan indi çox acınacaqlı dönəm keçirir.

Azərbaycan böyük ağrı-acılar, çəkilməz basqılar içərisində yaşanan bu çağda, Türkiyənin saldırqan Rusiya ilə uzlaşmada bulunmalı olduğu sürədə çox acı bir yükə dözəcəyini duyur, anlayır. Ancaq bu qaçılmaz tarixi gerçəkliyə umudla qatlanırkən, «Misaqi-Milli»silə yalnız özünün deyil, bütün doğulların «insan hüquqları»nı bildirən yeni Türkiyənin indiki Rusiya İmperializmini qızıl sözlərilə deyil, qara işlərilə dəyərləndirməsini çox istəyir.

SON

Basın dil sorunu ilə uğraşırdı. Bu sorunda Ziya yolunun savunucusu oldum. Türkçülüyü yaymaq üçün Dünya Savaşı çağında çıxardığımız «Açıq söz» qəzetinin başına Ziyanın qutsal deyimini bir çağırış olaraq qoyduq. [«Açıq söz» qəzeti, 1915-ci il 2 oktyabr, №1,2. «Tutacağımız yol» yazısı: «Türkləşmək, çağdaşlaşmaq, islamlaşmaq»]. Daha sonra Ziyanın son çağlarda «Türk ulusundanam, islam topluluğundanam, Batı kültüründənəm» biçiminə saldığı bu çağırış türkçülük, xalqçılıq dayaqları üzərində qurulan ulusalçı «Müsavat» Partiyasının proqramının girişində yer tutdu. Rus çarizmi əlindən dağılmış xanlıqlar kimi deyil, bütöv, ulusal bir toplum kimi qurtuluş arayan Azərbaycan türklüyü bu bağımsızlığını ucaldacaq bayrağa çağdaş idealına uyğun bir anlam vermək istəyirdi. Bu anlamı da «Türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq» anlamlarında tapdı: bayrağı mavi, yaşıl, al (mavi, al, yaşıl) boyalı qumaşlardan düzəldildi». Məhəmməd Əmin bəy Azərbaycanın İngilislərin yasaqladığı səkkizbucaqlı ay-ulduzlu al bayrağı yaradılarkən Orta Avropa Ölkələrinin Toplantısına qatılmaq üçün getdiyi İstanbulda, Bakanlar Qurulu noyabrın 9-da üçboyalı, ay-ulduzlu bayrağı yaradarkən isə Bakıda idi. Azərbaycan Cümhuriyətinin üçboyalı, ay-ulduzlu bayrağındakı boyaların anlam düzümü, ideyaların Məhəmməd Əmin Rəsulzadənin sıralayıb düşüncələrə yeritdiyi: türkçülük, çağdaşlıq, islamçılıq ardıcıllığındadır].

AZƏRBAYCAN QURBANLARINDAN BİR SIRA

Bitiyimizin içində deyilən İstiqlal şəhidlərindən başqa Bolşeviklərin qurşuna düzdüyü Azərbaycan qurbanlarının sırasını bütünlüklə bildirəcək olursaq, bu yöndə ayrıca bir bitik çap etməli olarıq. Bununla belə, bu adamların nə kimi bir istəyə, amaca yönəldiyinə örnək olmaq üçün bağımsızlığı qorumaq yolunda canını qurban edənlərin adlarını az da olsa içinə alan bir sıranı burada veririk.

Ordu başçılarından, subaylardan

1. [Şahsoylu] general-leytenant Süleyman bəy Sulkeviç [Sulkeviç Polşa türklərindəndir. Adı Maçey bəydir. 1918-ci ildə Krım Respublikasının baş bakanı olarkən onu Sultan Süleymantək öyüb, «Süleyman paşa» demişlər. Ordu bakanı, artileriya generalı Səməd bəy Mehmandarovun 1919-cu il martın 26-da verdiyi 147 №-li Buyuruqla Məmməd bəy adı ilə Azərbaycan Ordusu Baş Qərargahının başçısı qoyulmuşdur: «1. Keçmiş 1-ci Müsəlman Korpusunun komandiri, general-leytenat Məmməd bəy Sulkeviç martın 19-dan Baş Qərargahın başçısı görəvinə qoyulur». O çağda Maçey bəy adını dəyişib Məmməd bəy qoyub. Azərbaycan Ordusu Baş Qərargahının başçısı qoyularkən diləkçəsində yazıb: «Dinim müsəlman, adım Məmməd bəy, rütbəm general-leytenantdır. Azərbaycan yurddaşlığına keçirəm!].
2. General-mayor Əbdülhəmid bəy Qaytabaşı.
3. General-mayor Murad Gəray bəy Tlexas.
4. General-mayor Həbib bəy Səlimov.
5. General-mayor İbrahim ağa Usubov.
6. Şahsoylu Əmir Kazım Mirzə Qacar [Rus-erməni-sovet-mason bolşefaşistləri Abbas Mirzənin soyundan olan daha iki general-mayoru Mirzə Qacarı – Feyzulla ilə Məhəmmədi də güllələyiblər].
7. General-mayor, knyaz A. Makayev (Gürcü) [«Azərbaycan Ordusunun sevimlisi» El sevgisini də qazanmışdır].
8. Albay [polkovnik] [Daniyal] Qalacov.
9. Albay Saymanov.
10. Albay Xazen.
11. Albay Cəlayev.
12. Albay Kodin (Rus).
13. Polkovnik-leytenant, şahsoylu Sədrəddin Mirzə Qacar.
14. Polkovnik-leytenant Boris Konstantinoviç Bekov.
15. Polkovnik-leytenant Fərhad bəy Ağalarov.
16. Kapitan Xuduş Xudaverdiyev.
17. Yüzbaşı Yaqub bəy Əhmədzadə.
18. Sancaq başçısı Nağı bəy Əlizadə.
19. Baş leytenant İbrahim bəy Fəttahov.
20. Baş leytenant Cəfər bəy Axundzadə.
21. Baş leytenant Hüseyn bəy Mirizadə.
22. Baş leytenant Mehdizadə.
23. Kiçik leytenant İlyas bəy Talışxanlı.

Parlament elçilərindən

24. Abuzər bəy Rzayev (mühəndis).
25. Məhəmmədbağır bəy Şeyxzamanlı.
26. Murtuza bəy Axundzadə.
27. Müseyib bəy Əlicanov (Hüququ bitirmiş).
28. İsmayıl xan Ziyadxanlı (Keçmiş Duma elçilərindən).

Yazıçı, bilimçi, mollalardan

29. Firidun bəy Köçərli. Mərhum [Firidun bəy] Köçərli Azərbaycan ədəbiyat tarixini araşdıran, tək, dəyərli bir yazıçı, öyrətmən, bilimçi idi.

30. Professor [Lev Aleksandroviç] Zimin. Bakı Universiteti Tarix-ədəbiyat bölməsi başçısı bulunan bu adam tanınmış Doğu bilimçilərindən idi. Azərbaycan Universitetində Doğu tarixini, Ərəb dili-ədəbiyatını öyrədir, bundan başqa Doğunu öyrənən qurumun başçısı idi [Professor Lev Zimin 1919-cu ilin noyabrında Bakıya gələrək Bakı Universitetində işləməyə başlayıb. Rus-erməni-sovet-mason bolşefaşistləri Lev Zimini 1920-ci il mayın 3-də tutub, 10-da ölüm hökmü kəsib, o gün də güllələyiblər. Lev Ziminin adı rusca «Komunist» qəzetinin 11 may 1920-i il, 8-ci sayındakı, güllələnən 21 adamlıq sırada 11-cidir].

31.Piri bəy Mürsəlzadə. «Azərbaycan» qəzetinin yazarlarından.

32.İslam bəy Qəbulzadə. Zaqatalanın ulussevərliyilə seçilən dəyərli öyrətmənlərindən.

33.Mirzə Abbas. Pedaqoji alanda əməklərilə tanınan öyrətmənlərdən.

34.Öyrətmənlərdən Musabəyov.

35.Öyrətmənlərdən Məsumə xanım Musabəyova.

36.Yüksək Alver Məktəbinin öyrəncilərindən Qasım bəy Qasımzadə.

Mülki görəvlilər, eləcə də yaşayanların başqa siniflərindən

37. Gəncənin general-qubernatoru Xudadad bəy Rəfibəyli (doktor-cərrah).

38.Bakı bölgəsinin qubernatoru [Quda] Qudiyev.

39.Bakı polisinin başçısı Rüstəm bəy Mirzəzadə.

40.Gəncə ayaqlanması döyüşçülərindən Qaçaq Qənbər.

41.Nuxa Bələdiyəsinin başçısı Azaq bəy.

42.Ağdaşlı Məhərrəm Əfəndi.

43.Camal Çavuş. Bolşevik aləmində Camal Paşa adı ilə tanınan bu adam çevrilişdən sonra tutulmuşdu. Türmədən buraxıldıqdan sonra Lənkəran Sancağına qaçmış, orada yaşayanları başına toplayaraq Bolşeviklərlə aylarla savaşmışdır. Mərhum Yusif Camal bəy Doğu Anadolu türklərindən olub, bütün varlığı ilə Azərbaycanın bağımsızlığına, Ağalığına ürəkdən bağlı olan dönməz bir döyüşçü idi. Azərbaycan türklərinin könlündə yaşayır!

44.Hüseyn Müzəffərov. Volqaboyu türklərindən Bakı Türk İşçi Birliyinin katibi.

45.Zərif Əfəndi. Volqaboyu türklərindən.

46.Mustafa bəy Rüstəmbəyli. Ağdaş varlılarından

[Bir sıra Azərbaycan şəhidinin adı-soyadı, ordu rütbəsi düzəldilib, yerləri buna uyğun dəyişdirilmişdir. Güllələnənlərin bir çoxundan soraq tutammadıq].

YADİGAR TÜRKEL



1951-ci il aprelin 28-də Biləsuvar rayonunun Bəydili köyündə doğulub.

1969-76-cı illərdə Nəriman Nərimanov adına ADTİ-də oxuyub.

1993-cü ildə «Ekoloji mədəniyətin formalaşmasının sosial-fəlsəfi və tibbi aspektləri»ndən namizədlik, 2005-ci ildə «İnsan, təbiət, cəmiyət münasibətləri (Biososial və fəlsəfi aspektlər)» konusuda doktorluq dissertasiyası müdafiə edib.

1999-cu iyulun 1-dən AMEA Milli Münasibətlər İnstitutunda, 2003-cü ildən Fəlsəfə-Hüquq İnstitutunun Politologiya şöbəsində işləyir, baş elmi işçidir.

«İnsan, təbiət, cəmiyət», «Biləsuvar», «Dünyanın mahiyəti və dərki haqqında», «İnsan, təbiət, cəmiyət münasibətləri (Biososial və fəlsəfi aspektlər)», «Yazışma və kargüzarlıq» (1997, 1999, 2007), «Demokratik cəmiyətin milli-mənəvi problemləri», «Azərbaycan və Azərbaycançılıq», «Politologiya (açıqlamalarla sözlük)», «Politologiya (açıqlamalarla sözlük və ya milli kimlik dərsləri)», «Nizami Gəncəvinin siyasi və dini-ideoloji baxışları» kitablarını yazmış, respublika basınında ulusal çıxarları qoruyan yüzlərlə elmi-publisistik yazısı çap olunmuşdur.

Məhəmməd Əmin Rəsulzadənin «Azərbaycan şairi Nizami», «Milli birlik», «Azərbaycan şairi Nizami» (Bitkin çapı), «Qafqaz türkləri», «Panturanizm. Qafqaz sorunu», «İran türkləri», «Çağımızın Siyavuşu», Əlimərdan bəy Topçubaşının «Azərbaycan Cümhuriyətinin yaradılması» kitablarını yenidən işləyib çap etmişdir.

İÇİNDƏKİLƏR

Məhəmməd Əmin Rəsulzadə 3
2015-Ci il çapına ön söz 6
Bir mütaliə 10
Giriş 12
I. Azərbaycan ulusu 16
II. Ədəbi, ulusal oyanış 19
III. Birinci dünya savaşı, böyük devrim 36
IV. Qardaş Türkiyənin haraya yetməsi 50
V. Mudros barışının Qafqazdakı sonucları 61
VI. Parlament, etdikləri 64
VII. Önəmli olaylar qarşısında 93
VIII. Bolşevik saldırısı 101
IX. İndiki durum 122
X. Qızıl imperializm 132
XI. Bağımsızlıq ideali 142
Azərbaycan qurbanlarından bir sıra 146

Çapa imzalanmışdır: 12.01.2015
Kitabın formatı: 60x84 1/16. Həcm: 9,5 ç.v.
Sifariş: 23. Tiraj: 300

163360

10m

Ar 2015/1825